Xalqın qəzeti!

# Xalq qəzeti

№ 14 (30983) 24 yanvar 2026-cı il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi

# Dünya yeni düzənə və ədalətli sülhə möhtacdır



Azərbaycan Respublikası Sülh Şurasına qoşularaq, onun Qəzzadakı münaqişənin sonlandırılması və uzunmüddətli münaqişədən əziyyət çəkən bütün tərəflərə daha təhlükəsiz və rifahlı gələcək qurulması kimi nəcib missiyasını paylaşacaq.

İnanıram ki, Sülh Şurası səmərəli beynəlxalq təşkilat olub, öz missiyasını uğurla yerinə yetirəcək.

*İlham ƏLİYEV,*
*Azərbaycan Respublikasının Prezidenti*

## NATO Cənubi Qafqaza Bakıdan baxır




**2026-cı ildə Şimali Atlantika Müqaviləsi Təşkilatı (NATO) ilə Azərbaycan Respublikası arasındakı strateji dialoq həlledici mərhələyə qədəm qoyub. Qlobal güc mərkəzləri arasındakı rəqabətin kəskinləşdiyi dövrdə Cənubi Qafqaz regionu Avro-Atlantik məkanın təhlükəsizlik arxitekturasının ayrılmaz komponenti kimi çıxış edir. Rəsmi Bakının yürütdüyü çoxvektorlu, milli maraqlara söykənən və müstəqil xarici siyasət kursu Qərb institutları tərəfindən yüksək qiymətləndirilir. Alyans rəsmilərinin ritorikası, diplomatik təmasların intensivliyi onu deməyə əsas verir ki, Azərbaycan artıq regionun şəriksiz lideri və etibarlı təhlükəsizlik tərəfdaşı statusunu tam şəkildə təsbit edib.**

Bu strateji yaxınlaşmanın ən bariz nümunəsi kimi, 2026-cı ilin yanvar ayında NATO Baş katibinin müavini Radmila Şekerinskanın Azərbaycana reallaşan rəsmi səfərini xüsusi qeyd etmək zəruridir. Sözügedən səfər sadəcə protokol xarakteri daşımır, əksinə, tərəflər arasındakı münasibətlərin dərinliyini və gündəliyin zənginliyini nümayiş etdirir. Səfər çərçivəsində Radmila Şekerinskanın Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov, Milli Məclisin sədri Sahibə Qafarova və Azərbaycan Respublikası Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov ilə keçirdiyi görüşlər siyasi dialoqun miqyasını göstərən mühüm indikatorlardır. Keçirilən görüşlərdə tərəflər Azərbaycan–NATO tərəfdaşlığının mövcud vəziyyətini hərtərəfli nəzərdən keçirmiş, Ermənistan–Azərbaycan normallaşma prosesinin cari statusu, eləcə də alyansın Qara dəniz regionunda sabitliyin təmin edilməsinə verdiyi dəstək kimi qarşılıqlı maraq doğuran strateji məsələlər ətrafında geniş fikir mübadiləsi aparıbalar. Qara dəniz və Xəzər hövzəsi təhlükəsizliyinin vahid bir kontekstdə müzakirə olunması Qərbin Azərbaycana baxış bucağının dəyişdiyini, ölkəmizin Avropanın enerji və fiziki təhlükəsizliyində oynadığı rolun əvəzsiz olduğunu sübut edir.

*(ardı 4-cü səhifədə)*

## Ölkəmiz su qıtlığı yaşamayacaq



Səhifə ⇨ 11

## Enerji əməkdaşlığının sülh və sabitlik təminatı

*Bu sahədə Bakı–İrəvan dialoqu regional əməkdaşlığın açarına çevrilir*

**Ermənistanın Baş naziri Nikol Paşinyan ölkəsi ilə Azərbaycanın Trampın Beynəlxalq Sülh və Rifah Marşrutu (TRIPP) layihəsi çərçivəsində elektrik enerjisinin idxal və ixrac imkanlarından qarşılıqlı istifadə edə biləcəyini açıqlayıb.**



Paşinyan bunu Ümumdünya İqtisadi Forumunda iştirak etmək üçün Davosa getməzdən əvvəl – yanvarın 21-də parlamentdə keçirilən hökumət saatı zamanı bildirib. Deyib ki, Ermənistan və Azərbaycanın enerji sistemləri birmənalı şəkildə birləşdiriləcək. Onun sözlərinə görə, tərəflər həm ixrac, həm də idxal resurslarından bərabər şərtlərlə istifadə etmək imkanı əldə edəcəklər: “Bəli, birmənalı və qeyd-şərtsiz Ermənistan və Azərbaycanın enerji sistemləri bir-biri ilə birləşdiriləcək və ixrac və idxal imkanlarından eyni şərtlərlə qarşılıqlı şəkildə istifadə edəcəklər”.

*(ardı 4-cü səhifədə)*

## Sülh Şurası – Dünyada təhlükəsizliyin çevik və işlək modeli

*Yeni qlobal platformanın formalaşmasında Azərbaycanın fəal iştirakı*




**Davos İqtisadi Forumu çərçivəsində Azərbaycan Prezidenti İlham Əliyev ilə Amerika Birləşmiş Ştatlarının Prezidenti Donald Tramp arasında baş tutan görüş qlobal idarəetmə mexanizmlərinin yenilənməsi kontekstində mühüm strateji mesajdır. Görüş zamanı ABŞ Prezidentinin sədrliyi ilə yaradılmış Sülh Şurasının fəaliyyətinin xüsusi vurğulanması və Azərbaycanın bu quruma təsisçi üzv qismində dəvət olunması beynəlxalq sistemdə yeni institusional platformanın formalaşdığını göstərən əlamətdar proses kimi qiymətləndirilməlidir.**

Son onillikdə beynəlxalq münasibətlər sistemi post–soyuq müharibə dövründə formalaşmış liberal institusional nizamın sistemli eroziyası ilə üzləşib. BMT, ATƏT, Ümumdünya Ticarət Təşkilatı, G7 kimi klassik çoxtərəfli institutlar normativ legitimliyini qismən qorusa da, real icra mexanizmləri baxımından funksional iflic vəziyyətinə yaxınlaşıb.

*(ardı 3-cü səhifədə)*

## Qərbi Azərbaycana qayıdış Ermənistan üçün də faydalıdır



Səhifə ⇨ 5

## Dezinformasiyaya qarşı dünya modeli

Səhifə ⇨ 6

## Sülh prosesi iqtisadi fəallıqla müşayiət olunur




Səhifə ⇨ 7

# İspaniya Deputatlar Konqresinin sədri Ulu öndərin məzarını ziyarət edib

**Ölkəmizdə rəsmi səfərdə olan İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosias yanvarın 23-də Fəxri xiyabana gələrək xalqımızın Ümummilli lideri, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin məzarını ziyarət edib.**

Ziyarət zamanı Ulu öndərin xatirəsi ehtiramla yad edilib, abidəsi önünə əklil qoyulub.

*

**İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosias həmin gün Bakıda Zəfər parkını da ziyarət edib. Burada qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.**

İspaniya Krallığı Deputatlar Konqresinin sədri Zəfər abidəsinin önünə əklil qoyub. Qonağa Azərbaycan xalqının Vətən müharibəsində göstərdiyi misilsiz qəhrəmanlığın və qazandığı möhtəşəm tarixi Zəfərin yaddaşlarda yaşadılması, şəhidlərimizin əziz xatirəsinin əbədiləşdirilməsi məqsədilə yaradılmış Zəfər parkı barədə ətraflı məlumat verilib.

Sonra qonaq Zəfər muzeyi ilə tanış olub.









# İspaniyalı spiker Milli Məclisdə

**Yanvarın 23-də ölkəmizdə rəsmi səfərdə olan İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosiasın başçılıq etdiyi nümayəndə heyəti Milli Məclisə gəlib.**



Qonaqlar parlamentin plenar iclas zalı ilə tanışlıqdan sonra Milli Məclisdə Heydər Əliyev Muzeyində olublar, Fransina Armenqol burada Xatirə kitabını imzalayıb.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova və İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosiasın başçılıq etdiyi nümayəndə heyəti arasında geniş tərkibdə görüş olub.





Görüşdə bu səfərin İspaniya parlament sədrinin Azərbaycana ilk səfəri kimi xüsusi əhəmiyyəti vurğulanıb. Bildirilib ki, Milli Məclis sədrinin 2025-ci ilin mayında İspaniya Krallığına ilk rəsmi səfərindən sonra həyata keçirilən bu səfər İspaniya ilə Azərbaycan arasında parlamentlərarası əlaqələrin inkişafına göstərilən diqqətin bariz nümunəsidir.

Qeyd edilib ki, xüsusən son dövrlərdə ölkələrimiz arasında fəal siyasi dialoqun müşahidə olunması çox mühüm məqamdır. Belə ki, İspaniyanın Baş naziri Pedro Sançezin 2024-cü ilin noyabrında COP29 tədbiri çərçivəsində ölkəmizə işgüzar səfəri zamanı Prezident İlham Əliyevlə görüşdə əlaqələrin genişləndirilməsi üçün bir sıra mühüm birgə təşəbbüslərin həyata keçirilməsinə dair razılıq əldə olunub.

Görüşdə ikitərəfli əməkdaşlığın inkişafını təşviq etmək üçün iki ölkə arasındakı müqavilə-hüquq bazasının genişləndirilməsi, ölkələrimiz arasında münasibətlərdə iqtisadi əməkdaşlığın rolu, İspaniya şirkətlərinin Azərbaycanda fəaliyyəti, bərpaolunan enerji, təhsil, elm, mədəniyyət sahələrində əməkdaşlığın əhəmiyyəti barədə fikir mübadiləsi aparılıb.

Azərbaycanda səfərdə olmaqdan məmnunluğunu bildirən İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol Sosias Bakıda ziyarət etdiyi Zəfər muzeyi və ölkəmizdə gördüyü inkişaf barədə təəssüratlarını bölüşüb.

Söhbət zamanı parlamentlərarası əlaqələrin inkişaf perspektivləri və qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb.

*

**Milli Məclisin sədri Sahibə Qafarova və İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol ikitərəfli görüşdən sonra mətbuata bəyanatla çıxış ediblər.**

Milli Məclisin sədri son dövrlərdə ölkələrimiz arasında fəal siyasi dialoqun müşahidə olunduğunu bildirib. Onun sözlərinə görə, bu, ikitərəfli əlaqələrin mövcud vəziyyətinin və perspektivlərinin ətraflı müzakirəsinə imkan yaradır.

Bugünkü ikitərəfli görüşdə parlamentlər arasında əlaqələrin müzakirə olunduğunu bildirən Sahibə Qafarova deyib ki, tərəflər parlament üzvlərinin, ayrı-ayrı nümayəndə heyətlərinin qarşılıqlı səfərlərinin əhəmiyyətini vurğulayıb.

İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol da mətbuata bəyanatında görüşdə konstruktiv, yaxın və faydalı müzakirələr aparıldığını qeyd edib. Eyni zamanda, İspaniya Deputatlar Konqresinin sədri kimi Azərbaycanda olmaqdan böyük şərəf duyduğunu söyləyib.

O, həmçinin qeyd edib ki, İspaniya və Azərbaycan arasında ikitərəfli əlaqələri dərinləşdirmək üzrə ortaq iradə aşkar şəkildə ifadə olunur.

***XQ***

# XİN-də genişmtərkibli kollegiya iclası keçirilib

**Yanvarın 23-də Xarici İşlər Nazirliyində nazir Ceyhun Bayramovun rəhbərliyi ilə geniştərkibli kollegiya iclası keçirilib.**

Bu barədə XİN-in Mətbuat xidməti idarəsindən məlumat verilib. Bildirilib ki, iclasda Xarici İşlər Nazirliyinin rəhbər heyəti və struktur bölmə rəhbərləri iştirak ediblər.

Kollegiya iclası zamanı Azərbaycan Prezidentinin müəyyən etdiyi xarici siyasət xəttinə uyğun olaraq 2025-ci il ərzində XİN tərəfindən görülən işlər, 2026-cı il üzrə əsas prioritetlər, ikitərəfli və çoxtərəfli əməkdaşlıq məsələləri, iqtisadi, iqlim və humanitar diplomatiya, beynəlxalq yardım səyləri, postmünaqişə dövründə diplomatik fəaliyyət, xaricdə Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının qorunması üzrə işlər və nazirliyin fəaliyyətinin təşkili məsələləri müzakirə olunub, müvafiq tapşırıqlar verilib.



# Azərbaycan Dini Konfessiyalarının Məşvərət Şurasının təbriki

**Möhtərəm cənab Prezident,**

Uca Yaradana çox şükürlər olsun ki, Zati-alilərinizi davamlı uğur və nailiyyətləriniz münasibətilə təbrik etmək səadətini bizlərə nəsib edir. Cənabınızı Azərbaycan və Ermənistan arasında sülhün əldə edilməsi ilə bağlı göstərdiyiniz səylərə görə beynəlxalq "Zayed İnsan Qardaşlığı Mükafatı"na layiq görülməyiniz münasibətilə səmimi-qəlbdən təbrik edir, Sizə uca bəşəri dəyərlər naminə fəaliyyətinizdə yeni zirvələr arzulayırıq.

Zati-alilərinizin rəhbərliyi ilə qazanılmış böyük Qarabağ Zəfərinin ardınca Azərbaycan xalqına qlobal siyasi-diplomatik müstəvidə tarixi əhəmiyyətli qələbələr və nüfuzlu beynəlxalq mükafatların qürurunu bəxş etməkdəsiniz. Sizin dünya miqyasında insan qardaşlığına xidmət edən ideya və təşəbbüsləriniz Azərbaycan dövlətinə beynəlxalq müstəvidə yenilməzlik, etimad və ehtiram qazandırır. Məhz Zati-alilərinizin xeyir-duası ilə Şeyxülislamın timsalında Azərbaycanın təmsil olunduğu Müsəlman Ağsaqqalları Şurasının sədri, Əl-Əzhər Şərifin şeyxi, böyük imam Əhməd Əl-Tayyib və mərhum Roma Papası Fransisk tərəfindən imzalanmış sənəd əsasında təsis olunmuş mötəbər mükafatla təltif olunmağınız Zati-alilərinizin Uca Yaradana xoş gedən səy və əməllərinin bəşər ailəsi tərəfindən dəyərləndirilməsinin təzahürüdür.

Fəxarət duyuruq ki, Azərbaycanın nümunəvi dinlərarası əməkdaşlıq, multikulturalizm və məzhəblərarası anlaşma modeli dünya miqyasında təqdir olunur və bu, Zati-alilərinizin müasir, müdrik dövlətçilik siyasətinin bəhrələridir. Sülh, sabitlik, qarşılıqlı anlaşma olmadan tərəqqi, rifah mümkün deyil və Azərbaycanın siyasi lideri olaraq Cənabınızın bu istiqamətdə fəaliyyəti ən xoş sözlərə, ən yüksək mükafatlara layiqdir. Zati-alilərinizin dünyanın sülh gündəmində ön sırada olmağı - Sülh Şurasında təsisçi qismində iştirakı Uca Yaradana xoş gedən ideallar naminə dəyərli fəaliyyətinizin daha bir parlaq əməli nümunəsidir. Zati-alilərinizi belə bir mötəbər qlobal müstəvidə təsisçi qismində görmək bizi qürurlandırır, Azərbaycan xalqının ayrılmaz hissəsi olan dindarlarda rəğbət və fəxarət doğurur. Əminik ki, bu tarixi addımınız qlobal sülh, bəşəriyyəti narahat edən təhdid və təhlükələrin aradan qaldırılması işində böyük rol oynayacaqdır, inşallah. Dualarımız Sizinlədir. Uca Rəbbimiz Sizi və dəyərli ailənizi qorusun!

Ulu öndər Heydər Əliyevin təməlini qoyduğu Azərbaycan dövlətinin milli-mənəvi və ümumbəşəri-multikultural dəyərlərə əsaslanan dövlət siyasətini beynəlxalq müstəvidə möhkəmləndirməyə nail olmuş dünya miqyaslı qətiyyətli lider, müdrik dövlət xadimi olaraq Zati-alilərinizin rəhbərlik etdiyi ölkənin dini konfessiyalarının rəhbərləri olaraq sonsuz şərəf duyuruq. Ölkəmizin hüdudlarından kənarda, ən mötəbər beynəlxalq tədbirlərdə hər dəfə bu hissi yaşayan şəxslər olaraq Sizin fəaliyyətinizə Ulu Yaradandan xeyir-dualar diləyirik.

Zati-aliləri, Siz Azərbaycanın adını, Azərbaycan xalqının şöhrətini yüksəklərə qaldıran müqtədir siyasi xadimsiniz. Müdrik dövlətçilik təfəkkürü ilə Azərbaycana həyatın bütün sahələrində qazandırdığınız uğur və nailiyyətlərə görə Azərbaycan dindarları adından Cənabınıza bir daha dərin minnətdarlığımızı ifadə edir, ən xoş arzularımızı, xeyir-dualarımızı yetiririk. Milli-mənəvi və ümumbəşəri dəyərlərə ehtiramı ilə seçilən, qlobal müstəvidə Sülh Şurasının fəal iştirakçısı və təsisçisi olan Öndərin, ali mükafata layiq görülmüş Müzəffər Liderin səy və əməllərinə Ulu Rəbbimizdən rəvac diləyirik.

Uca Yaradan Azərbaycan dövlətini hifz etsin, Zati-alilərinizi hər zaman zirvələrdə qərar versin! Amin!

**Dərin hörmət və ehtiramla,**

***Şeyxülislam Allahşükür PAŞAZADƏ,***
***Qafqaz Müsəlmanları İdarəsinin sədri,***

***ALEKSİY,***
***Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan yepiskopu,***

***Vladimir FEKETE,***
***Roma Katolik Kilsəsinin Azərbaycandakı Apostol prefekturasının ordinarisi,***

***Milix Yevdayev,***
***Azərbaycandakı Dağ Yəhudiləri İcmasının rəhbəri,***

***Aleksandr ŞAROVSKİ,***
***Bakıdakı Avropa Yəhudiləri İcmasının rəhbəri,***

***Robert Mobili,***
***Alban-udi Xristian Dini İcmasının sədri,***

***Zamir İSAYEV,***
***Sefarad yəhudiləri Bakı dini icmasının rəhbəri***

# Əli Əsədovun İspaniya parlamentinin sədri ilə görüşü



**Azərbaycan Respublikasının Baş naziri Əli Əsədov yanvarın 23-də İspaniya Krallığı Deputatlar Konqresinin sədri Fransina Armenqol ilə görüşüb.**

Nazirlər Kabinetinin Mətbuat xidmətindən bildirilib ki, Baş nazir Ə.Əsədov bir neçə gün əvvəl İspaniyada baş vermiş qatar qəzası nəticəsində çoxsaylı insan tələfatı ilə əlaqədar F.Armenqola başsağlığı verib.

Görüşdə Azərbaycan ilə İspaniya arasında mövcud əlaqələrin müxtəlif sahələrdə müsbət dinamika nümayiş etdirdiyi bildirilib, dövlətlərarası münasibətlərin dostluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslandığı qeyd edilib.

Parlamentlərarası əməkdaşlıq məsələlərinə toxunularaq parlament səviyyəsində qarşılıqlı səfərlərin və təmasların önəmi vurğulanıb.

İki ölkə arasında müxtəlif istiqamətlərdə, xüsusən də ticarət-iqtisadi, investisiya, enerji, o cümlədən bərpaolunan enerji, nəqliyyat və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığın inkişaf perspektivləri müzakirə olunub.

***XQ***

# İqtisadiyyat nazirinin Davos müzakirələri




**Prezident İlham Əliyevin rəhbərliyi ilə Davos İqtisadi Forumunda (DİF) iştirak çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov Avropa İttifaqının Genişlənmə üzrə komissarı Marta Kos ilə görüşüb.**

Görüşdə Azərbaycanla iqtisadi əməkdaşlığın gündəmində olan prioritetlər, ticarət və enerji sahəsində tərəfdaşlıq, nəqliyyat-logistika infrastrukturunun inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlər vurğulanıb. Azərbaycanla Avropa İttifaqı arasında iqtisadi əlaqələrin inkişaf etdirilməsi potensialının reallaşdırılması barədə müzakirələr aparılıb.

DİF çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov İsrail Dövlətinin iqtisadiyyat və sənaye naziri Nir Barkatla görüşüb. Görüşdə ticarət, sənaye, enerji və biznes tərəfdaşlığı istiqamətində qarşılıqlı fəaliyyətin perspektivləri vurğulanıb. Ölkələrimiz arasında iqtisadi əməkdaşlığın gündəmində olan aktual məsələlər nəzərdən keçirilib.

Azərbaycan Prezidentinin Davos İqtisadi Forumunda iştirakı çərçivəsində iqtisadiyyat naziri Mikayıl Cabbarov "Coca-Cola" şirkətinin qlobal siyasət və dayanıqlılıq üzrə baş vitse-prezidenti Maykl Qoltsman, Harvard Universitetinin "Growth Lab" Beynəlxalq İnkişaf Mərkəzinin direktoru Rikardo Hausman, "Boston Consulting Group"un vitse-sədri və "BCG Henderson Institute"un qlobal rəhbəri Nikolaus Lanq və "Menzies Aviation" şirkətinin icraçı sədri Hassan El-Houri ilə də görüşüb.

Qeyd edək ki, Davos İqtisadi Forumu çərçivəsində SOCAR ilə İsveçrənin SİCPA SA şirkəti arasında xidmətlərin göstərilməsinə dair sənəd imzalanıb. Bu əməkdaşlıq müasir monitorinq texnologiyaları vasitəsilə birgə fəaliyyət çərçivəsinin yaranmasını təmin edəcək. Yeni həllər enerji təchizatı zənciri üzrə təhlükəsizliyin təmin edilməsinə və şəffaflığın artırılmasına töhfə verəcək.

***XQ***

# DİN-də 2025-ci ilin yekunlarının müzakirəsi





**Yanvarın 23-də Daxili İşlər Nazirliyində 2025-ci ildə cinayətkarlığa qarşı mübarizə, ictimai qaydanın qorunması və ictimai təhlükəsizliyin təmin edilməsi üzrə fəaliyyətin yekunlarına və cari ildə qarşıda duran vəzifələrə həsr olunmuş geniş Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilən hüquq mühafizə siyasəti sayəsində ölkəmizdə möhkəm təməllərə söykənən sabitlik "Konstitusiya və Suverenlik İli" olan 2025-ci ildə də etibarlı qorunub. Cinayətkarlıqla mübarizə, ictimai asayişin qorunması, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində xidməti vəzifələr layiqincə yerinə yetirilib, beynəlxalq və respublika əhəmiyyətli kütləvi tədbirlərdə, habelə işğaldan azad olunmuş ərazilərdə təhlükəsizlik etibarlı təmin edilib. Ümumən qanunla müəyyən edilmiş funksiyaların icrası digər hüquq mühafizə orqanları ilə qarşılıqlı əlaqədə peşəkarlıq və qətiyyətlə davam etdirilib.

Hesabat məruzəsində vurğulanıb ki, ötən il əməliyyat-axtarış və istintaq fəaliyyətinin subyekti olan bütün dövlət qurumları üzrə 31.852 cinayət qeydə alınıb, onlardan 90,5 faizi açılıb, əhalinin hər 100 min nəfərinə düşən cinayətlərin sayı 310 fakt təşkil edib. Cinayətlərin 92,8 faizi və ya 29.572-i daxili işlər və prokurorluq orqanlarının səlahiyyətləri çərçivəsində araşdırılan hüquqazidd əməllər olmaqla 93,5 faizinin açılması təmin edilib. Cinayətlərin ağır və xüsusilə ağır növlərinin 90,1, qeyri-aşkar şəraitdə baş verənlərin 90,9, şəxsiyyət əleyhinə olanların 98,9, mülkiyyət əleyhinə olanların 89,5 faizi, qəsdən adam öldürmələrin, qəsdən sağlamlığa ağır zərər vurmaların, soyğunçuluqların və quldurluqların hamısı açılıb.

Xırda talamaların açılmasının nəticələri də yaxşılaşaraq 92 faizə yüksəlib.

Cinayətlərin ağır, xüsusilə ağır və transmilli mütəşəkkil növlərinin qarşısının alınması və istintaqı kimi mühüm vəzifələrin icrası sahəsində böyük bir iş həcmi yerinə yetirilib. Prokurorluq orqanları ilə birgə həyata keçirilmiş istintaq-əməliyyat tədbirləri ilə cəmiyyətdə rezonans doğurmuş bir sıra cinayətlərin açılması təmin edilib, eləcə də keçmiş illərdən bağlı qalmış 355 cinayət açılaraq təqsirli şəxslər məsuliyyətə cəlb olunub.

Ağır və xüsusilə ağır cinayətlər törətmiş 1.033 nəfər tutulub, 214 kriminal qrup zərərsizləşdirilib. Qrup halında baş verən cinayətlər 8,9, odlu silahın tətbiqi ilə törədilənlər 44,1, ailə münaqişəsi zəminli cinayətlər 3,1, əvvəllər məhkum olunmuş şəxslər tərəfindən törədilənlər 17,5 faiz azalıb. Eyni zamanda, ümumi cinayətlər 6,2, ağır və xüsusilə ağır cinayətlər 8,6, qeyri-aşkar şəraitdə baş verənlər 10,5, qəsdən adam öldürmələr 8,8, qəsdən sağlamlığa ağır zərər vurmalar 4,7, mülkiyyət əleyhinə olanlar 6,7, onlardan informasiya texnologiyalarından istifadə edilməklə törədilənlər 16,9, habelə yol-nəqliyyat hadisələri 12,3, qəzalarda ölənlərin sayı 9,8, xəsarət alanların sayı 13,6 faiz azalıb.

Həyata keçirilmiş qabaqlayıcı tədbirlərlə 90 erkən evliliyə cəhd faktı müəyyən edilərək 28 nəfər cinayət məsuliyyətinə cəlb olunub, 5 valideyn və 41 aidiyyəti şəxs barədə inzibati tənbeh tətbiq edilib, daha 57 şəxslə profilaktik iş aparılıb. Həmçinin 15 qız qaçırma faktı üzrə Cinayət Məcəlləsinin adam oğurluğu maddəsi ilə cinayət işi başlanılaraq 32 şəxs haqda müvafiq məsuliyyət tədbirləri görülüb.

Qeyri-leqal dövriyyədən 2024-cü illə müqayisədə 961 kiloqram çox - 5 ton 675 kiloqram narkotik vasitə çıxarılıb, 272 kiloqram narkotikin qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilməsinin qarşısı alınıb, onlayn satışla bağlı 2 ton 724 kiloqram müvafiq vasitə aşkarlanıb, qanunsuz kultivasiya edilən və yabanı halda bitən 294 tondan artıq çətənə və xaş-xaş kolu yığılaraq məhv edilib, narkotiklərlə əlaqəli cinayətlərə görə 88 cinayətkar qrup zərərsizləşdirilib.

İnternet resurslarının real vaxt rejimində monitorinqi də davam etdirilərək dini radikalizmi və kriminal həyat tərzini təbliğ edən 954, narkotik vasitələrin onlayn satışı ilə məşğul olan 769, pornoqrafik materiallar yayan 272, kompüter sistemlərinə zərər vuran viruslar yayan 189, qanunsuz idman mərc oyunları təşkil edən 1.131, ümumilikdə 3.315 sayt, sosial şəbəkə hesabı və səhifə aşkarlanaraq bloklanması təmin edilib.

Təqsirləndirilən şəxslərin axtarışının nəticələri də yaxşılaşaraq 89,3 faiz təşkil edib, İnterpolun Milli Mərkəzi Bürosu vasitəsilə beynəlxalq axtarışa verilmiş 82 şəxsin və bu təşkilata üzv ölkələr tərəfindən axtarılan 40 nəfərin yeri müəyyən olunub.

Ümumilikdə 5.199 odlu silah, o cümlədən işğaldan azad edilmiş ərazilərdən 1.079 döyüş silahı, 2.183 mərmi və 220 mindən çox patron aşkarlanıb. Qanunsuz odlu silah saxlama və daşıma ilə bağlı 502 fakt müəyyən edilib, həmin cinayətlərə görə 153 nəfər tutulub.

Qarabağ və Şərqi Zəngəzurda xidmət aparan polis və Daxili Qoşunlar Böyük Qayıdış proqramının sürətlənməsi üçün əzmlə çalışaraq üzərlərinə düşən vəzifələri tam həcmdə yerinə yetirib.

Fəaliyyətin mühüm istiqamətlərindən olan və gündəlik nəzarətdə saxlanılan vətəndaş məmnunluğunun təmin edilməsi tədbirləri çərçivəsində ümumilikdə 8.491, o cümlədən mediada qabaqcadan məlumat verilməklə respublikanın 70 şəhər və rayonundan olan 6.910 şəxs qəbul edilib, qaldırılan məsələlərin əksəriyyəti yerində və müsbət həll edilib. Vətəndaş müraciətlərinə həssaslıqla baxılaraq Nazirliyə, onun "102" Xidmətinə və qaynar xətlərə daxil olmuş, eləcə də sosial şəbəkələrdə yayımlanmış 3 milyona yaxın müraciətə çevik reaksiya verilib, habelə cinayətlər nəticəsində vurulmuş maddi ziyanın 86,7 faizi ödənilib. Dövlət-vətəndaş münasibətlərində şəffaflığın, operativliyin artırılmasına xidmət edən, sənədlərin və informativ məlumatların əldə olunması funksionallığını özündə birləşdirən "E-Polis" mobil tətbiqi təkmilləşdirilib və ötən ilin sonuna 825 mindən çox vətəndaş qeydiyyatdan keçib.

Şəxsi heyətin peşəkarlığının artırılması, mükəmməl nəzəri və praktiki hazırlığa malik olması, müasir iş metodlarına yiyələnməsi, bilik və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə ölkə daxilində və xarici dövlətlərdə keçirilən təlim, seminar, treninq, kurslara və onlayn formatda proqramlara 63 mindən çox polis əməkdaşı və Daxili Qoşun hərbi qulluqçusu cəlb edilib.

İclasın gündəliyinə uyğun olaraq məruzəətrafı çıxışlar da dinlənilib. Çıxış edənlər görülmüş işlərdən, əldə olunmuş nəticələrdən, mövcud nöqsanlardan və onların aradan qaldırılması üzrə həyata keçirilən tədbirlərdən danışıb.

Kollegiya iclasına yekun vuran nazir 2025-ci ildə əldə olunmuş müsbət nəticələrin polis-vətəndaş münasibətlərinin davamlı inkişafının təzahürü və aidiyyəti dövlət orqanları ilə səmərəli əməkdaşlığın məntiqi yekunu olduğunu qeyd edərək göstərdikləri dəstəyə görə onlara təşəkkürünü bildirib. Cəmiyyətdə sabitliyin və təhlükəsizliyin qorunub saxlanılması naminə mövcud əlaqələrin gücləndirilməsinin vacibliyini, eləcə də vətəndaş məmnunluğunun təmin edilməsinin və hər bir şəxsin qanuni mənafeyinin və hüquqlarının müdafiəsinin əsas vəzifələrdən olduğunu vurğulayıb. Bu kontekstdə cinayətlərin qarşısının alınması, açılması və araşdırılması üzrə xidməti vəzifələrin icrasına, hüquqazidd əməllər nəticəsində vurulmuş maddi ziyanın ödətdirilməsi, vətəndaş müraciətlərinə baxılması və onların qəbulu işinə yüksək məsuliyyət və peşəkarlıqla yanaşılmasını tələb edib. Antinarkotik təbliğat sahəsində keçirilmiş maarifləndirmə tədbirlərinin əhəmiyyətinə də diqqət çəkərək bu istiqamətdə fəaliyyətin məqsədyönlü davam etdirilməsini və müvafiq tədbirlərdə iştirak edən dövlət qurumlarının mütəxəssislərinin, pedaqoqların, ictimaiyyət nümayəndələrinin tərkibinin genişləndirilməsini, məktəblərdən, valideynlərdən gələn hər bir aidiyyəti siqnala çevik reaksiya verilməsini tövsiyə edib.

Çıxışında bəzi ərazi orqanlarının fəaliyyətində olan çatışmazlıqları da qeyd edərək onların aradan qaldırılması və xidməti fəaliyyətin səmərəliliyinin davamlı surətdə artırılması ilə bağlı tapşırıqlarını verib.

General-polkovnik Vilayət Eyvazov daxili işlər orqanlarına, onun maddi-texniki bazasının möhkəmləndirilməsinə, şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə, infrastrukturunun yenilənməsinə göstərdiyi ali diqqət və qayğıya, fəaliyyətinə verdiyi böyük dəyərə və etimadına görə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevə bütün şəxsi heyət adından dərin minnətdarlığını bildirib və əmin edib ki, ölkədə qanunçuluğun, hüquq qaydasının qorunması, vətəndaşların təhlükəsizliyinin və məmnunluğunun təmin olunması sahəsində vəzifələr böyük əzm və qətiyyətlə davam etdiriləcəkdir.

# Hərbi Prokurorluq ötən ilə yekun vurub





**Yanvarın 23-də Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə Hərbi Prokurorluqda 2025-ci il ərzində hərbi prokurorluq orqanlarında cinayətkarlığa qarşı mübarizə, ədalət mühakiməsinin həyata keçirilməsində iştirak, qanunların icra və tətbiq olunmasına nəzarət, cinayət mühakimə və cinayət təqibindən kənar icraatlarda insan hüquq və azadlıqlarının müdafiəsi və qanunla müəyyən edilmiş digər sahələrdə görülmüş işlərin vəziyyəti və qarşıda duran vəzifələrin müzakirəsinə həsr olunmuş geniş kollegiya iclası keçirilib.**

Kollegiya iclasında Baş prokuror Kamran Əliyev giriş nitqi ilə çıxış edərək bildirib ki, xalqımızın ümummilli lideri Heydər Əliyevin müstəqil Azərbaycanın davamlı inkişaf konsepsiyasını qloballaşma dövrünün diktə etdiyi yeni şərtlərlə davam etdirməyə qadir olan, praqmatik, rasional təfəkkürlü, xalqını və dövlətini sevən, yüksək idarəçilik keyfiyyətlərinə malik siyasi davamçısı Prezident İlham Əliyev tarixin ən qüdrətli Azərbaycanının yaradıcısı olmaqla bərabər, həm də onun ən böyük Zəfərinin Müzəffər Ali Baş Komandanıdır. Tarixin bu astanasında Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin tam təmin edilməsi isə Prezident İlham Əliyevin tarixi missiyasının ən parlaq məqamlarından birinə çevrilib. Baş prokuror qeyd edib ki, respublikamızın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva ulu öndər Heydər Əliyev ideyalarına söykənməklə özünün çoxşaxəli və məzmunlu fəaliyyəti ilə məhz həqiqətlərin dünyaya çatdırılmasına yorulmaz əmək sərf edir.

Sonra hesabat məruzəsi ilə çıxış edən Baş prokurorun müavini-hərbi prokuror, ədliyyə general-mayoru Bəhruz Əhmədov qeyd edib ki, tarixi Zəfərin şərtləndirdiyi ordu quruculuğunun yeni mərhələsində Hərbi prokurorluq orqanlarının fəaliyyəti də Azərbaycan Silahlı Qüvvələrində hərbi intizamın möhkəmləndirilməsinə, cinayətkarlıq və qanun pozuntularının qarşısının alınması və aradan qaldırılmasına, insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasına, həmçinin hərbi təsisatlarda hüquqazidd əməllərə qarşı mübarizəyə, eyni zamanda, dövlətimizin qüdrətinə, milli mənafelərimizə və Silahlı Qüvvələrimizin nüfuzuna xələl gətirə biləcək nöqsanların və qanun pozuntularının aradan qaldırılmasına yönəlib.

Bildirilib ki, 2025-ci ildə hərbi prokurorluq orqanları tərəfindən qeydə alınmış cinayət hadisələrinin 99,7 faizinin açılması təmin edilib.

Müsbət hal qismində vurğulanılıb ki, hesabat ilində qeydə alınmış hərbi xidmət əleyhinə cinayətlərin sayında 21,3 faiz azalma müşahidə edilməkdədir.

Qeyd edilib ki, 2025-ci ildə Azərbaycan Respublikası Hərbi Prokurorluğu üzrə "962-Etimad xətti" yaradılıb, fəaliyyətdə olduğu 4 aylıq müddət ərzində həmin əlaqə vasitəsilə daxil olan 219 müraciətə baxılıb.

Bundan başqa, qeyd olunub ki, 2025-ci ildə Hərbi prokurorluq orqanlarına daxil olan 1001 müraciətə müvafiq qaydada baxılıb, eləcə də 3702-si bilavasitə hərbi hissələrdə olmaqla ümumilikdə 5911 vətəndaş qəbul edilərək dinlənilib, müraciətlərinə müvafiq olaraq izahların verilməsi və onların həlli istiqamətində müvafiq tədbirlərin icrası həyata keçirilib.

Bundan əlavə, hesabat dövründə hərbi prokurorluq orqanlarının əməkdaşları tərəfindən qanunvericiliyin təbliği ilə bağlı çoxsaylı tədbirlər keçirilib, 99 dəfə mətbuatda, 18 dəfə televiziyada, 41 dəfə internetdə, 3 dəfə radioda çıxışlar edilib.

Daha sonra Hərbi prokurorun müavinləri-ədliyyə general-mayoru Şəfahət İmranov, ədliyyə polkovniki Nihad Şıxəliyev və ədliyyə polkovniki Qasım Məmmədov, Ağdam hərbi prokuroru, ədliyyə polkovniki Elnur Kərimov və Şəmkir hərbi prokuroru, ədliyyə polkovniki İlham Babayev çıxış edərək, hesabat dövründə görülmüş işlərdən danışıb, qarşıda duran vəzifələrin yerinə yetirilməsi üçün həyata keçiriləcək tədbirlər barədə ətraflı məlumat veriblər.

Kollegiya iclasına yekun vuran Baş prokuror Kamran Əliyev hərbi prokurorluq orqanları əməkdaşlarının Prezident İlham Əliyevin rəhbərliyi ilə görülən böyük işlərdə və həyata keçirilən mütərəqqi islahatlarda yaxından iştirak edəcəklərinə, dövlət müstəqilliyinin, ictimai-siyasi sabitliyin, əmin-amanlığın qorunmasına, qanunun aliliyinin təmin edilməsi üçün əllərindən gələni əsirgəməyəcəklərinə, eləcə də dövlətimizin qüdrətlənməsinə xələl gətirə biləcək bütün hallara qarşı barışmaz mövqe tutacaqlarına əminliyini ifadə edərək, onlara uğurlar arzulayıb.

# Sülh Şurası – Dünyada təhlükəsizliyin çevik və işlək modeli

**(əvvəli 1-ci səhifədə)**

Qərarların konsensus əsasında qəbul olunması, veto mexanizmlərinin siyasi alətə çevrilməsi və böyük güclərin selektiv hüquq tətbiqi bu institutları operativ böhran idarəetmə alətindən daha çox simvolik platformaya transformasiya edib. Mövcud proses beynəlxalq münasibətlər nəzəriyyəsində "institusional disfunksiya" kimi xarakterizə olunur: institutlar dəyişən güc balansına və təhlükəsizlik arxitekturasına adaptasiya edə bilmir, nəticədə sistem qeyri-sabit və proqnozlaşdırılması çətin fazaya daxil olur. Liberal beynəlxalq nizamın əsas dayaqları olan qayda əsaslı idarəetmə, kollektiv təhlükəsizlik və normativ konsensus mexanizmləri fraqmentar və selektiv xarakter almağa başlayır. Nəticə etibarilə beynəlxalq sistemdə normativ boşluq yaranır və bu boşluq yeni alternativ mexanizmlərin meydana çıxmasını obyektiv zərurətə çevirir.

ABŞ–Çin strateji rəqabəti, Rusiya–Qərb qarşıdurması və regional güclərin artan ambisiyaları beynəlxalq sistemi klassik unipolyar və ya liberal çoxtərəfli modeldən çox fraqmentə olunmuş çoxqütblü qeyri-sabit struktura doğru istiqamətləndirir. Güc balansının dəyişməsi normativ və institusional səviyyədə də özünü göstərir.

Böyük güclər artıq mövcud institutları ümumi qaydalar çərçivəsində deyil, öz milli maraqlarının aləti kimi istifadə etməyə meyllidir. Bütün bunlar beynəlxalq təşkilatların neytral vasitəçilik funksiyasını zəiflədir və etimad defisitini dərinləşdirir. Etimadın aşınması isə qarşılıqlı təhlükəsizlik dilemmasını gücləndirərək eskalasiya risklərini artırır. Belə bir konfiqurasiyada klassik çoxtərəfli mexanizmlər konfliktlərin operativ idarə olunmasında effektivliyini itirir və qeyri-formal, çevik, siyasi iradəyə əsaslanan platformalara tələbat artır.

Müasir beynəlxalq təhlükəsizlik mühiti artıq hibrid münaqişələr, qeyri-dövlət aktorları, enerji təhlükəsizliyi riskləri, kibərməkan təhdidləri və humanitar böhranların sinxron təsiri ilə formalaşır. Regional münaqişələr lokal xarakter daşımır; onlar qlobal bazarlara, miqrasiya axınlarına, enerji marşrutlarına və geosiyasi balanslara birbaşa təsir göstərir. Bu vəziyyət təhlükəsizlik gündəliyinin vahid mərkəzdən idarə olunmasını çətinləşdirir. Müxtəlif regionlarda paralel böhranların mövcudluğu beynəlxalq institutların resurslarını və diqqətini parçalayır, prioritetləşdirməni qeyri-mümkün edir. Məhz bu struktur disbalans fonunda yeni tip diplomatik platformaların yaranması beynəlxalq sistemin adaptasiya mexanizmi kimi çıxış edir. Sülh Şurası məhz bu kontekstdə meydana çıxan yeni nəsil beynəlxalq platforma kimi dəyərləndirilə bilər. Onun əsas üstünlüyü hüquqi rigidlikdən daha çox siyasi koordinasiya və strateji liderlik üzərində qurulmasıdır. ABŞ Prezidentinin birbaşa sədrliyi şuraya həm siyasi çəki, həm də qlobal gündəliyə təsir imkanları qazandırır. Şura klassik institutların zəif işlədiyi sahələrdə tamamlayıcı rol oynaya bilər. Əsas strateji fərq ondan ibarətdir ki, şura normativ legitimlikdən çox əməli effektivliyə fokuslanır. Şuranın funksional effektivliyi üç əsas istiqamətdə özünü göstərə bilər.

Birincisi, preventiv diplomatiya müasir təhlükəsizlik arxitekturasında ən az inkişaf etmiş, lakin ən yüksək strateji dividend yaradan istiqamətlərdən biridir. Ənənəvi beynəlxalq institutlar adətən böhran baş verdikdən sonra reaksiya mexanizmlərini işə salır. Halbuki eskalasiyanın erkən mərhələdə qarşısının alınması həm humanitar, həm də geosiyasi baxımdan daha səmərəlidir.

İkincisi, münaqişələrin uzunömürlü xarakter almasının əsas səbəblərindən biri tərəflər arasında etimadın itirilməsidir. Klassik beynəlxalq formatlar çox zaman rəsmi prosedurların ağırlığı səbəbindən elastik dialoq imkanlarını məhdudlaşdırır. Sülh Şurası isə qeyri-formal diplomatiyanın institusionallaşdırılması yolu ilə tərəflər arasında kommunikasiya boşluğunu doldura bilər.



Üçüncüsü isə, münaqişənin formal olaraq bitməsi real sülhün təmin olunması anlamına gəlmir. Təcrübə göstərir ki, post-münaqişə mərhələsində iqtisadi durğunluq, infrastruktur boşluqları yeni gərginliklərin yaranması üçün münbit zəmin yaradır. Sülh Şurası post-münaqişə bərpa prosesində iqtisadi əməkdaşlıq platformalarının təşviqi, nəqliyyat-logistika bağlantılarının açılması və humanitar reinteqrasiya mexanizmlərinin koordinasiyası üçün katalizator rolunu oynaya bilər. Beləliklə, Sülh Şurası klassik institutların qərarvermədə yaşadığı səmərəsizlik və siyasi bloklanma boşluğunu qismən kompensasiya edə bilər.

Azərbaycanın Sülh Şurasına təsisçi üzv qismində dəvət olunması ölkənin son illərdə formalaşdırdığı aktiv sülhyaratma diplomatiyasının beynəlxalq səviyyədə normativ və institusional legitimlik qazanmasının konkret təzahürüdür. Müasir beynəlxalq münasibətlərdə aktorların statusu yalnız hərbi və iqtisadi potensialla deyil, eyni zamanda, konfliktlərin idarə olunmasında real töhfə vermək qabiliyyəti ilə ölçülür. Azərbaycan post-münaqişə reabilitasiyası, reinteqrasiya siyasəti, humanitar bərpa, regional nəqliyyat-kommunikasiya xətlərinin açılması və enerji təhlükəsizliyinin təmin edilməsi sahələrində praktik nəticələr ortaya qoymuş nadir regional aktorlardan biridir. Belə bir təcrübə onu klassik "istehlakçı təhlükəsizlik" mövqeyindən çıxararaq "təhlükəsizlik ixrac edən" aktor statusuna yaxınlaşdırır.

Cənubi Qafqazda münaqişədən sonrakı mərhələdə irəli sürülən normallaşma təşəbbüsləri və kommunikasiya xətlərinin açılması siyasəti Azərbaycanın konflikt sonrası idarəetmə modelinin formalaşmasına imkan yaradıb. Politoloji baxımdan bu yanaşma "liberal sülh quruculuğu" ilə "realist təhlükəsizlik təminatı" arasında hibrid model kimi qiymətləndirilə bilər. Bir tərəfdən sərt təhlükəsizlik elementləri qorunur, digər tərəfdən iqtisadi qarşılıqlı asılılıq vasitəsilə uzunmüddətli sabitlik stimullaşdırılır. Məhz bu balanslı yanaşma modelin digər münaqişə regionlarına transfer edilə bilmə potensialını artırır.

Sülh Şurası çərçivəsində Azərbaycanın təcrübəsi normativ bilik və praktiki mexanizm kimi institusionallaşdırıla bilər. Normativ müstəvidə Azərbaycan özünü yalnız milli maraqlarını maksimalizə edən rasional aktor kimi deyil, eyni zamanda, beynəlxalq sabitliyin təmin olunmasına töhfə verən konstruktiv tərəfdaş kimi təqdim edir. Azərbaycanın diplomatik diskursunda sülh, əməkdaşlıq, nəqliyyat bağlantıları, enerji təhlükəsizliyi və regional inteqrasiya kimi anlayışların ön plana çəkilməsi ölkənin beynəlxalq normativ kapitalını artırır.

Azərbaycanın Sülh Şurasında təsisçi üzv kimi iştirakı "orta güc diplomatiyası" konsepsiyasının praktik təzahürü kimi qiymətləndirilə bilər. Orta güclər böyük güclərlə müqayisədə məhdud resurslara malik olsalar da, diplomatik çeviklik, vasitəçilik, normativ təşəbbüskarlıq və çoxtərəfli platformalarda fəallıq vasitəsilə təsir imkanlarını genişləndirirlər.

Azərbaycan balanslaşdırılmış xarici siyasət strategiyası çərçivəsində həm regional, həm də qlobal aktorlarla paralel əməkdaşlıq quraraq öz strateji muxtariyyətini qoruyur. Sülh Şurası kimi platformalarda iştirak Azərbaycanın diplomatik kapitalını artırmaqla yanaşı, ölkənin beynəlxalq gündəliyin formalaşmasında dolayı iştirak imkanlarını da genişləndirir.

Davosda baş tutmuş İlham Əliyev–Donald Tramp görüşü və Sülh Şurası ətrafında aparılan müzakirələr yeni qlobal təhlükəsizlik arxitekturasının formalaşmaqda olduğunu göstərir. Azərbaycanın bu platformada təsisçi üzv kimi iştirakı ölkənin beynəlxalq sistemdə rolunun transformasiyasını – regional aktordan normativ və strateji təşəbbüskar aktora çevrilməsini – aydın şəkildə ortaya qoyur.

Son olaraq qeyd edək ki, Sülh Şurası, eyni zamanda, beynəlxalq münasibətlərdə adaptiv idarəetmənin institusional modeli kimi çıxış edir. Azərbaycanın bu prosesdə fəal iştirakı isə ölkənin sülh gündəliyində qlobal səviyyədə söz sahibi olmaq ambisiyasının real siyasi konturlara çevrildiyini təsdiqləyir.

*Şəbnəm ZEYNALOVA,*
*XQ-nin siyasi analitiki,*
*siyasi elmlər üzrə fəlsəfə doktoru*

# Enerji əməkdaşlığının sülh və sabitlik təminatı



(əvvəli 1-ci səhifədə)



N.Paşinyanın bu bəyanatı Ermənistanda ciddi rezonans doğurub. Radikal revanşist düşüncədə olan siyasətçilər hökumətin digər addımları kimi bunu da kəskin tənqid atəşinə tutublar. Məsələn, Milli Assambleyadakı “Şərəfim var” fraksiyasının rəhbəri Ayk Mamicanyan özünün “Facebook” hesabında “bir gün məsələ orduların birləşdirilməsinə qədər gedib çıxa bilərmi” sualını qoyub: “Baş nazir Paşinyan bir gün əvvəl Ermənistan və Azərbaycanın enerji sistemlərinin birləşdiriləcəyini bəyan edib. Bəlkə bir gün də deyəcək: gəlin, xərclərin optimallaşdırılması üçün Ermənistan və Azərbaycanın Silahlı Qüvvələrini birləşdirək? Axı, məntiq təxminən eynidir. Hörmətli vətəndaşlar, siz bizim enerji təchizatımızın açarını – “rubilnik”i Azərbaycana verməyə razısınızmı? Mən razı deyiləm”.

*

Ancaq müsbət haldır ki, Ermənistanda heç də hamı Mamicanyan kimi düşünmür. Məsələn, “ArmenianReport” saytında yerləşdirilmiş “Yeni dövrün reallıqları barədə açıq söhbət” sərlövhəli analitik yazıda bildirilir ki, N.Paşinyanın Ermənistan və Azərbaycanın enerji sistemlərinin mümkün birləşdirilməsi ilə bağlı bəyanatı son ayların ən göstərici siqnallarından birinə çevrilib. Qeyd edilir ki, söhbət sadəcə texniki və ya iqtisadi qərardan getmir – bu, Cənubi Qafqazın tədricən sülh mərhələsinə daxil olduğu, ağrılı, lakin qaçılmaz yenidən dərk prosesinin başlanmasını göstərən tamamilə yeni bir reallığın göstəricisidir: “Paşinyanın sözlərinə görə, İrəvan və Bakı elektrik enerjisinin idxalı və ixracı imkanlarından qarşılıqlı şəkildə istifadə edə biləcəklər. Bu açıqlama müxalifətdə olan “Hayastan” fraksiyasının deputatı Artur Xaçatryanın TRIPP layihəsinin işə salınması ilə bağlı sualına cavab olaraq səsləndirilib və erməni KİV-lərində geniş yayılıb. Paralel olaraq baş nazir Ermənistanda dizel yanacağının qiymətinin təxminən 20 faiz aşağı düşdüyünü də qeyd edib. İlk baxışda bunlar bir-biri ilə əlaqəsiz hadisələr təsiri bağışlayır. Əslində isə bunlar eyni prosesin tərkib hissələridir – sülh dövrünün praqmatik iqtisadiyyatının formalaşdırılması. Bəli, Ermənistan və Azərbaycan sülhün institusionallaşdırılması istiqamətində diplomatik işi davam etdirirlər. Bu, elə bir formuldur ki, bir neçə il əvvəl səslənsəydi, kəskin etiraz və kapitulyasiya ittihamları ilə qarşılanardı. Amma bu, məcburi, eyni zamanda, rasional zərurətdir. Bəli, nə qədər narahat və psixoloji baxımdan ağır olsa da qarşımızda sülh dövrünün real üstünlükləri var. Başqa istənilən vəziyyətdə bunu regional əməkdaşlığın uğuru adlandırardılar. Burada bir həqiqəti etiraf etmək vacibdir: bu yolun alternativi yoxdur”.

Müəllif Qalust Qriqoryan yazır ki, möcüzə gözləntisi üzərində qurulan siyasət strategiya deyil, yeni fəlakətə aparan yoldur: “Bu kontekstdə iki ölkə rəhbərliyi arasında ünsiyyətin tonu da xüsusi diqqətə layiqdir. Ermənistan Prezidenti Vaaqn Xaçaturyanın Davosda Azərbaycan Prezidenti İlham Əliyevin ünvanına səsləndirdiyi kompliment xarakterli, xüsusi vurğulanmış hörmət dolu fikirlər bir müddət əvvəl təsəvvürə belə gətirilə bilməzdi. Bu gün isə onlar yeni diplomatik normanın bir hissəsinə çevrilir. Bu, zəiflik jesti və ya milli ləyaqətdən imtina deyil. Bu, emosiyaların hesablamaya tabe olduğu real siyasətin dilidir. Müasir dünyada məhz bu cür üslub energetikadan tutmuş logistika və ticarətə qədər konkret razılaşmaların qapısını açır. Və burada ABŞ-ın rolu da ayrıca müzakirə mövzusudur. Şərti olaraq “Tramp yolu” adlandırılan layihə artıq mücərrəd ideya deyil. Bu, İrəvanla Bakının bütün mümkün sahələrdə – infrastrukturdan energetikaya qədər – mövqelərinin yaxınlaşdırılmasını nəzərdə tutan daha geniş planın tərkib hissəsi olan real konsepsiyadır. ABŞ dondurulmuş münaqişələrdə maraqlı deyil. Ona idarəolunan, proqnozlaşdırılan, qlobal logistika və enerji zəncirlərinə inteqrasiya olunmuş region lazımdır. Ermənistan isə bu prosesdə ya iştirakçı ola bilərdi, ya da kənarda qalmalı idi”.

O da bildirilir ki, hazırkı kursun əleyhdarları “kapitulyasiya” və “xəyanət”dən danışmağı sevirlər: “Amma onlar çox nadir hallarda alternativi dürüst şəkildə səsləndirirlər. Alternativ yeni müharibədir. Ermənistanın hazır olmadığı bir müharibə. Nəticələri daha dağıdıcı ola biləcək müharibə. Və ən əsası, obyektiv olaraq Rusiyanın maraqlı olduğu bir müharibə. Moskva Cənubi Qafqazda təsirinin tədricən azalmasını narahatlıq və qıcıqla izləyir. Eskalasiya Rusiyaya regionu yenidən xaos, asılılıq və hərbi nəzarət zonasına qaytarmaq imkanı verə bilər. Baş verənləri reallıq kimi qəbul etmək hər şeyi təsdiqləmək və ya keçmişi unutmaq demək deyil. Bu, sağ qalmaq, inkişaf və gələcək naminə seçim etməkdir. Sülh dövrü nə hədiyyədir, nə də mükafat. Bu, alətdir. Və bu alətin üstünlüklərindən istifadə edib-etməməyimizdən asılıdır ki, Ermənistan 10-20 ildən sonra necə ölkə olacaq: əbədi inciklikla yaşayan ölkə, yoxsa ən ağır tarixi məğlubiyyətlərdən belə fayda çıxarmağı bacaran dövlət. Azərbaycanla enerji dialoqu bu yolun yalnız ilk addımlarından biridir. Amma faciədən rasional, yetkin siyasətə aparan yol məhz belə addımlarla başlayır. Tarix “ləğv et” düyməsi basmaq imkanı tanımır. O, yalnız ən pis ssenarini təkrar etməmək şansını tanıyır”.

Politoloq Ramiyə Məmmədova XQ-yə açıqlamasında bildirdi ki, N.Paşinyanın məlum açıqlaması ilk növbədə texniki deyil, siyasi-təhlükəsizlik xarakterli mesajdır. Onun sözlərinə görə, bu bəyanat regionda uzun illər davam etmiş qarşıdurma məntiqindən tədricən uzaqlaşma cəhdinin göstəricisi kimi qiymətləndirilməlidir: “Burada əsas məsələ enerji deyil, qarşılıqlı asılılıq üzərində qurulan yeni münasibətlər modelidir. Enerji sistemlərinin birləşdirilməsi tərəflər arasında birbaşa kommunikasiya kanallarının formalaşmasını tələb edir. Bu isə avtomatik olaraq risklərin idarə olunması, qarşılıqlı etimadın mövcudluğu və təhlükəsizlik sahəsində koordinasiyanın vacibliyi deməkdir. Başqa sözlə, belə addımlar hərbi eskalasiya məntiqi ilə uyğun gəlmir və sülh gündəliyini möhkəmləndirən mexanizm rolunu oynayır”.

Ekspert qeyd etdi ki, Cənubi Qafqaz üçün bu yanaşma yeni deyil, lakin ilk dəfədir ki, nəzəri çərçivəni aşaraq praktik müstəvidə reallaşa bilər: “Ermənistan–Azərbaycan münasibətlərində enerji infrastrukturu üzərindən qurulan əməkdaşlıq eskalasiya ehtimalını azaldan çəkindirici faktora çevrilir. Çünki birgə işləyən sistemlər fonunda silahlı toqquşma hər iki tərəf üçün strateji baxımdan məntiqsiz olur. Bu kontekstdə TRIPP layihəsi regional təhlükəsizlik arxitekturasının tərkib hissəsi kimi çıxış edir. Layihə yalnız İrəvanla Bakı arasında deyil, bütövlükdə regionda yeni davranış modelini təşviq edir”.

R.Məmmədova onu da bildirdi ki, Paşinyanın “birmənalı və qeyd-şərtsiz” ifadəsi isə daxili auditoriya üçün nə qədər mübahisəli səslənsə də, xarici aktorlar üçün aydın siqnaldır: “Ermənistan sülh prosesində geri dönüşü olmayan mərhələyə qədəm qoyub. Bu yolun alternativi yenidən təhlükəsizlik boşluğu və regional qeyri-sabitlikdir. Mövcud reallıqlarda isə bu, nə Ermənistanın, nə də regionun maraqlarına cavab verir.

***Səxavət HƏMİD***
***XQ***

*Replika*

# Avropa ideyası, havaya atəş və çöl quşları...

**Avropa İttifaqının Ermənistandakı mülki missiyasının indiki durumunun ən düzgün xarakteristikasını bu zərbi-məsəlimiz verir: “köpək əl çəkdi, motal əl çəkmədi”. Hətta rəsmi İrəvanın şərti sərhəddə şübhəli patrul xidməti göstərən bu missiyanın gərəksizliyini diplomatik təbirlə bir neçə dəfə bəyan etməsinə baxmayaraq, sayları 200-də çox olan “binokllu diplomatlar” üzlü qonaq kimi bölgəni tərk etməyə tələsmirlər. Fəaliyyəti təkcə Azərbaycanda deyil, qonşu İran və Rusiyada da qıcıq yaradan mülki “kəşfiyyatçılar alayı”nın komandiri, alman hərbçisi Markus Ritterin missiyanın mövcudluğunu əsaslandırmaq üçün heç bir bəhanə tapa bilməməsi göz qabağındadır.**



“Ermənistanla Azərbaycan arasında sülh sazişi imzalandıqdan və ratifikasiya edildikdən sonra sərhəddə mülki missiyamızı yerinə yetirməyə ehtiyac qalmayacaq”. Bunu Avropa İttifaqının Ermənistandakı monitorinq missiyasının rəhbəri Markus Ritter hayların İctimai Televiziyasına müsahibəsində bildirib. Teleaparıcının Vaşinqtonda paraflanmış sülh sazişində üçüncü ölkələrin qüvvələrinin sərhəddə yerləşdirilməsini qadağan edən bəndin olması barədə sualını isə “baş kəşfiyyatçı” belə cavablandırıb: “Biz sərhədyanı yaşayış məntəqələrinə ziyarətlərimizi davam etdirəcəyik. Fəaliyyətimizin davam etdirilməsi, sərhədyanı yaşayış məntəqələrinə səfərlərimiz barədə qarşılıqlı razılaşma var”.

Yadımızdadır ki, cənab Ritter təxminən bir il bundan əvvəl jurnalistlərə açıqlamasında sərhədyanı kəndlərə səfərləri zamanı uşaqlarla, şagirdlərlə söhbət etdiklərini, özlərinin kim, Avropa İttifaqının nə olduğunu, nəyi təmsil etdiyini başa saldıqlarını demişdi. O, hətta gələcəkdə gənc nəslə Avropa ideyalarını təbliğ edəcəklərini bildirmişdi.

Aİ emissarı bu dəfə də eyni notlara köklənmiş mahnını “oxuyub”. O qeyd edib ki, missiya 2023-cü ildən bəri həyata keçirdiyi fəaliyyətini gələcəkdə də müəyyən formada davam etdirə bilər. “Sərhəddə patrul xidməti və hesabatların təqdim olunması ilə paralel olaraq, sərhədyanı icmaların, o cümlədən münaqişədən zərər çəkmiş yaşayış məntəqələrinin ziyarəti də həyata keçiriləcək” - deyən Ritterin sərhədyanı kəndlərin sakinlərini ziyarətlərinin məqsəd və xarakteri barədə açıqlaması maraq doğurub: “Ötən ilin may ayından insidentlərin sayı kəskin şəkildə azalıb və Vaşinqton görüşündən sonra heç bir insident qeydə alınmayıb. Nerkin Anda hadisəsi bizim hesabat təqdim etdiyimiz sonuncu insident olub. Yəni 2024-cü ilin fevralından bu günədək oxşar insident yaşanmayıb. 2024-cü ilin yazında bizdən xahiş olundu ki, kənd təsərrüfatı işləri aparılması üçün Xaçık kəndinə nəzarət edək. Təxminən 4 həftə hər gün orada olduq. Amma 2025-ci ildə bizə heç bir müraciət olunmadı. Bu da sakinlərin rahat və təhlükəsiz yaşadığını göstərir”.

Aİ-nin Ermənistandakı monitorinq missiyasının rəhbərinin müsahibəsində diqqətçəkən ən maraqlı məqam isə onun xidməti fəaliyyətləri barədə verdiyi hesabat idi. Markus Ritter avqustun 8-dən (Vaşinqtonda Ermənistan–Azərbaycan ikitərəfli manasibətlərin normallaşmasına dair Birgə Bəyannamənin imzalandığı tarix nəzərdə tutulur – red.) sonra sərhəd zolağındakı postlar arasında heç bir məqsədyönlü atışmanın olmadığını, amma bir neçə dəfə gecələr hər iki tərəfdən havaya atəş açıldığını deyib. Amma missiya rəhbəri göyə yaylım atəşin nə zaman və hansı səbəbdən açıldığına aydınlıq gətirməyib.

Qəribə və gülməli vəziyyət yaranır. Deməli, Ermənistanın Azərbaycanla sərhəddə yerləşən, ayrıca götürülmüş bir kəndində mövsümi təsərrüfat işləri aparılan zaman sakinlərin təhlükəsizliyinə nəzarəti yerli polis deyil, avropalı mülki müşahidəçilər həyata keçirir. Bu faktın özü onu təsdiqləyir ki, aqibəti göydən asılı vəziyyətdə qalmış monitorinq missiyasının işi havaya açılan atəşləri saymaqdan ibarət imiş. Amma onlar həmin atəşin haradan və nə üçün açıldığından isə bixəbərdirlər. Bəlkə imkansızlıqdan əziyyət çəkən haylar çöl quşlarını ovlayırlar..?

**P.S.** *Oxuculara xatırladaq ki, Aİ-nin Ermənistandakı mülki monitorinq missiyasının tərkibində quruma üzv 25 ölkənin və Kanadanın təmsilçiləri yer alır.*

***İ.HƏSƏNQALA***
***XQ***

# NATO Cənubi Qafqaza Bakıdan baxır

(əvvəli 1-ci səhifədə)

Enerji təhlükəsizliyi faktoru NATO-Azərbaycan münasibətlərinin əsas sütununu təşkil edən həlledici məsələlərdən sayılır. Rusiya-Ukrayna müharibəsindən sonra Avropanın enerji xəritəsinin yenidən cızılması prosesində rəsmi Bakı lider rolunu oynayır. Avropa İttifaqı və NATO üzvü olan dövlətlərin enerji təchizatında yaranan boşluqların doldurulmasında Azərbaycan qazının və gələcəkdə "Yaşıl Enerji" dəhlizi vasitəsilə ixrac ediləcək elektrik enerjisinin rolu danılmazdır. Xəzər dənizinin dibi ilə Qara dənizə, oradan isə Avropaya uzanacaq elektrik kabeli layihəsi Alyansın enerji təhlükəsizliyi doktrinası ilə tam uzlaşır. Bu layihə strateji bağlılıq yaradır. Kritik enerji infrastrukturunun qorunması məsələsi hər iki tərəf üçün prioritet təşkil edir. NATO rəsmiləri Azərbaycanın enerji resurslarının ixrac coğrafiyasını genişləndirmək istiqamətindəki səylərini və infrastrukturun fiziki mühafizəsi sahəsində nümayiş etdirdiyi peşəkarlığı yüksək dəyərləndirir.

Hərbi sahədəki əməkdaşlıq və Azərbaycan Ordusunun modernləşdirilməsi prosesi tərəfdaşlığın digər mühüm istiqamətidir. İkinci Qarabağ müharibəsindən və antiterror tədbirlərindən sonra Azərbaycan Silahlı Qüvvələrinin Türkiyə ordu modelinə keçid prosesi sürətlənib. Türkiyə ordusunun NATO-nun ən güclü ordularından olduğu nəzərə alınarsa, Azərbaycan ordusunun da standartlarının alyans normalarına uyğunlaşdığı aydın görünür. Əməliyyat İmkanları Konsepsiyası (OCC) çərçivəsində Azərbaycan hərbçiləri NATO qüvvələri ilə uzlaşma qabiliyyətini artırır, birgə təlimlərdə iştirak edir və beynəlxalq sülhməramlı missiyalara töhfə verirlər. Azərbaycan sülhməramlılarının keçmişdə Əfqanıstanda, xüsusilə Kabil hava limanının təxliyəsi zamanı göstərdiyi şücaət alyansın yaddaşında dərin iz buraxıb. NATO rəhbərliyi Azərbaycanı beynəlxalq sülh və təhlükəsizliyə töhfə verən təhlükəsizlik təminatçısı kimi qəbul edir. NATO Azərbaycanın hərbi islahatlarını dəstəkləyir və Silahlı Qüvvələrin peşəkarlığının artırılması istiqamətindəki səyləri alqışlayır.

Regionda sülh və sabitlik məsələsinə gəldikdə NATO-nun mövqeyi birmənalıdır. Alyans Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşmasını və sülh müqaviləsinin imzalanmasını qətiyyətlə dəstəkləyir. Şekerinskanın səfəri zamanı normallaşma prosesinin xüsusi müzakirə mövzusu olması təsadüfi deyildir. Qərb dairələri yaxşı anlayır ki, dayanıqlı sülh olmadan nəqliyyat və enerji layihələrinin tam potensialını reallaşdırmaq mümkün olmayacaq. Rəsmi Bakı tərəfindən irəli sürülən sülh gündəliyi beynəlxalq hüququn norma və prinsiplərinə tam uyğundur. Bu, NATO tərəfindən də təqdir olunur. Zəngəzur dəhlizinin açılması, kommunikasiyaların bərpası və regionun vahid iqtisadi məkana çevrilməsi Avro-Atlantik məkanın maraqlarına cavab verir. Çünki Orta Dəhlizin funksionallığının artması Şərq-Qərb ticarət yolunun təhlükəsizliyini təmin edəcək və Çin-Avropa ticarətində Rusiyadan yan keçən alternativ marşrutun dayanıqlığını artıracaqdır.

Proseslərin gələcək inkişaf ssenarilərinə nəzər saldıqda Cənubi Qafqazın təhlükəsizlik arxitekturasının yaxın gələcəkdə tamamilə yenidən formalaşacağı aydındır. Baş verə biləcək hadisələrin konsepti Azərbaycanın regiondakı dominant mövqeyinin daha da möhkəmlənməsi üzərində qurulacaq. Sülh müqaviləsinin imzalanması və ya münasibətlərin tam normallaşması prosesindən sonra NATO ilə Azərbaycan arasındakı əməkdaşlığın "Fərdi Uyğunlaşdırılmış Tərəfdaşlıq Proqramı" (ITPP) çərçivəsində daha yüksək səviyyəyə qalxacağı gözlənilir. Ehtimal etmək olar ki, regionda logistik haba çevrilən Azərbaycan NATO yüklərinin Mərkəzi Asiyaya və Əfqanıstana tranziti üçün əsas qovşaq rolunu oynamağa davam edəcək. Həmçinin, Xəzər dənizinin təhlükəsizliyi məsələsi Qərbin gündəliyinə daha ciddi şəkildə daxil olacaq.

Gələcək perspektivdə Bakı ilə Brüssel arasında kiber müdafiə, hibrid təhdidlərə qarşı mübarizə və kəşfiyyat məlumatlarının mübadiləsi sahəsində ixtisaslaşmış mərkəzlərin yaradılması istisna edilmir. İqlim dəyişmələrinin təhlükəsizlik aspektləri də əməkdaşlığın yeni trendinə çevriləcək. Azərbaycanın COP29-a uğurlu ev sahibliyi etməsi və yaşıl enerji keçidi istiqamətində atdığı addımlar NATO-nun "İqlim Dəyişmələri və Təhlükəsizlik" gündəliyi ilə üst-üstə düşür. Bu sahədə texnoloji mübadilə və infrastrukturun iqlim risklərindən qorunması üzrə birgə təlimlərin sayı arta bilər.

NATO-nun Azərbaycanla əməkdaşlığı yüksək qiymətləndirməsi təsadüfi xarakter daşımır və müvəqqəti maraqlara əsaslanmır. Bu münasibətlər otuz ildən artıq davam edən ardıcıl dövlət siyasətinin, strateji səbrin və praqmatik diplomatiyanın məntiqi nəticəsidir. Bu prosesdən sonra regionda yaranacaq yeni nizam, şübhəsiz ki, Azərbaycanın milli maraqlarına xidmət edəcək və ölkəmizin beynəlxalq nüfuzunu daha da artıracaq. Avro-Atlantik məkanla inteqrasiya yolunda ölkəmiz müstəqil siyasətini qoruyaraq suveren hüquqlarından güzəştə getmədən, bərabərhüquqlu tərəfdaş kimi qlobal təhlükəsizlik sistemində layiqli yerini tutub. Qarşıdan gələn illər ərzində bu strateji bağların daha da möhkəmlənəcəyi, Azərbaycanın Şərq ilə Qərb arasında siyasi və təhlükəsizlik körpüsü rolunu daha effektiv icra edəcəyi şübhəsizdir.

***Yusif ŞƏRİFZADƏ***
***XQ***

# Yeni tranzit marşrutları Gürcüstan üçün də önəmlidir



**Regionda yeni nəqliyyat və tranzit marşrutları yaradılır. Bu proses Gürcüstanın regional rolu və gələcək strategiyası barədə fərqli yanaşmaları üzə çıxarıb. “Vahid Neytral Gürcüstan” partiyasının icraçı katibi Vato Şakarişvili bu məsələyə toxunub: “Regionda mümkün yeni tranzit marşrutlarının meydana çıxması Gürcüstan üçün təhlükə deyil, əksinə, əlavə imkan yaradır. Bunun üçün ölkə yeni reallığı düzgün qiymətləndirməli və zorla “NATO və Avropa İttifaqının xarabalığına” sürüklənməməlidir”.**

Onun fikrincə, Gürcüstanın regional əhəmiyyətini qoruyub gücləndirməsi üçün əsas şərtlər daxili siyasi sabitliyin təmin edilməsi, destabilizasiya risklərinin minimuma endirilməsi və neytral xarici siyasət kursunun seçilməsidir.



Sonra bildirib ki, regionda yeni tranzit marşrutlarının yaranmasının Gürcüstan üçün təhlükə kimi təqdim edilməsi reallıqdan uzaqdır: “Bu cür yanaşmalar reallığı təhrif edir və cəmiyyətdə əsassız qorxu formalaşdırır. Əslində, yeni marşrutlar mövcud nəqliyyat dəhlizlərini zəiflədən yox, onları gücləndirən mexanizmdir. Burada əsas məsələ Gürcüstanın dəyişən geosiyasi və iqtisadi şərtlərə necə uyğunlaşmasıdır”.

Bu baxımdan Şakarişvili Azərbaycan Prezidenti İlham Əliyevin Asiya–Avropa yeni nəqliyyat dəhlizi ilə bağlı fikirlərini də xatırladıb. Yada salaq ki, dövlətimizin başçısı Davos Ümumdünya İqtisadi Forumunda bildirib ki, Azərbaycan Qazaxıstan və Rusiyadan Ermənistana yüklərin tranziti ilə bağlı bütün məhdudiyyətləri aradan qaldırıb. Hazırda daşımalar Gürcüstan üzərindən həyata keçirilir, lakin gələcəkdə Ermənistandan birbaşa Azərbaycan vasitəsilə tranzit təmin ediləcək. Prezidentin sözlərinə görə, bu addımlar mövcud marşrutlara alternativ deyil, əlavə və paralel imkanlardır.

Marşrutların çoxalması həm tədarükçülər, həm istehlakçılar, həm də tranzit ölkələr üçün faydalıdır. Bu yanaşma qlobal logistika sistemində artıq qəbul olunmuş reallıqdır və Gürcüstan üçün də yeni iqtisadi imkanlar yaradır.

Şakarişvilinin mövqeyində diqqətçəkən əsas məqamlardan biri də regionda əməkdaşlığın və iqtisadi inteqrasiyanın sülh üçün həlledici rol oynamasıdır: “Birgə layihələr, əlaqəliliyin gücləndirilməsi və qarşılıqlı iqtisadi maraqlar uzunmüddətli sabitliyin əsas təminatıdır. Bu proseslərin uğurla həyata keçirilməsi isə yalnız sülh və siyasi sabitlik şəraitində mümkündür”.

Eyni zamanda, Şakarişvili Gürcüstanın NATO və Avropa İttifaqına üzvlüyünü nəzərdə tutan konstitusion normanı risk faktoru kimi dəyərləndirib. Onun qənaətincə, bu istiqamətdə tələsik və ideoloji motivli addımlar Gürcüstanı böyük güclər arasında geosiyasi qarşıdurmaya sürükləyə, ölkənin tranzit və vasitəçi potensialını zəiflədər.

Ümumiyyətlə, bu yanaşma iqtidarın mövqeyinə uyğundur. Gürcüstan üçün praqmatik və riskləri azaldan strategiyadır. Çünki yeni tranzit marşrutlarını təhlükə yox, əlavə imkan kimi qəbul etmək, daxili siyasi sabitliyi qorumaq və neytral mövqe tutmaq Gürcüstanın regionda rolunu zəiflətmir, əksinə, onu Asiya–Avropa bağlantısında vacib və etibarlı halqa kimi möhkəmləndirir. Bu yanaşma ölkənin həm iqtisadi, həm də siyasi baxımdan uzunmüddətli maraqlarına xidmət edir.

Mövzi ilə bağlı **Gürcüstan parlamentinin sabiq deputatı İsak Novruzov** XQ-yə bildirdi ki, müxalif “Lelo-Güclü Gürcüstan”



koalisiyasının bəyanatı ölkənin mövcud siyasi və iqtisadi vəziyyətini əks etdirmir: “Bu bəyanatda bildirilib ki, Gürcüstan sürətlə dəyişən beynəlxalq mühitdə strateji funksiyalarını itirir. Avropa İttifaqına üzvlüyün dayandırılması, ABŞ ilə strateji əməkdaşlığın zəifləməsi və Anakliya limanı layihəsinin dondurulması fonunda Gürcüstan həm iqtisadi, həm də təhlükəsizlik baxımından risklə üzləşir. Gürcüstanın qonşuları olan Azərbaycan və Ermənistanın ABŞ və Aİ-nin dəstəyi ilə yeni tranzit imkanları yaratdığı bir fonda, Gürcüstan, guya, nəinki yeni funksiyalar qazanmır, əksinə, mövcud potensialını da itirir”.

İ.Novruzov vurğuladı ki, əslində, bu açıqlama qarayaxmadan başqa bir şey deyil. TRIPP (Zəngəzur dəhlizi) marşrutu ölkənin tranzit rolunu zəiflətmir, əksinə, çoxvektorlu və çevik logistika sistemi yaradır: “Bu marşrut Gürcüstanı tranzit mərkəzi kimi saxlayır, limanlarda əlavə tranzit potensialı açır və yeni investisiya imkanları təqdim edir.

Ölkənin dənizə çıxışı və müasir limanları ilə həm öz yük axınlarını, həm də Ermənistana yönələn daşımaları idarə edə bilər ki, bu da onun strateji əhəmiyyətini qoruyur. Naxçıvan–Təbriz–Tehran dəmir yolunun TRIPP-ə qoşulması isə Gürcüstan üçün strateji əhəmiyyət daşıyır. Bu yol Orta Dəhlizə əlavə cənub qol yaradır, Gürcüstanın tranzit rolunu artırır. Yeni marşrut ölkəni şəbəkənin aktiv halqasına çevirir, yük axınlarını şaxələndirir və regionun çoxvektorlu logistika sisteminə inteqrasiya etməsinə imkan verir.

*(ardı 5-ci səhifədə)*

# ABŞ–Aİ münasibətlərində yeni davranış modeli

## *Gərgin və davamlı dialoq Qrenlandiya böhranını səngidəcəkmi?*

**ABŞ-ın bir neçə gün əvvələ qədər davam edən və transatlantik münasibətlərdə ciddi narahatlıq doğuran bəyanatları Avropa paytaxtlarında narazılığı artırmışdı. Amma son anda Vaşinqtonun ritorikasında yumşalma müşahidə olundu. Tramp Davosda keçirilən Dünya İqtisadi Forumunda (WEF) Qrenlandiya məsələsində təzyiq ehtimallarını açıq gündəmdən çıxardığını, NATO çərçivəsində “Arktika təhlükəsizliyi” üzrə ortaq yanaşmanın formalaşdırıldığını bəyan etdi. Bu baxımdan, ABŞ liderinin bəyanatı prosesin daha konstruktiv məcraya keçə biləcəyinə dair siqnal kimi dəyərləndirilə bilər.**




***Ekspert rəyi***



**Hüseyn SULTANLI,
Beynəlxalq Münasibətlərin
Təhlili Mərkəzinin məsləhətçisi**

Son həftələrdə transatlantik münasibətlər alyansın mahiyyətini köklü şəkildə dəyişə biləcək ciddi sınaqlarla üz-üzə qalıb. Qrenlandiya ətrafında gedən mübahisə bu münasibətlərin tarixində bəlkə də ən qarşıdurmalı mərhələdir. Hazırda Donald Trampın Qrenlandiyanın ABŞ tərəfindən ələ keçirilməsinə qarşı çıxan Avropa ölkələrinə qarşı tariflər tətbiq etmək planlarını dayandırdığı görünür. Prezident məsələnin həlli ilə bağlı “çərçivə razılaşmasının” əldə olunduğunu bildirib. Problemin konkret olaraq necə həll ediləcəyi hələlik aydın olmasa da, hadisə Brüsseldə ciddi narahatlıq doğurub və artıq real siyasi nəticələrə yol açıb. Avropa İttifaqının atdığı addımlara nəzər salmaq kifayətdir ki, ritorikada misli görünməmiş sərtləşməni görmək mümkün olsun. Böyük Avropa liderləri ilə müqayisədə Donald Trampla münasibətləri daha isti olan Böyük Britaniyanın Baş naziri Kir Starmerin sərt bəyanatları ilə yanaşı, Avropa Parlamenti iyul ayında razılaşdırılmış ABŞ–Aİ ticarət sazişinin təsdiqini dayandırıb. Bundan əlavə, bir sıra aparıcı Aİ ölkələrinin müxtəlif səbəbləri əsas gətirərək “Sülh Şurası”na qoşulmaqdan imtina etməsi də simvolik baxımdan mühüm qərar kimi qiymətləndirilir.

Lakin ən həlledici məqam bu qarşıdurmanın transatlantik münasibətlərin gələcəyi üçün doğurduğu nəticələrdir. Tərəflər əvvəllər də, o cümlədən Ukrayna müharibəsinin idarə olunması məsələsində fikir ayrılıqları yaşamışdılar. Buna baxmayaraq, Brüsseldəki rəhbərlik ABŞ administrasiyası ilə münasibətlərdə adətən son dərəcə ehtiyatlı davranır, qarşıdurma və təhdidlər əvəzinə praqmatizmə, sakitliyə və dialoqa üstünlük verirdi.

Bu dəfə isə Aİ Amerika mövqeyindən açıq şəkildə uzaqlaşmaq və onu rədd etmək kimi cəsarətli addım atdı. Bu vəziyyət Aİ-nin strateji muxtariyyət axtarışları ilə bağlı müzakirələri yenidən gündəmə gətirdi. Halbuki strateji muxtariyyət ən yaxın və ən vacib müttəfiqlərdən belə asılı olmadan müstəqil hərəkət etmək qabiliyyəti olmadan mümkün deyil. Məhz bu səbəbdən sözügedən insidentə ayrı-ayrı hadisə kimi yanaşmaq olmaz. Proses transatlantik münasibətlərin gündəmini uzun müddət müəyyənləşdirəcək və gələcək illərdə tərəflərin bir-birini necə gördüyünü köklü şəkildə dəyişdirmək potensialına malikdir

Maraqlıdır, müşahidə olunan yumşalma nə dərəcədə davamlıdır və hansı səbəblərdən qaynaqlanır? Hadisələrin inkişafı göstərir ki, proses daha geniş siyasi və strateji maraqların nəticəsidir. ABŞ üçün Qrenlandiya mövzusu fərdi siyasi açıqlamaların fövqündə dayanır və Arktika regionunda sürətlə dəyişən geosiyasi reallıqların tərkib hissəsi kimi çıxış edir. Son onillikdə Arktika artıq qlobal güclər arasında rəqabətin yeni meydanına çevrilib. Qrenlandiya bu rəqabətin mərkəzində dayanır. İqlim dəyişiklikləri fonunda buzlaqların əriməsi regionda yeni dəniz marşrutlarının açılmasına şərait yaradıb.

Sözügedən marşrutlar həm də qlobal ticarətin gələcək trayektoriyası baxımından strateji əhəmiyyət daşıyır. Eyni zamanda, Qrenlandiyanın enerji ehtiyatları, xüsusilə nadir torpaq elementləri və digər xammallar baxımından potensialı onu ABŞ, Çin və Avropa İttifaqı kimi aktorların diqqət mərkəzinə gətirib. ABŞ-ın bu bölgəyə artan marağı məhz uzunmüddətli strateji planlaşdırmanın tərkib hissəsi kimi izah oluna bilər. Brüsseldə hiss edilən yumşalma isə onu göstərir ki, Vaşinqton maraqlarını müttəfiqlərlə açıq qarşıdurma yolu əvəzinə, koordinasiya və institusional mexanizmlər vasitəsilə irəli aparmağın daha effektiv olduğunu dərk etməyə başlayıb.

Trampın son açıqlamalarında bu yanaşmanın izləri açıq şəkildə sezilir. Əgər əvvəlki mərhələdə daha sərt, bəzən emosional çalarlar daşıyan bəyanatlarla siyasi mesaj vermək üstünlük təşkil edirdisə, hazırkı mərhələdə bu üslubun daha ölçülü, diplomatik və hesablanmış çərçivəyə salındığı müşahidə olunur. NATO-nun Arktika təhlükəsizliyi üzrə əsas platforma kimi təqdim edilməsi isə ABŞ-ın mövqeyini kollektiv qərar mexanizmləri daxilində ifadə niyyətindən irəli gəlir. Yanaşma həm Avropa paytaxtlarında yaranan narahatlıqları qismən yumşaldır, həm də Vaşinqtonun regional maraqlarını qorumağa imkan verir.

Proses, eyni zamanda Avropa, İttifaqı üçün də müəyyən nəticələr doğurur. Brüsseldəki zirvə görüşü göstərdi ki, Aİ artıq ABŞ-la münasibətlərdə reaktiv mövqe tutmaq niyyətində deyil. Qrenlandiya böhranı Avropaya bir daha xatırlatdı ki, transatlantik münasibətlər sabit qalmır, siyasi liderlikdən, qlobal proseslərdən və regional maraqlardan asılı olaraq daim transformasiya olunur. Bu baxımdan Aİ üçün əsas məsələ ABŞ-la əməkdaşlığı qorumaqla yanaşı, öz strateji maraqlarını daha aydın və müstəqil şəkildə formalaşdırmaqdır. Aİ Xarici Siyasət Xidmətinin rəhbəri Kaya Kallasın açıqlamalarında bu ehtiyatlı yanaşma öz əksini tapır. Kallasın transatlantik münasibətlərin “böyük zərbə” aldığını bildirməsi yaranmış vəziyyətin dərin etimad problemi kimi qəbul edildiyini göstərir. Onun səsləndirdiyi fikirlər Avropa tərəfinin ABŞ-la münasibətlərdə əvvəlki modelindən tədricən uzaqlaşdığını və daha diqqətli, hesablanmış yanaşmaya üstünlük vermək niyyətində olduğunu ortaya qoyur.

Yeri gəlmişkən, ehtiyatlı, lakin prinsipial xəttin praktik müstəvidə hansı alətlərlə müşayiət oluna biləcəyi Avropa siyasi dairələrində açıq müzakirə olunur. Məhz bu kontekstdə “Politico” nəşrinin gündəmə gətirdiyi ehtimal diqqət çəkir. Nəşr yazır ki, əgər ABŞ Prezidenti Donald Trampın Qrenlandiya ilə bağlı təhdid xarakterli ritorikası davam edərsə, Avropanın cavabı klassik diplomatik kanallarla məhdudlaşmaya bilər. Alternativ təsir mexanizmi kimi futbol üzrə Dünya çempionatının ABŞ-da keçiriləcək hissəsinin boykot edilməsi ideyası bu mənada strateji alət kimi dəyərləndirilir.

Söhbət 11 iyun–19 iyul tarixlərində ABŞ, Meksika və Kanadada keçiriləcək XIII Dünya Çempionatının Vaşinqton seqmentindən gedir. Nəşr vurğulayır ki, turnir Amerika üçün qlobal imic, nüfuz və siyasi legitimlik baxımından “yumşaq güc” platformasıdır. ABŞ-ın ev sahibliyi etdiyi dünya çempionatı həm də Tramp administrasiyası üçün beynəlxalq auditoriyaya ünvanlanan pozitiv mesajların ötürüldüyü nadir universal kanallardan biridir. Məhz buna görə mümkün boykot ideyası “ən həssas nöqtəyə zərbə” kimi xarakterizə olunur. Nəzərə alsaq ki, dünya çempionatının final mərhələsində 16 Avropa milli komandasının iştirakı planlaşdırılır, potensial boykot ideyası rəmzi olmaqdan çıxaraq real siyasi təsir mexanizmə çevrilə bilər.

Sonda qeyd edək ki, Qrenlandiya böhranı, bütövlükdə, beynəlxalq münasibətlər sistemində yeni davranış modelinin formalaşdığını göstərir. Bu məsələ tədricən Arktika təhlükəsizliyi ilə yanaşı, qlobal siyasi nüfuz mübarizəsinin də mərkəzi mövzularından birinə çevrilə bilər. Bu isə müasir beynəlxalq siyasətdə sərhədlərin stadionlar, tribunalar və qlobal tamaşaçı auditoriyaları üzərindən də cızıla biləcəyi ehtimalını artırır.

***Nəzrin ELDARQIZI***
***XQ***

# Qərbi Azərbaycana qayıdış Ermənistan üçün də faydalıdır

## *İrəvanın hakim dairələri və erməni cəmiyyəti bu gerçəyi anlamalıdır*

**Ermənistanın Baş naziri Nikol Paşinyan Davos Ümumdünya İqtisadi Forumuna yollanmazdan əvvəl ölkə parlamentində keçirilmiş hökumət saatında Azərbaycanla əldə edilmiş sülhdən danışıb və bir çox pozitiv məqamları dilə gətirib. Amma o, eyni zamanda, “Qərbi Azərbaycan” ifadəsi üzərinə gələrək, Xarici Kəşfiyyat Xidmətinin mövcud xüsusda Ermənistana qarşı ərazi iddiası faktını qeydə aldığını vurğulayıb. Doğrudur, Nikol məsələyə ötəri toxunub və mövzunu yenidən müsbət notlara kökləyərək, sərhəd xəttində heç bir insidentin qeydə alınmadığını, ümumən, belə bir ehtimalın çox az olduğunu dilə gətirib.**



Baş nazirin pozitiv düşüncələrindən daha çox, onun məhz Qərbi Azərbaycanla bağlı söylədiyi fikir erməni ictimai rəyində müzakirə predmetinə çevrilib. Əslində, bunda hansısa gözlənilməzlik yoxdur. Çünki hay müxalif kəsimi, bir qayda olaraq, mövzunu Azərbaycanın Ermənistana ərazi iddiası qismində qiymətləndirir və bu qiymətləndirmə isteriyaya çevrilir. Deməli, Paşinyan, ümumən erməni iqtidarı Qərbi Azərbaycan məsələsinə “ilişməkdən” uzaq dayanmalıdır. Ən azından ona görə ki, bu hal onun özünə qarşı antipatiya formalaşdırır. Bəs rəsmi İrəvanın təmsilçiləri, eləcə də onlara yaxın şəxslər nə etməlidirlər? Əlbəttə, başlıca vəzifə reallığın və həqiqətin üzünə dik baxmaqdır.

Reallıq isə ilk növbədə budur ki, Azərbaycan dövləti Ermənistana qarşı ərazi iddiası irəli sürmür. Diqqət yetirək, Prezident İlham Əliyev ölkəmizin müharibəni dayandıran tərəf olduğunu dəfələrlə vurğulayıb və onu da deyib ki, Azərbaycan müharibədə güclü idi, istəsəydi, Ermənistan ərazisi kimi adlandırılan bölgələrə asanlıqla daxil ola bilərdi.

Bəli, ermənilər əmin olmalıdırlar ki, Bakı belə bir qərar qəbul etsəydi, heç bir qüvvə onun qarşısına çıxa bilməyəcəkdi. Sadəcə, ölkəmiz buna getmədi. Prezident İlham Əliyev çıxış və müsahibələrində hadisələrin belə şəkil almasının ədalətsizlik olma ehtimalından söz açıb.

İkincisi, Azərbaycan Ermənistanla sülh müqaviləsini paraflayıb. Müqavilədə dövlətlərin bir-birilərinin ərazi bütövlüklərini və suverenliklərini tanıdıqlarına dair müddəa yer alıb. Bu müddəa ötən il avqustun 8-də Azərbaycan və Ermənistan liderlərinin ABŞ Prezidenti Donald Trampın rəsmi şahidliyi ilə Vaşinqtonda imzaladıqları Birgə Bəyannamədə də əksini tapıb. Bakının daha əvvəlki zaman kəsiyini əhatə edən siyasi ritorikası da Ermənistanın ərazi bütövlüyünə və suverenliyinə hörmət kazusunu özündə birləşdirib.

Üçüncüsü, yuxarıda Ermənistan hakimiyyətinin Qərbi Azərbaycan ritorikası ilə hərəkətinin ona problem doğura bilmə təhlükəsini qeyd etdik. Yəni, hay müxalif kəsiminin, bir növ, pusquda dayandığını nəzərə alaraq, rəsmi İrəvanın təmsilçilərinin sözügedən ritorika ilə “qarğa məndə qoz var” deyiminə uyğun davranmasının yolverilməzliyini vurğuladıq. Paşinyan administrasiyası ona görə Qərbi Azərbaycan deyiminə “ilişməkdən” uzaq durmalıdırlar ki, bu deyim diqqətləri avqustun 8-də imzalanmış Birgə Bəyannaməyə yönəldir. O Bəyannaməyə ki, orada Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz yoldan söz açılır. O yol sənəddə əksini tapmış sülh paradiqmasının, yəni “Tramp marşrutu”nun mühüm və ayrılmaz tərkib hissəsidir. “Qərbi Azərbaycan” ifadəsinin Ermənistan cəmiyyətində, xüsusən, sərsəm ictimai rəyindəki qavramı isə əsas mahiyyəti ikinci plana atır, diqqətləri təcavüzkarlıq motivinə yönəldir, bir növ, qorxu aşılayır. Təbii ki, qorxu müqavimət də doğrurur ki, indiki durumda bu müqavimət hissinin erməni iqtidarına qarşı, belə demək mümkünsə, demarş dividendi qazandırdığı birmənalıdır. Qorxunun şovinist və revanşist baxışları alovlandırmaq təmayülü də öz yerində.

Reallığın dördüncü tərəfi daha ciddidir. Məsələ ondadır ki, Azərbaycan dövlətinin, o cümlədən, cəmiyyətinin konsepsiyalaşmış Qərbi Azərbaycan düşüncəsi tarixi ədalət prinsipinə söykənir. Nəzərə alaq ki, Qərbi Azərbaycan dedikdə, bu gün Ermənistan Respublikası adlanan ərazilərdəki əsasən Zəngəzur, Göyçə, Dərələyəz, Vedibasar və digər bölgələr nəzərdə tutulur. Daha doğrusu, həmin bölgələrdə əsrlər boyu azərbaycanlıların yaşamaları. O azərbaycanlılar ki, onların nəsilləri sonradan Ermənistanı doğma vətən kimi də gördülər. Amma onlara öz vətənlərində yaşamaq haqqı tanınmadı.

Nəzərə alaq ki, adlarını çəkdiyimiz ərazilərdə azərbaycanlılar XX əsrin müxtəlif mərhələlərində – 1905–1906, 1918–1920, 1948–1953 və 1988–1991-ci illərdə sistemli şəkildə deportasiya və etnik təmizləməyə məruz qalıblar. Bütün bunlar bumeranq effekti yaratmalı idi. Axı Azərbaycanı da özlərinə vətən bilən ermənilər olub. Bu gün Bakı üçün burnunun ucu göynəyən ermənilər yoxdurmu? Var.

Deməli, Qərbi Azərbaycan ritorikası mənəvi anlam daşımaqla, təkcə azərbaycanlılara deyil, eyni zamanda, özündə tarixi ədalət yükünü daşıdığından, Ermənistan insanı üçün də vacib olmalıdır. Axı heç bir insan doğulub boya-başa çatdığı torpağı tərk edib getmək istəməz. Baxın, Qarabağda doğulub boya-başa çatmış bir şəxs öz evindən çıxmaq məcburiyyətində qalıb. Durumun belə şəkil almasının tək səbəbi Ermənistan dövlətinin apardığı işğalçılıq siyasəti olub. O siyasət ki, mənşəyini haqqında söz açdığımız deportasiyalardan, etnik təmizləmələrdən götürmüşdü. Bütün bunlar yaşanmaya bilərdi. Hər halda, baş verənlərə görə günahkar Azərbaycan və azərbaycanlılar olmayıb. Hər cür pisliyi edən erməni millətçiləri və onların fitnə-fəsadlarının məhsulu olan Ermənistandır.

Bəli, “Qərbi Azərbaycan” ifadəsinin mənəvi anlamı Ermənistan cəmiyyəti tərəfindən də dərk edilməlidir. Bu anlam dərk edilməyincə, ermənilər və azərbaycanlılar arasında tam səmimi münasibətlərin qurulmasından söhbət gedə bilməz. Axı Prezident İlham Əliyev azərbaycanlıların Qərbi Azərbaycana tanklarla yox, şəxsi avtomobillərlə qayıtmasından söz açıb, özü də dəfələrlə. Düşünürük ki, bunu anlamaq çətinlik törətməməlidir. O da çətinlik törətməməlidir ki, ərazi iddiasına köklənməyən Qərbi Azərbaycan konsepsiyası beynəlxalq hüquqa uyğun şəkildə adlarını qeyd etdiyimiz bölgələrdən zorla qovulmuş azərbaycanlıların hüquqlarının tanınmasına, onların təhlükəsiz, könüllü və ləyaqətli şəkildə geri qayıdışının təmin olunmasına hesablanıb. Bu yanaşma isə BMT-nin insan hüquqları sənədlərində, Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Avropa İnsan Hüquqları Konvensiyasında öz əksini tapıb.

Sonda ümumiləşdirmə apararaq deyək ki, Azərbaycan dövlətinin formalaşdırdığı Qərbi Azərbaycan konsepsiyası milli yaddaşa söykənən, beynəlxalq hüquq normalarına əsaslanan və regional sülh gündəliyinə xidmət edən mühüm siyasi-strateji xəttdir. Bu konsepsiya nə revanşizm, nə də ərazi iddiası mahiyyəti daşıyır. Onun əsas məqsədi XX əsr boyunca indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların fundamental hüquqlarının bərpası və tarixi ədalətin təmin edilməsidir. Sözümüz ondadır ki, nə Baş nazir Nikol Paşinyanın Ermənistanın Xarici Kəşfiyyat Xidmətinin xətti ilə nəyisə müəyyənləşdirməsinə, nə ölkənin müxalif kəsiminin isterik əndişəsinə, nə də hay cəmiyyətinin narahatlığına əsas var. Hazırda əhəmiyyət daşıyan məsələ rəsmi İrəvanın sülh gündəliyinə sadiqliyi və mövcud istiqamətdəki prosesləri qətiyyətli şəkildə sürətləndirməsidir. Sülh prosesi sürətlənməlidir ki, Ermənistan imperialist qüvvələrin haylara təlqin etdiyi xəstə ideologiyadan uzaqlaşsın, ölkə monoetnik statusdan çıxaraq sivil məmləkətə çevrilsin, özündə həm də Qərbi Azərbaycan məfkurəsinin daşıdığı sivil strukturu canlandırsın.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Yeni tranzit marşrutları Gürcüstan üçün də önəmlidir

*(əvvəli 4-cü səhifədə)*



Gələcəkdə İran istiqamətindən yüklərin Naxçıvandan keçməklə Gürcüstana daxil olması Orta Dəhlizi zəiflətmir, əksinə, tamamlayır. Çünki Avropaya çıxış üçün ən qısa və təhlükəsiz yol yenə də Qara Dəniz və Gürcüstan limanlarıdır. Bu baxımdan Gürcüstan Orta Dəhlizin Avropa qapısı funksiyasını qoruyur və tranzit mərkəz statusunu saxlayır”.

Sabiq deputat sonda onu da qeyd etdi ki, Orta Dəhlizə yeni cənub qolunun açılması ölkəyə strateji seçim zərurəti gətirir: “Bəli, bu gün region artıq tək xətli tranzit modelindən imtina edib. Gürcüstan daxili siyasi sabitliyi qoruyub neytral və praqmatik siyasət yürütməsə, alternativ marşrutlar onun logistik rolunu azalda bilər. Lakin düzgün siyasət aparılarsa, Gürcüstan bu yeni qolun inteqrasiyası ilə tranzit və logistika mərkəzinə çevriləcək. İqtisadi baxımdan, bu faktlar yük həcmlərini artıra, marşrutların elastikliyini yüksəldə və limanlarda əlavə tranzit potensialı yarada bilər. Bu isə Gürcüstanı yalnız tranzit ölkə kimi deyil, regional logistika mərkəzi kimi rolunu gücləndirir. Yeni marşrutlar həm iqtisadi, həm də siyasi baxımdan Gürcüstanın uzunmüddətli maraqlarına xidmət edir. O həm də Azərbaycanın region üçün mərkəzə çevrilmək niyyətinin reallaşdırılmasına kömək edəcək. Eyni zamanda, Mərkəzi Asiya ilə Qərbi Avropa ölkələri arasında tranzitin inkişafına təkan verəcək, tərəfdaş ölkələr arasında qarşılıqlı inamı gücləndirəcək, iqtisadi əməkdaşlığı genişləndirəcək”.

Beləliklə, yeni tranzit marşrutları Gürcüstan üçün strateji imkanlar yaradır, mövcud dəhlizləri zəiflətmir, onları tamamlayır və gücləndirir. Ölkənin rolunu qoruyub möhkəmləndirməsi üçün isə daxili siyasi sabitlik, destabilizasiya risklərinin minimuma endirilməsi və neytral xarici siyasət kursunun seçilməsi əsas şərtlərdir. Bu yanaşma Gürcüstanı Asiya–Avropa dəhlizinin bir parçası kimi möhkəmləndirir, onun tranzit və logistika potensialını gücləndirir və regionda uzunmüddətli iqtisadi və siyasi maraqlarına xidmət edir.

***Pünhan ƏFƏNDİYEV***
***XQ***

# Azərbaycan humanitar elmi və azərbaycanşünaslıq: konseptual baxış




## I MƏQALƏ

### Azərbaycan elmi humanitariyası

"Xalq qəzeti" nin 2026-cı il 10 yanvar tarixli sayında filologiya elmləri doktorları Sərxan Xavəri, Hikmət Quliyev və Səfa Qarayevin akademik Kamal Abdullanın "Gizli Dədə Qorqud: yeni mənalar axtarışında" (Bakı, 2025) adlı monoqrafiyasının elmi-konseptual təhlilinə həsr edilmiş "Ulu söz abidəsinin gizlinlərinə açılan qapı" adlı məqalələri dərc edilmişdir.

Məqalənin məzmunu və təhlilin elmi-idraki hədəfləri başlıqda ifadə edilən fikrin sərhədlərini ciddi şəkildə aşır. Bu "transsemantik proyeksiya"da bütövlükdə Azərbaycan sosio-humanitar elmi təfəkkürünün dərin məsələlərinə kreativ nüfuzetmənin əlamətlərini görürük.

Əlbəttə, məqalənin elmi sanbalı və bütövlükdə koqnitiv məziyyətləri, mənə görə, yüksəkdir. Ancaq burada bizi əsas olaraq müasir Azərbaycan humanitar elmi təfəkkürünün ciddi nəzəri əsaslar, elmi yanaşmalar ("epistemoloji konstruktlar"), fənlərarası metodoloji sistemlər və biliyin fərqli qiymətləndirmə prinsipləri bazasında yenidən "formatlaşdırılması" konteksti maraqlandırır. "Buna ehtiyac varmı?" sualının cavabının silsilə məqalələrin mətninin məntiqi və semantikasının qovşağında aydınlaşacağına ümid edirik.

Bizim yanaşmamızın elmi-idraki təməlində "Müasir Azərbaycan elmi humanitariyası necə olmalıdır?" sualına cavab axtarışlarının son dərəcə yüksək aktual olması əminliyi dayanır.

Bunun bir mühüm səbəbi bütövlükdə Azərbaycan elminin daxili təkamül dinamikasının xüsusiyyətləri ilə bağlıdır. Zaman-zaman elmi-təfəkkürün "özünütəftişi" ciddi ehtiyaca çevrilir. Həmin anda elmi təfəkkürün dərhal fəlsəfi dərketməyə müraciəti "elmi sifariş" halına gəlir. Fəlsəfə və elm tarixi bunu sübut edə biləcək kifayət qədər ciddi faktlara malikdirlər.

Digər səbəb XXI əsrin çağırışlarının əmələ gətirdiyi yeni fəlsəfi-elmi düşüncə mədəniyyətini artıq uyğunlaşmağa başlaması ilə əlaqəlidir. Bu prosesin özəllikləri çoxdur. Bizim üçün burada önəmli olanı XXI yüzildə tərəqqinin elmdənkənar mümkünlüyünün olmadığı qənaətinin dünyada qəbul edilməsi ilə bağlıdır. Doğrudur, buna uyğun olmayan müxtəlif yanaşmalar, izahlar, əsaslandırmalara rast gəlinir. Ancaq bəşəriyyətin praktiki mövcudluq sahəsində elmsiz kiçik bir addım atmaq belə mümkün deyildir.

İndi rəqəmsallaşma, süni intellekt, kibertəhlükəsizlik, informasiya nəzəriyyələri, kosmotexnisizm (yeni fəlsəfi-elmi anlayışdır) və klassik insan təfəkkürü üçün qeyri-adi görünən çoxlu sayda anlayışlar yalnız elm adamlarının deyil, cəmiyyətin praktiki həyatının müxtəlif sferlarında insanların ünsiyyət mədəniyyətinin fraqmentlərində rast gəlirik. Yəni insanların fərd olaraq və onların birgəyaşam üsulu olan "cəmiyyət"in ekzistensiyası (mövcudolma üsulu, imkanları və sərhədləri) "böyük anlamda elmidir"!

Ən maraqlısı odur ki, bütün bu sıçrayışlı və inqilabi dəyişikliklər bir məsələni fəlsəfi və elmi idrakın əsas problemi hesab edirlər – İnsan! İndi "İnsan"ı öyrənmək bütövlükdə dünyanı, kosmosu, qalaktikaların ənginliklərini öyrənmək kimi qəbul edilir. İnsanı yaşatmaq dünyanı yaşatmaq deməkdir. Buradan elmi humanitarlığın cari və strateji aktuallığı ilə funksiyasının sintezinin bütün mənzərəsini yaratmaq olar! Məqsədimiz o deyil. Ancaq aydın olur ki, elmi humanitariya bütövlükdə fərdlər və qövmlər üçün fundamental ekzistensial suallara cavab axtarışlarının başlıca "semantik sahəsi" halına gəlmişdir. Bizim üçün bu "semantik sahənin" ən qiymətli "idraki incisi" Azərbaycan elmi humanitariyasıdır! Çünki biz azərbaycanlıyıq, Azərbaycan Respublikasının ziyalılarıyıq və humanitar elmin müstəqil Azərbaycan dövlətinə xidmət etməli olduğuna dərin, sarsılmaz əminliyimiz vardır!

Son tezisin əsaslılığının sırf nəzəri-konseptual məna sahəsi də mövcuddur. Lakin onun üzərində qəzet çərçivəsində dayanmaq, onsuz da terminoloji baxımdan mürəkkəb olan mənzərəni daha da mücərrəd edər. Ona görə də konkret Azərbaycan elmi humanitariyasının təhlilinə keçək.

### Azərbaycan humanitar düşüncəsi

Filologiya elmləri doktorları S.Xavəri, H.Quliyev və S.Qarayev yuxarıda vurğuladığımız məqalələrində yazırlar: "Nə qədər paradoksal səslənsə də, məhz bu rakursdan yanaşdıqda, qədim türk mədəniyyətinin bəşər mədəniyyəti kontekstində yeri və mövqeyi formal vətənpərvərlik və millətçilik düşüncəsi ilə yazılan tədqiqatlarda olduğundan daha aydın, həm də daha şərəfli görünür. Bu mənada, kitabın çox mühüm cəhətlərindən biri (müəlliflər akademik K.Abdullanın "Gizli Dədə Qorqud: yeni mənalar axtarışında" monoqrafiyasını nəzərdə tuturlar – F.Q.) onun Azərbaycan elmi humanitar düşüncəsinin universal antropoloji elmi səviyyəyə iddiasını və imkanını özündə əks etdirməsidir. Bizcə, hazırda belə bir iddiaya Azərbaycan humanitariyasının çox ehtiyacı vardır".

Bir kitabın təhlilindən bütövlükdə Azərbaycan elmi humanitariyasının nəzəri-konseptual məsələlərinə keçid yeni hadisə deyildir. Bu kimi nümunələrə akademiklər İ.Həbibbəyli, K.Abdulla, N.Cəfərov və digərlərinin yaradıcılığında rast gələ bilərik. Bununla yanaşı, yuxarıdakı iqtibasın birbaşa AMEA-da elmi humanitariyanın inkişafı kontekstinə aidiyyatı bizi daha çox maraqlandırır.

### AMEA-nın fəaliyyətinin birinci prioritet istiqaməti

2024-cü il fevralın 29-da AMEA prezidenti akademik İsa Həbibbəyli Akademiyanın fəaliyyətinin 7 prioritet istiqamətlərini Rəyasət Heyətinin Ümumi yığıncağında elan etmişdir. Birinci prioritet aşağıdakı kimi müəyyənləşdirilmişdir:

– Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Andiçmə mərasimində ifadə olunmuş azərbaycançılıq ideologiyasının elmi-nəzəri və tarixi-fəlsəfi əsaslarının işlənib hazırlanması və bütün istiqamətlər üzrə həyata keçirilməsi ölkə elminin, Azərbaycan Milli Elmlər Akademiyasının qarşısında duran əsas vəzifələrdəndir. AMEA-nı ölkəmizin əsas Azərbaycanşünaslıq mərkəzinə çevirmək bizim əsas vəzifəmizdir.

Etiraf edək ki, "Azərbaycan elmi humanitar düşüncəsinin universal antropoloji elmi səviyyəyə" iddiası və imkanı" tezisinin I prioritetin məzmunundan qaynaqlandığı təəssüratı yaranır. Yəni məqalədə vurğulanan nəzəri tezis bir "AMEA elmi hadisəsidir"! Bir neçə ildir ki, Akademiya rəhbərliyinin həyata keçirdiyi yeniləşmə prosesinin elmi yaradıcılıq təzahürlərindən biridir. Onun vacib cəhətlərindən biri Azərbaycan elmi humanitariyasının "universal antropoloji elmi səviyyəyə" yüksəldilməsi məsələsinin azərbaycançılıq məfkurəsinin tədqiqi əsasında Azərbaycanşünaslığın inkişafı ilə sıx bağlılığıdır. Bizi məhz məsələnin bu aspekti maraqlandırır.

Əsas sual belədir: "Azərbaycanşünaslığın elm olaraq inkişafı perspektivləri ilə bütövlükdə Azərbaycan elmi humanitarlığının universal antropoloji səviyyəyə yüksəldilməsi arasında əsaslı elmi münasibətlər necə olmalıdır?"

### Azərbaycanşünaslıq elm kimi

Yuxarıda qoyulan suala elmi cavab axtarmaq üçün qısa da olsa, bütövlükdə Azərbaycanşünaslığın tədqiqi vəziyyətinə baxmaq lazımdır. Akademik İsa Həbibbəyli yazır: "Hazırda respublikamızda azərbaycançılıq ən müxtəlif yöndən tədqiq edilib öyrənilməkdədir. Azərbaycanşünaslığın zəruri və gərəkli bir araşdırma istiqamətinə çevrilməsi müstəqil Azərbaycanın elm siyasətinin uğurudur".

Bir başqa yerdə AMEA prezidenti vurğulayır: "Azərbaycan – ana Vətən və ümummilli ideal; Azərbaycançılıq – milli ideologiya; Azərbaycanşünaslıq – elmdir!"

Akademik Nizami Cəfərov da yazır ki: "...Azərbaycanşünaslıq nə dilçilik, nə ədəbiyyatşünaslıq, nə mədəniyyətşünaslıq, nə də tarixşünaslıqdır. Onun (azərbaycanşünaslığın) işi həmişə elmlərin hər birinin, eləcə də bir sıra digər elmlərin faktlarından, nəticələrindən, ümumi müddəalarından istifadə etməklə Azərbaycan (və Azərbaycan xalqı!) haqqında ümumi təsəvvür yaratmaqdan, Azərbaycanın (və Azərbaycan xalqının!) dünyadakı universal mövqeyini müəyyənləşdirməkdən ibarətdir".

Başqa nümunələr də gətirə bilərik, lakin vurğulanan fikirlərdən aydındır ki, Azərbaycanşünaslıq konkret tədqiqat predmeti, yanaşma özəlliyi və elmi məqsədi olan, dinamik inkişaf edən konsepsiyadır. Onun fərqli xüsusiyyəti akademik İsa Həbibbəylinin yuxarıdakı tezisinin məntiqindən avtomatik alınır: Azərbaycan idealdır, Azərbaycançılıq milli ideologiyadır, Azərbaycanşünaslıq isə elmdir.

Akademik Nizami Cəfərovun da yanaşmasından bu məntiqi bağlılıq duyulur. Həmin tezisi ümumiləşdirsək, belə bir mənzərə alarıq – Azərbaycanşünaslığın elm kimi təməlində Azərbaycan idealını konseptuallaşdıran Azərbaycançılıq məfkurəsi dayanır.

Başqa sözlə, Azərbaycanşünaslıq Azərbaycançılıq məfkurəsinin semantik, dünyagörüşü və sosial funksionallıq sərhədlərindən kənarda mücərrəd mahiyyət daşıyardı. Bu anlamda Azərbaycanşünaslığı bəlkə də necə əsl azərbaycançı olmağın elmi izahı kimi də təsəvvür etmək olar. Yəni bir tərəfdən, Azərbaycanşünaslıq elmi konsepsiyadır, digər tərəfdən isə fərd və kollektiv mövcudluq kimi azərbaycanlıların Vahid Vətəndə praktiki yaşamalarının "elə fəlsəfəsidir ki, Yaşar Qarayev anlamında estetik zövq səviyyəsinə yüksəldilməlidir". Bu halda, "Azərbaycan elmi humanitarlığının universal antropoloji səviyyəyə yüksəldilməsi"nə müasir elmi kriteriyalar bazasında nail olmaq mümkündür.

Bunlardan bizim üçün prinsipial konseptual və metodoloji önəm kəsb edən bir tezis alınır: Azərbaycan elmi humanitarlığının universal antropoloji səviyəyə yüksəldilməsinin mərkəzində Azərbaycanşünaslığın müasir elmi tələblər müstəvisində universal antropoloji səviyyəyə yüksəldilməsi dayanmalıdır. Azərbaycanşünaslıq bu keyfiyyətdə mücərrəd nəzəri funksionallıq deyil, bütövlükdə bizim elmi humanitar təfəkkürümüzün əyaniləşmiş və aktuallaşmış rəmzi olmalıdır! Bu məqsədə AMEA-nın yeniləşmə kursunun I prioritet istiqamətinin nəzəri, metodoloji və dünyagörüşü kontekstində çatmaq tamamilə mümkündür!

Vurğulanan məqamlar məsələnin başqa bir nəzəri xüsusiyyətini aktuallaşdırır.

### Azərbaycanşünaslıq konsepsiya və ideologiyanın müqayisəsi prizmasında

Azərbaycanşünaslığa "ideya-konsept-konsepsiya" yaradıcılıq nümunəsinin semantik sahəsindən baxanda düşündürücü bir konseptual məqamı görə bilərik. O, ideya, konsept və konsepsiyasının aralarında olan fərqlərlə əlaqəlidir.

Məsələn, konsepsiyanın konseptdən semantik və funksional fərqi nədən ibarətdir? Elmi ədəbiyyatda həmin fərqi konsepsiyada ideoloji komponentin mövcudluğu ilə əlaqələndirirlər. Əgər sosial-humanitar elmlərdə konsept obyektin predmetik tərəfinə aiddirsə, konsepsiya artıq ideoloji aidiyyatı olan və ideyaların sistemli münasibətlərinin mövcudluğu ilə xarakterizə olunan nəzəri konstruktdur. Buna görə Azərbaycanşünaslıq konsepsiya kimi mütləq ideoloji komponentə malik olmalıdır. Bu funksiyanı Azərbaycançılıq məfkurəsi yerinə yetirir. Vurğuladığımız kontekstdə İ.Həbibbəylinin yuxarıdakı tezisinə baxsaq, görərik ki, Azərbaycanşünaslıq özündə Azərbaycançılıq məfkurəsini konsepsiya kimi ehtiva edən ciddi humanitar elmdir.

Azərbaycanşünaslığın ideoloji komponenti kimi Azərbaycançılıq məfkurəsinin elmi dərkində aşağıdakı iki məqam baza rolunu oynaya bilər.

**Birincisi, Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycançılıq məfkurəsini "ümumxalq ideologiyası" kimi xarakterizə etməsidir.**

**İkincisi, bu fundamental tezisin məzmun, məqsəd və dünyagörüşü çətiri altında akademik İ.Həbibbəylinin ifadə etdiyi Azərbaycançılıq məfkurəsinin 5 prinsipidir. Onlar aşağıdakılardır:**

*"1. Azərbaycançılıq – ümumtürk mənşəli milli məfkurədir.*

*2. Azərbaycançılıq – Azərbaycanın ərazi bütövlüyünün, vahid Vətən, vətəndaş həmrəyliyi və milli birlik ideyalarının təcəssümü, ümumiləşmiş ifadəsidir.*

*3. Milli iftixar və Vətənçilik Azərbaycançılıq məfkurəsinin əsas ideya mənbəyidir.*

*4. Azərbaycançılıq bəşəri dəyərləri özündə əks etdirən ümummilli məfkurədir.*

*5. Radikal millətçilik, dini ayrı-seçkilik, separatçılıq Azərbaycançılıq məfkurəsinə ziddir".*

Həmin təsnifdə Azərbaycançılıq məfkurəsi Azərbaycan xalqı, Azərbaycan dövlətçiliyi, Azərbaycan dili, milli-mənəvi dəyərlər, Azərbaycan ədəbiyyatı və Azərbaycanşünaslıqla sistemli semantik-funksional bütöv təşkil edirlər və ümumi səviyyədə "Azərbaycançılığın" tərkib hissələri olaraq təqdim olunurlar.

Bununla Azərbaycan elmi humanitarlığının universal antropoloji səviyyədə real prosesə çevrilməsi kontekstində "Azərbaycançılıq-Azərbaycançılıq məfkurəsi-Azərbaycanşünaslıq" semantik və məntiqi sahəsində maraqlı və aktual problemlərin elmi dərki sferasına qədəm qoymuş oluruq. Bu koqnitiv keçidin uğurlu olması üçün Azərbaycan elmi humanitar təfəkkürünün fəlsəfi epistemologiyaya (və ya idrak nəzəriyyəsinə) ciddi ehtiyacı vardır və hətta onsuz mümkün deyildir!

**(ardı var)**

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Dezinformasiyaya qarşı dünya modeli

**Dünya İqtisadi Forumu 2026-cı il üzrə qlobal risklərlə bağlı hesabatında feyk xəbərlər və dezinformasiya məsələsinə də toxunub. Feyk xəbər və dezinformasiya qarşıdakı illər üzrə proqnozlaşırılan risklər sırasında dərəcəsinə görə 2-ci yeri tutub.**



**Müşfiq ƏLƏSGƏRLİ,**
**XQ-nin media eksperti**

Məlumat üçün qeyd edək ki, dezinformasiya mahiyyət etibarilə qədim dövrlərin məhsuludur. İnformasiya savaşının mühüm elementi olması baxımından rəqabət, münaqişə, müharibələrlə həmyaşıd sayılır. Fərqli adlar altında həmişə mövcud olub. İndiki terminin – "dezinformasiya" sözünün məşhurlaşması ötən əsrin 60-cı illərinə təsadüf edir. 1965-ci ildə Sovet İttifaqı ilə ABŞ arasında mövcud olmuş "soyuq müharibə dövrü"nün şərtləri kontekstində elmi ədəbiyyata gətirilib. Rəqib olan bu dövlətlər bir-biri haqqında qəsdən saxtalaşdırılmış məlumatlar – dezinformasiyalar yaymaqla qarşı tərəfə zərər vurmağa çalışıblar. Amma Sovet İttifaqının dağılması, "soyuq müharibə"nin bitməsi dezinformasiya amilini aradan qaldırmayıb. Dezinformasiya siyasi savaş elemetinə çevrilərək inkişaf etdirilib.

Son 30 ildə "dezinformasiya"nın xarakteri və kəmiyyəti dəyişib. Nüfuzlu "PolitiFact" platforması 2016-cı ildə "dezinformasiya"nı "siyasətin fenomeni" elan edib. Bu qənaət ABŞ-də keçirilmiş prezident seçkisi zamanı namizədlər tərəfindən yayılan informasiyaların təhlil edilməsi ilə formalaşıb. "PolitiFact" bu nəticəyə gəlib ki, prezidentliyə namizədlər də, mövcud prezidentlər də bu alətdən yararlanırlar. Məşhur tədqiqat mərkəzlərindən olan "Statista" da bu yöndə tədqiqatları inkişaf etdirib. 2022-ci ildə keçirdiyi sorğunun nəticələri üzrə hazırladığı hesabatda qeyd edib ki, "dezinformasiya" təhlükəli hal alıb. 2026-cı ildə isə Davos Forumu dezinformasiyanı qarşıdakı illərdə dünyanı təhdid edən risklər sırasında 2-ci yerdə göstərib. Dinamika sürətlidir. 10 il ərzində dezinformasiya "siyasətin fenomen"dən "dünyanı təhdid edən riskə" çevrilib.

"Feyk xəbər" və onun ən zərərli tiplərindən sayılan dezinformasiyanın sürətli artımının səbəbləri barədə danışarkən, 2 mühüm amil önə çəkilir. Onlardan biri internet informasiya resurslarının, xüsusilə sosial şəbəkə platformalarının kəmiyyət və forma baxımından çoxalmasıdır. Analitik mərkəzlər bildirirlər ki, yeni media alətlərinin, xüsusilə, sosial şəbəkə platformalarının inkişafı paralel olaraq "saxta xəbər"in çoxalmasını stimullaşdırır. Qeyd olunur ki, sosial şəbəkə platformaları "saxta xəbər"i digər kommunikasiya tiplərinə nisbətən, 6 dəfə sürətlə yayırlar. Auditoriyaları da böyükdür. Son statistikaya görə, dünya əhalisinin 70 faizə yaxını bu platformalardan istifadə edir. Azərbaycanda da durum təqribən buna yaxındır, əhalinin 65 faizdən çoxu sosial şəbəkə istifadəçisidir.

İkinci amil isə siyasi gərginliyin qlobal səviyyədə artmasıdır. Münaqişələr, qarşıdurmalar çoxaldıqca, dezinformasiyanın kəmiyyəti də artır. Zatən dezinformasiyanın mahiyyəti budur. "Saxta xəbər"in (Fake news) növləri arasında ən ziyanlı olanı "dezinformasiya"nı digərlərindən fərqləndirən amil budur ki, o, bilərəkdən saxtalaşdırılmış, qərəzli şəkildə manipulyasiya edilmiş fakt və məlumatları nəzərdə tutur. Ekvivalent olaraq "rəqib tərəfdə təxribat törətmək məqsədilə düşməncəsinə yayılan saxta məlumat" cümləsindən istifadə edilir. Elmi ədəbiyyatlarda qeyd edilir ki, "Dezinformasiya bilərəkdən saxtalaşdırılmış yalan məlumatdır, mahiyyətində mənfur motivlər vardır. Zərərli niyyətlər üçün yaradılmışdır".

Mənzərə göz önündədir. Problem aydın görünür. Texnologiya inkişaf etdikcə, generativ süni intellekt alətləri çoxaldıqca, həmçinin, siyasi münaqişələr qızışdıqca, dezinformasiyaların sayı da çoxalacaq. Problem də burdadır. Hər kəs vəziyyətin təhlükəli hal aldığından danışır. Bəs çıxış yolu nədədir? Dezinformasiyanın qarşısını almaq üçün təklif edilən modellər fərqlidir, yanaşmalar müxtəlifdir.

Azərbaycan qlobal səviyyəli dezinformasiyalardan zərər çəkən dövlətlər sırasındadır. 30 il müddətində Ermənistanla münaqişə vəziyyətində olması ölkəmizi total xarakterli dezinformasiya axınının hədəfinə çevirib. Amma Qarabağ münaqişəsinin bitməsi dövlətimizə qarşı yönələn dezinformasiyaların bitməsi anlamını daşımır. Ölkənin strateji mövqeyi, qoşulduğu lokal və qlobal layihələr bizə qarşı yönəlik dezinformasiyaların kəmiyyətini artırır. Azərbaycan bu tip təxribatları necə zərərsizləşdirir? Dezinformasiyaya qarşı mübarizədə hansı modeldən faydalanır? Mövzunu növbəti yazımızda inkişaf etdirəcəyik.

# Sülh prosesi iqtisadi fəallıqla müşayiət olunur

## *Vaşinqtondan başlayan "domino uçuşu" Davosda davam etdi*

**Davosda Prezident İlham Əliyev ilə ABŞ Prezidenti Donald Tramp arasında keçirilən görüş regional və qlobal miqyasda olduqca böyük perspektivlər vəd edir. ABŞ liderinin yeni hakimiyyət dövrü Azərbaycan, bütövlükdə isə Cənubi Qafqaz üçün yeni imkanlar yaradır.**

Ölkə başçımızın Davosda keçirilən "Azərbaycan rəhbərliyi ilə səhər yeməyi" adlı tədbirdə qeyd etdiyi kimi, ötən ilin 8 avqustundan sonra Vaşinqtona və digər şəhərlərə artıq 4 nümayəndə heyəti göndərilib: "Hesab edirik ki, biz ABŞ ilə yeni mərhələyə qədəm qoyuruq - siyasi, iqtisadi, enerji və hətta müdafiə sahəsində. Bu, Azərbaycan üçün Amerika Birləşmiş Ştatlarından birbaşa sərmayə cəlb etməkdə böyük imkanlar yaradacaqdır və ümid edirəm ki, bizim avropalı tərəfdaşlarımız bu məsələdə geri qalmayacaqlar".

Son aylarda Bakı–Vaşinqton münasibətlərində intensivləşmə müşahidə olunur. ABŞ Ticarət Palatası, ABŞ Dövlət Departamenti və Ticarət Nazirliyi ilə birlikdə Azərbaycana ilk dəfə ikitərəfli biznes missiyası təşkil edir. Görüşlər fevralın 9–10-da Bakıda keçiriləcək. İkigünlük səfər çərçivəsində yüksək səviyyəli nümayəndə heyəti ABŞ şirkətlərinə Azərbaycan dövlət orqanları, dövlət şirkətləri və özəl sektorun aparıcı oyunçuları ilə birbaşa əlaqə qurmaq imkanı yaradacaq. Əsas diqqət energetika və rəqəmsal transformasiya, müdafiə və nəqliyyat, kənd təsərrüfatı və səhiyyə, maliyyə və investisiyalar üzərində cəmləşəcək.

Qeyd edək ki, ölkələr arasında müzakirə olunmuş anlaşma memorandumunun icrasına həsr olunan ilk İşçi Qrupun görüşü keçirilib. Görüşdə regional nəqliyyat bağlantılarının, ticarətin gücləndirilməsi, o cümlədən süni intellekt və rəqəmsal infrastrukturun inkişafı kimi məsələlərə baxılıb. Bu təşəbbüslər sayəsində Azərbaycan–ABŞ iqtisadi əlaqələrində yeni mərhələnin başlanğıcı qoyulur və ölkəmizin region lideri kimi rolunu artırır.

Digər tərəfdən, "TRIPP" layihəsi Cənubi Qafqazın nəqliyyat-enerji xəritəsini birləşdirməyi nəzərdə tutur. Belə nisbətən mürəkkəb layihə yalnız infrastruktur tikintisi ilə məhdudlaşmır. TRIPP eyni zamanda normativ koordinasiya, investisiya mexanizmləri və özəl sektorun iştirakı kimi aspektləri də əhatə edən siyasi-iqtisadi çərçivədir. Bu təşəbbüs artıq ABŞ-ın Avrasiya loqistikasında iştirakını gücləndirə biləcək regional platforma kimi müzakirə olunur. TRIPP-in texniki aspektləri isə ABŞ tərəfindən dəstəklənir.

Məsələnin digər tərəfi isə 8 avqust görüşündən sonra baş verən "domino uçuşu" ilə




bağlıdır. Azərbaycan və Ermənistan arasında normallaşma prosesində də, xüsusilə, iqtisadi çərçivədə aktivlik müşahidə olunur. Son dövrdə Azərbaycan və Ermənistan arasında iqtisadi əlaqələr normallaşma prinsipinə əsasən genişlənir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Azərbaycandan Ermənistana neft məhsullarının ixracı həyata keçirilir və idxal olunmuş taxıl ölkəmiz vasitəsilə Ermənistana çatdırılır. Həmin sülh təşəbbüslərinin bir hissəsi olaraq Ermənistan da enerji sahəsində əməkdaşlığa maraq göstərir.

Ermənistan Baş naziri Nikol Paşinyan parlamentdə bəyan edib ki, TRIPP layihəsi çərçivəsində hər iki ölkənin enerji sistemləri bir-birinə qoşulacaq və ixrac-idxal imkanlarından qarşılıqlı bərabər şərtlərlə faydalanacaqlar. O, artıq benzinin qiymətinin təxminən 20 faiz ucuzlaşdığını, həmçinin Azərbaycandan Ermənistana buğda idxalının başladığını qeyd edərək bunun qarşılıqlı faydanın nəticəsi olduğunu vurğulayıb. Bu faktlar münaqişədən sonrakı normallaşmanın praktik nəticələrini göstərir və regional sabitliyin iqtisadi nəticəsini sübut edir.

Davos görüşündən, eləcə də son icra olunan layihələrdən aydın olur ki, TRIPP dəhlizi Çinə və Orta Asiyaya çıxış imkanlarını şaxələndirir, regionda sülh və əməkdaşlığa xidmət edir. Yeni nəqliyyat–enerji koridorları həm münaqişədən sonrakı regionda sabitliyi artırır, həm də Azərbaycan və Ermənistan arasında qarşılıqlı fayda əsasında iqtisadi münasibətlərin dərinləşməsinə əsas verir.

***Nurlan ABDALOV***
***XQ***

### *Ekspert rəyi*



**Zəfər VƏLİYEV,**
**enerji məsələləri üzrə ekspert**

1988-ci ilə qədər Azərbaycan və Ermənistan vahid enerji sistemi daxilində fəaliyyət göstərib. Mövsümi şərtlərdən asılı olaraq tərəflər bir-birinə elektrik enerjisi ixrac ediblər. Bu gün Ermənistan İrandan idxal etdiyi təbii qazın əvəzində İrana elektrik enerjisi ixrac edir. Azərbaycan isə son illərdə böyük həcmdə elektrik enerjisi istehsal edərək onun bir hissəsini ixraca yönəldib.

Nəticə etibarilə, Azərbaycanla iqtisadi və enerji əməkdaşlığının inkişafı Ermənistan iqtisadiyyatının dirçəlməsinə real töhfə verə bilər. Ermənistanın illik neft məhsullarına tələbatı Azərbaycanın cəmi bir aylıq tələbatına bərabərdir. Bu fakt da göstərir ki, enerji sahəsində əməkdaşlıq ilk növbədə Ermənistan üçün həyati əhəmiyyət daşıyır.

Ümumiyyətlə, müharibədən sonra Cənubi Qafqazda yeni iqtisadi imkanlar formalaşdı. Bunun ardınca 2025-ci ilin noyabr ayında Azərbaycan hökuməti Azərbaycan ərazisi üzərindən Ermənistana tranzit yüklərin daşınmasına tətbiq edilən məhdudiyyətləri qismən aradan qaldırdı.

Bu addım Ermənistanın yanacaq-sürtkü materialları bazarında ciddi dəyişikliklərə səbəb oldu. Ümumilikdə, Azərbaycanın Ermənistana enerji daşıyıcılarının tədarükünü təşkil etməsi son 33 ildə ilk dəfə baş verdi. Məhz buna görə də bütün mal dövriyyəsi əsasən Gürcüstan üzərindən reallaşdırılıb. Daha əvvələ getsək, 1959-cu ildə Qaradağ–Ağstafa–Tbilisi–İrəvan qaz kəməri istismara verildikdən sonra Ermənistanda sənayeləşmə prosesi sürətlənməyə başladı.

Qeyd edək ki, Ermənistanda qazpaylayıcı şəbəkələrin formalaşmasında Azərbaycan mühəndisləri və mütəxəssisləri fəal iştirak ediblər. Eyni zamanda, Ermənistan ərazisində fəaliyyət göstərən bir sıra kimya zavodlarının xammal təminatında Azərbaycan məhsulları mühüm rol oynayıb. Buraya həm metan tərkibli boru kəməri qazı, həm də Sumqayıt kimya müəssisələrində istehsal olunan kimya məhsulları daxil idi.

Daşınma xərclərinə gəldikdə isə bir ton neft məhsulunun daşınma xərci 25–31 ABŞ dolları təşkil edir. Yanacağın növündən – dizel, benzin və ya aviasiya kerosini olmasından asılı olmayaraq, daşınma xərci eyni səviyyədə qalır. Bakıdan Böyük Kəsiyə qədər daşınma xərci 15–16 dollar, Gürcüstanın tranzit tarifi isə təxminən 9 dollar təşkil edir. Sadaxlı stansiyasından Ayrım stansiyasına qədər olan hissə üçün isə əlavə 3 dollar ödənilir.

Bu xərclər strukturunu bildirməkdə məqsəd Ermənistanın yanacaq təchizatının sadə və ucuz logistik mexanizm üzərində qurulmadığını nümayiş etdirməkdir. Ermənistan üçün nəzərdə tutulan neft məhsulları iki fərqli limanda – Rusiyanın Qara dəniz sahilində və Gürcüstanın Poti və ya Batumi limanlarında doldurulub-boşaldılır ki, bu da əlavə xərc və vaxt itkisinə səbəb olur. Məhz bu səbəbdən Ermənistanın yanacaq-sürtkü materialları bazarında Rusiyanın payı hələ də böyükdür. Azərbaycanın neft məhsullarına üstünlük verilməsi isə Ermənistanın Rusiyadan enerji asılılığının azaldılması və yanacaq təchizatının şaxələndirilməsi baxımından mühüm strateji addım kimi dəyərləndirilə bilər.

### *Ekspert rəyi*



**Zahid MƏMMƏDOV,**
**Avrasiya İqtisadiyyatı Beynəlxalq Elmi-Tədqiqat Mərkəzinin rəhbəri, iqtisad elmləri doktoru, professor**

Ümumiyyətlə, Davosda Azərbaycan Prezidenti İlham Əliyevin ABŞ prezidenti Donald Trampla keçirdiyi görüş regional və qlobal kontekstdə olduqca məhsuldardır. Məlumdur ki, Azərbaycan və Ermənistan arasında əməkdaşlıq real və praktik nəticələrə çevrilməkdədir. Bu proses özünü Azərbaycan məhsullarının Ermənistana ixracında, xüsusilə neft məhsullarının tədarükündə göstərir. Sözügedən əməkdaşlıq Ermənistan iqtisadiyyatının dirçəlməsi və inkişafına təsir göstərdiyi kimi, Azərbaycan iqtisadiyyatına da mühüm töhfə verir.

Davosda Azərbaycan və Ermənistan prezidentlərinin açıqlamalarında qeyd olunur ki, Azərbaycan vasitəsilə daha geniş logistik imkanların formalaşdırılması, qarşılıqlı yükdaşımaların gələcəkdə genişləndirilməsi perspektivləri müzakirə edilir. Əslində, bu məsələlər təkcə regional liderlər arasında deyil, qlobal iqtisadi və siyasi gündəmin də mühüm müzakirə mövzusudur.

Bu baxımdan TRIPP layihəsi Cənubi Qafqazda mühüm regional infrastruktur təşəbbüsü kimi çıxış edir. Ümumilikdə, TRIPP layihəsini Cənubi Qafqazda sülh və əməkdaşlıq təşəbbüsü kimi qiymətləndirmək olar. Bu layihə regional ticarət, nəqliyyat və enerji əlaqələrinin kompleks şəkildə genişlənməsinə zəmin yaradır.

Ümumiyyətlə, Nikol Paşinyan sülh prosesində qarşılıqlı əlaqələri iqtisadi investisiya təşəbbüsü kimi təqdim edir və iqtisadi əməkdaşlığın önə çıxarıldığını xüsusi olaraq vurğulayır. Azərbaycanın regionda ən güclü aktor və təşəbbüskar kimi çıxış etməsi fonunda Ermənistan da artıq bu reallığı dərk edir və Azərbaycanın irəli sürdüyü təşəbbüslərin gələcək regional inkişaf üçün açdığı imkanlardan faydalanmağa çalışır. Mövcud proseslər göstərir ki, Bakı tərəfindən irəli sürülən strateji layihələr yalnız ikitərəfli münasibətlərə deyil, bütövlükdə Cənubi Qafqazın iqtisadi arxitekturasına təsir edən fundamental dəyişikliklər yaradır.

---

# Davos–2026-nın əsas dərsi: Dialoqsuz inkişaf yoxdur!




**2026-cı il Dünya İqtisadi Forumu İsveçrənin Davos şəhərində qlobal siyasət və iqtisadiyyatın taleyini müzakirə etmək üçün dünya liderlərini bir araya gətirdi. "Dialoq ruhu" şüarı ilə keçirilən builki forum bir daha göstərdi ki, beynəlxalq münasibətlərdə qarşıdurma meyillərinin gücləndiyi, geosiyasi risklərin artdığı bir dövrdə dialoq hazırda heç vaxt olmadığı qədər vacibdir.**

Yüzlərlə tanınmış siyasətçi, iqtisadçı, biznes və texnologiya nümayəndəsi qlobal miqyasda ən aktual və ən mürəkkəb problemləri müzakirə etmək üçün Davosa toplaşdı. Forum üçün seçilən "Dialoq ruhu" mövzusu da təsadüfi deyildi. Çünki beynəlxalq münasibətlərdə qarşıdurma meyilləri güclənir, güc siyasəti dialoqu sıxışdırır və bu şəraitdə ünsiyyət artıq seçim yox, zərurət kimi qəbul olunur.

Davos–2026 bu baxımdan tarixi miqyas aldı. Forumda təxminən 400 yüksək səviyyəli siyasi lider, o cümlədən 65-ə yaxın dövlət və hökumət başçısı, 850-yə yaxın iri transmilli şirkətin rəhbəri, eləcə də yüzə yaxın startap və texnoloji innovator iştirak etdi. Bu, Dünya İqtisadi Forumunun tarixində qeydə alınmış ən yüksək siyasi iştirak göstəricilərindən biri oldu və forumun qlobal proseslərə təsir imkanlarını bir daha ön plana çıxardı.

1971-ci ildə sadəcə biznes dairələrinin görüşü kimi başlayan Davos Forumu zamanla nadir qlobal dialoq platformasına çevrildi. Bu gün Davos böyük güclərin, regionların, siyasətçilərin, iqtisadçıların və texnologiya liderlərinin birbaşa ünsiyyət qura bildiyi azsaylı beynəlxalq məkanlardan biridir. Hərçənd forum tez-tez "qlobal elitaların klubu" kimi tənqid olunur, Davos–2026 sürətlə dəyişən və qeyri-sabit dünyada belə platformalara real ehtiyacın davam etdiyini göstərdi.

Forumun gündəliyi beş əsas istiqamət ətrafında formalaşmışdı: geosiyasi mühit, süni intellekt, iqlim və təbiət, yeni iqtisadi artım mənbələri və insan faktoru. Texnologiya, maliyyə, enerji və istehlak malları sektorlarından olan qlobal şirkət rəhbərlərinin fəal iştirakı bu sahələrin müasir dünya iqtisadiyyatında həlledici rol oynadığını bir daha təsdiqlədi. Bununla yanaşı, tarif siyasəti, ticarət münaqişələri və regional təhlükəsizlik məsələləri də müzakirələrin əsas mövzuları sırasında yer aldı.

Qlobal miqyasda ciddi sarsıntıların yaşandığı, ticarət müharibəsi ritorikasının gücləndiyi, qarşılıqlı sanksiya və cavab tədbirlərinin gündəmə gəldiyi bir vaxtda "dialoq ruhu" ideyası həm daha aktual, həm də daha çətin reallaşan məqsəd kimi ön plana çıxdı. Davos Forumu bu ziddiyyəti açıq şəkildə nümayiş etdirdi. Forum çərçivəsində təqdim olunan "Qlobal əməkdaşlıq barometri - 2026" hesabatında da qeyd olunur ki, bütün çətinliklərə baxmayaraq, qlobal əməkdaşlıq müəyyən dayanıqlıq göstərir. Lakin mövcud əməkdaşlıq səviyyəsi iqtisadi, təhlükəsizlik və ekoloji problemlərin miqyasına uyğun deyil.

Forumda açıq etiraf olundu ki, bu gün dünya iqtisadiyyatı daha mürəkkəb və qeyri-müəyyən mərhələdədir. Kapital hələ də texnologiya və infrastruktur layihələrinə yönəlir, lakin siyasi risklər, sanksiyalar və ticarət münaqişələri investorları daha ehtiyatlı davranmağa məcbur edir. Bu baxımdan Davos–2026 nikbinlikdən daha çox xəbərdarlıq mesajları ilə yadda qaldı.

Süni intellekt isə forumun əsas müzakirə mövzularından biri oldu. Forumda süni intellekt gələcəyin texnologiyası kimi deyil, bu gün iqtisadiyyatı formalaşdıran real güc kimi qiymətləndirildi. Bəziləri onun məhsuldarlığı artıracağını və iqtisadi artımı sürətləndirəcəyini vurğuladı, digərləri isə milyonlarla insanın işini itirə biləcəyi və sosial bərabərsizliyin dərinləşəcəyi barədə xəbərdarlıq etdi. Nəticədə ümumi fikir formalaşdı ki, süni intellekt artıq təkcə texnoloji deyil, siyasi və sosial məsələdir və dövlət tənzimləməsi qaçılmazdır.

Siyasi baxımdan Davos–2026 dünyanın yeni mərhələyə keçdiyini təsdiqlədi. Beynəlxalq münasibətlərdə liberal qaydalar zəifləyir, onların yerini güc balansına əsaslanan yanaşmalar tutur. ABŞ, Avropa və Çin arasında iqtisadi və təhlükəsizlik mövqeləri getdikcə daha çox fərqlənir. Dialoq çağırışlarına baxmayaraq, real siyasətdə kompromislərin daraldığı açıq hiss olunur. Bununla yanaşı, forum göstərdi ki, qlobal sistem yalnız supergüclər üzərində qurulmur və regional, orta güclər də yeni dünya nizamında daha fəal rol oynamağa çalışır.

Bir sözlə, Davos–2026 dialoq çağırışları ilə yanaşı, dünyanın üzləşdiyi dərin siyasi və iqtisadi ziddiyyətləri də göstərdi. Qlobal əməkdaşlıq ehtiyacı artsa da, onu reallaşdırmaq əvvəlkindən daha çətindir. Məhz buna görə də Davosda səsləndirilən "dialoq ruhu" çağırışı bu gün təkcə bir şüar deyil, qlobal sabitlik üçün zəruri bir mesaj kimi qiymətləndirilir. Bu baxımdan forumun əsas nəticəsi belə ifadə oluna bilər ki, dünya yeni qaydalara doğru gedir, lakin bu qaydalar hələ hazır deyil.

***Səbuhi MƏMMƏDOV***
***XQ***

---

# Növbəti ABŞ – Rusiya görüşü

## *Ukrayna savaşı sona çatacaqmı?*

**Ukrayna münaqişəsinin həlli ilə bağlı səylər son günlər kifayət qədər aktivləşib. ABŞ və Ukrayna prezidentlərinin Davosdakı görüşündən dərhal sonra ABŞ prezidentinin xüsusi nümayəndəsi Stiv Uitkoff Moskvaya uçub və Kremldə Rusiya Prezidenti Vladimir Putinlə görüşüb.**



Görüşdə Rusiya tərəfini prezidentin köməkçisi Yuri Uşakov və prezidentin xarici ölkələrlə investisiya və iqtisadi əməkdaşlıq üzrə xüsusi nümayəndəsi, Rusiya Birbaşa İnvestisiya Fondunun (RDIF) baş direktoru Kirill Dmitriyev təmsil ediblər. ABŞ nümayəndə heyətinə isə Uitkoffdan başqa, sahibkar, investor, "Affinity Partners" şirkətinin təsisçisi Cared Kuşner və Ağ Evin iqtisadi məsələlər üzrə ixtisaslaşmış yüksək vəzifəli müşaviri, Federal Satınalma Komissarı Coş Qruenbaum daxil olub.

Yuri Uşakov Putinin Uitkoffla görüşü ilə bağlı bildirib ki, danışıqlar təxminən dörd saat davam edib və olduqca məzmunlu və konstruktiv olub: "Deyərdim ki, onlar olduqca səmimi idilər və bir-birinə etibar edirdilər. ABŞ nümayəndə heyəti Prezident Donald Trampın Davosda Ukraynanın dövlət başçısı Vladimir Zelenski ilə görüşü ilə bağlı ilkin təəssüratlarını və yeni qiymətləndirmələrini bölüşüb. Uitkoff və Kuşner dekabr və yanvar aylarında Florida ştatındakı Mar-a-Laqoda və bir neçə Avropa paytaxtında keçirdikləri görüşlərə toxunub, Rusiya prezidentinə ukraynalılar və onların avropalı tərəfdaşları ilə əlaqələri haqqında məlumat veriblər".

Uşakov bildirib ki, bu istiqamətdə növbəti addımlar razılaşdırılıb. Putinin köməkçisi qeyd edib ki, təhlükəsizlik məsələləri üzrə üçtərəfli işçi qrupunun (ABŞ, Rusiya və Ukrayna) ilk iclasının 23 yanvar tarixində Əbu-Dabidə keçirilməsi barədə razılığa gəlinib. Onun sözlərinə görə, Rusiya təhlükəsizlik danışıqları qrupunun tərkibinə Silahlı Qüvvələrin Baş Qərargahının baş idarə rəisi admiral Kostyukov başda olmaqla Müdafiə Nazirliyi rəhbərliyinin nümayəndələri daxildir.

Həmin danışıqlar yanvarın 23-ü gecəsi, təxminən, 4 saat davam edib. Görüşün əsas mövzusu Ukrayna münaqişəsinin həlli olub.

Uşakov deyib ki, Rusiya nümayəndə heyəti Kremldəki danışıqların detallarını nəzərə alaraq prezidentdən konkret tapşırıqlar alıb. Əsas məsələ odur ki, danışıqlar zamanı ərazi məsələsinin Ankoricdə razılaşdırılmış formulaya uyğun olaraq həll edilməsi təklif olunub. Kremlin fikrincə, bu olmadan uzunmüddətli razılaşmaya ümid etmək olmaz: "Vladimir Putinin vurğuladığı kimi, biz Ukrayna böhranının siyasi və diplomatik yollarla həllində səmimi şəkildə maraqlıyıq. Lakin bu, baş verənə qədər Rusiya Silahlı Qüvvələri döyüş meydanında xüsusi hərbi əməliyyat üçün müəyyən edilmiş məqsədləri ardıcıl olaraq həyata keçirməyə davam edəcək".

Uşakovun sözlərinə görə, görüşdə Trampın Sülh Şurası yaratmaq təşəbbüsü, bir sıra regional məsələlər və Qrenlandiya ətrafındakı vəziyyət də müzakirə olunub. Rusiya əvvəlki ABŞ administrasiyası tərəfindən dondurulmuş Rusiya aktivlərindən qurumun büdcəsinə 1 milyard dollar ayırmağa hazır olduğunu bəyan edib: "Qalan vəsait Rusiya ilə Ukrayna arasında sülh müqaviləsi bağlandıqdan sonra döyüşlər zamanı zərər çəkmiş ərazilərin bərpası üçün istifadə edilə bilərdi. Bu məsələ ikitərəfli ABŞ-Rusiya iqtisadi qrupunda müzakirə ediləcək".

Uşakov vurğulayıb ki, Kremldəki görüş həm Rusiya, həm də Amerika üçün hər mənada faydalı olub: "Görüşdə tərəflərin həm Ukrayna, həm də digər məsələlərdə bir-biri ilə sıx əlaqə saxlamağa davam edəcəyi barədə razılığa gəlinib".

Xatırladaq ki, Uitkoffun Moskvaya səfərindən əvvəl Davosda Ukrayna Prezidenti Vladimir Zelenski ilə ABŞ lideri Donald Tramp arasında danışıq olub. Zelenski sosial mediada yazıb: "Amerika Birləşmiş Ştatları Prezidenti ilə yaxşı, məhsuldar və məlumatverici görüş oldu".

Onun sözlərinə görə, tərəflər iki ölkənin danışıq üzrə qruplarının işini, eləcə də Ukraynanın hava hücumundan müdafiə sistemlərinin gücləndirilməsini müzakirə ediblər.

Dünən Davosdan qayıdan ABŞ Prezidenti Donald Tramp da bildirib ki, Ukrayna münaqişəsinin həlliində "əhəmiyyətli irəliləyiş" əldə edilib.

***Paşa ƏMİRCANOV***
***XQ***

*Ekoloji müzakirə*

# Yaşıl gələcəyə təmiz enerji ilə

**Dünən ADA Universitetində Beynəlxalq Təmiz Enerji Günü münasibətilə İqtisadi Əməkdaşlıq Təşkilatının Təmiz Enerji Mərkəzi və Azərbaycan Respublikası Milli Məclisinin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin birgə təşkilatçılığı ilə dəyirmi masa keçirilib.**

Birləşmiş Millətlər Təşkilatı Baş Assambleyasının 26 Yanvar – Beynəlxalq Təmiz Enerji Gününü təsis edən qətnaməsinə uyğun olaraq təşkil olunan dəyirmi masanın açılış sessiyasında energetika nazirinin müavini Elnur Soltanov, ADA Universitenin prorektoru, Milli Məclisin deputatı Fariz İsmayılzadə, İƏT TEM-in icraçı direktoru xanım Aysel Yaqubova, Milli Məclisin Təbii ehtiyatlar, energetika və ekologiya komitəsinin sədri, millət vəkili Sadiq Qurbanov və BMT-nin Azərbaycanda müvəqqəti rezident koordinatoru İqor Qarafuliç çıxış ediblər.



“Bərpa olunan enerjinin tətbiqinin sürətləndirilməsi üçün təmiz enerjiyə keçid və regional əməkdaşlıq modelləri” mövzusunda panel sessiyasında energetika nazirinin müavini Elnur Soltanov, bp şirkətinin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli, Bakı Ali Neft Məktəbinin rektoru Elmar Qasımov, Yaşıl Dəhliz Alyansının baş direktoru Tural Əliyev, COP29 Azərbaycan gənclər üzrə iqlim çempionu, Qoşulmama Hərəkatı Gənclər Təşkilatının sədri Leyla Həsənova çıxış ediərək fikir və mülahizələrini bölüşüblər.

Dəyirmi masa çərçivəsində Milli Məclisin Təbii sərvətlər, energetika və ekologiya komitəsinin sədri Sadiq Qurbanovun müəllifi olduğu “Azərbaycanın enerji strategiyası” kitabının təqdimatı keçirilib. Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov, Azərbaycan Milli Elmlər Akademiyasının akademiki Arif Həşimov və Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov bu mövzuda fikirlərini bölüşüblər.

Sonda İƏT TEM-in təşkilatçılığı ilə keçirilmiş regional Hakatonun qalibləri mükafatlandırılıb. Xatırladaq ki, sözügedən mükafat Azərbaycan, Türkiyə, Pakistan, Qazaxıstan, Özbəkistan və Qırğızıstandan olan 16-35 yaş arası gənclər üçün nəzərdə tutulub və rəqəmsal, məlumat əsaslı enerji həllərinə fokuslanıb. İştirakçılar enerji səmərəliliyi, rəqəmsal maarifləndirmə və təmiz enerji siyasətinin dəstəklənməsi mövzularında 200-dən çox layihə təqdim ediblər. Beynəlxalq münsiflər heyətinin qərarı ilə 1-ci yeri Daşkənd İnformasiyalar və Texnologiyalar Universitetinin tələbələri Feruzbek Bakoev və Bobir Abdullayevdən ibarət olan komanda, 2-ci yeri Baki Ali Neft Məktəbinın tələbəsi Gülay Nəzərova, 3-cü yeri isə Nazarbayev Universtetinin tələbəsi Erlan Dosbol qazanıb.

Bununla yanaşı, Türkiyə nümayəndəsi Ahmet Erer təmiz enerji siyasətlərinin təhlili üzrə ən yaxşı rəqəmsal vasitə, Pakistan təmsilçisi Raza Ur Rehman enerji səmərəliliyi və davranış dəyişikliyi üzrə tətbiq oluna bilən ən yaxşı texnoloji ideya və Qırğızıstandan olan Altınbek Bakasov enerji şəffaflığı üzrə ən yaxşı texniki həll nominasiyalarının qalibləri seçiliblər. Azərbaycan təmsilçisi Elgün Rzayevin “Weather Sync Smart Heat” layihəsi isə BMT-nin Sənaye İnkişafı Təşkilatı tərəfindən xüsusi olaraq fərqləndirilib. Layihə Beynəlxalq Vyana Enerji və İqlim Forumunda təqdim olunacaq.

Xatırladaq ki, İqtisadi Əməkdaşlıq Təşkilatı Təmiz Enerji Mərkəzi İqtisadi Əməkdaşlıq Təşkilatı və BMT-nin Sənaye İnkişafı Təşkilatı tərəfindən, Dayanıqlı Enerji üzrə Regional Mərkəzlərin Qlobal Şəbəkəsi çərçivəsində yaradılmış regional təşkilatdır. Bakı şəhərində yerləşən İƏT TEM-in əsas missiyası regionda təmiz enerjinin inkişafını təşviq etmək, investisiya layihələrini dəstəkləmək, maliyyə və texniki resursları səfərbər etmək və regional əməkdaşlıq yolu ilə iqlim fəaliyyətini gücləndirməkdir.

2021-ci ildə qurumun nizamnaməsi qəbul edilib və UNIDO tərəfindən ölkəmiz İƏT TEM-ə ev sahibi seçilib. İƏT-in 2025-ci ilin iyul ayında Azərbaycanın Xankəndi şəhərində keçirilmiş Zirvə görüşünün kommunikesində mərkəzin yaradılması prosesinin yekunlaşdırılması alqışlanıb. Ötən ilin dekabr ayında Azərbaycan Respublikası Hökuməti ilə İƏT TEM arasında ev sahibi ölkə sazişi imzalanıb. UNIDO-nun Dayanıqlı Enerji Mərkəzlərinin Qlobal Şəbəkəsinin bir hissəsi olaraq mərkəzin əsas missiyası İƏT regionu üzrə təmiz enerjiyə keçidi və dayanıqlı sənaye inkişafını dəstəkləmək məqsədilə biliklərin, texnologiyaların və regional əməkdaşlığın səfərbər edilməsidir. Ümumilikdə, İƏT TEM-in fəaliyyətə başlaması transformativ və inklüziv enerji həllərinə sadiqliyi nümayiş etdirir. Müasir texnologiyaların inteqrasiyası, regional əməkdaşlığın gücləndirilməsi və beynəlxalq dəstəyin səfərbər edilməsi vasitəsilə bu təşəbbüslər qlobal bərpa olunan enerjiyə keçidin sürətləndirilməsi ilə yanaşı, hamı üçün ədalətli və dayanıqlı nəticələrin təmin olunması potensialına malikdir.

***M.YAQUBZADƏ***
***XQ***

# bp ölkəmizdə “brayl” kitabxanası yaradır

**bp şirkəti Azərbaycanda inklüziv cəmiyyətin təşviqi, inklüziv təhsilin inkişafı və görmə məhdudiyyətli şəxslərin sosial inteqrasiyasının gücləndirilməsinə yönəlmiş sosial təşəbbüsü uğurla başa çatdırıb. Layihənin məqsədi ölkə üzrə 40 mindən çox görmə məhdudiyyətli insanın, o cümlədən təxminən 9 min uşağın mütaliə tələbatını ödəmək üçün brayl əlifbasında nəşr olunmuş Azərbaycan və xarici ədəbiyyat nümunələrindən ibarət müasir kitabxana yaratmaqdır.**

Bu təşəbbüs müasir ədəbiyyat nümunələrini Azərbaycan dilində hazırlayaraq ölkənin mərkəzi kitabxanaları vasitəsilə oxuculara çatdırmaqla yanaşı, brayl əlifbasında dayanıqlı mütaliə vərdişlərinin formalaşmasını dəstəkləyən dəyərli resurs bazasının yaradılması baxımından da çox əhəmiyyətlidir.

Layihə Azərbaycan və dünya ədəbiyyatından 19 seçmə əsərin Brayl əlifbasında nəşrini əhatə edir. Hər bir kitab ölkə üzrə görmə məhdudiyyətli insanların mütaliə ilə bağlı maraq və ehtiyacları nəzərə alınmaqla diqqətlə seçilib. Seçilmiş əsərlərin müəllifləri sırasında İsa Muğanna, Anar, Elçin, Sabir Əhmədli, Mövlud Süleymanlı, Çingiz Hüseynov, Kobo Abe, Henrix Heyne, Oskar Uayld, Əli Kərim, Vaqif Səmədoğlu və bir çox digər görkəmli yazıçı və şairlərin adları var.

Kitabların təqdimatı münasibətilə keçirilmiş tədbirdə çıxış edən bp-nin Xəzər regionu üzrə vitse-prezidenti Bəxtiyar Aslanbəyli deyib: “Biz Azərbaycanda bilik, mədəniyyət və ədəbiyyatı görmə məhdudiyyətli minlərlə insan üçün daha əlçatan etməkdən qürur duyuruq. Ədəbiyyatı brayl əlifbası ilə nəşr edərək daha əlçatan etməklə, hamının ölkənin həm mədəni, həm də təhsil həyatında bərabər iştirakını dəstəkləmək və ana dilimizdə davamlı oxu mədəniyyətinin inkişafına töhfə vermək istəmişik. İnanırıq ki, bu layihə cəmiyyətimizin çoxsaylı həssas bir qrupu üçün faydalı olmaqla yanaşı, dəyərli təcrübənin yayılması baxımından da əhəmiyyətli bir sosial təşəbbüsdür”.




Xatırladaq ki, layihənin reallaşdırılmasına 133 min manat (78 min 235 ABŞ dolları) xərclənib. Bu məbləğə əsərlərin Brayl əlifbasında yığılması, redaktə və korrektəsi, eləcə də kitabların dizayn və səhifələmə işləri, habelə 19 adda nəşrin xüsusi kağızda çapı və cildlənməsi xərcləri daxildir. Hər biri 100 nüsxə olmaqla, 19 adda, ümumilikdə, 1900 kitab nəşr olunub. Layihə “Azərnəşr” tərəfindən həyata keçirilib.

***XQ***

# Enerji keçidi strateji hədəflər sırasında



**“Yaşıl enerji” siyasəti son illərdə ölkənin iqtisadi və ekoloji strategiyasının əsas istiqamətlərindən birinə çevrilib. Qlobal iqlim çağırışları, enerji təhlükəsizliyi və dayanıqlı inkişaf məqsədləri fonunda Azərbaycan bərpa-olunan enerji mənbələrinin genişləndirilməsini prioritet elan edib. Bu çərçivədə külək, günəş və hidroenerji potensialının reallaşdırılması üçün ardıcıl institusional və hüquqi addımlar atılır. Qəbul edilən dövlət proqramları və strategiyalar bərpaolunan enerji layihələrinin təşviqini, özəl sektorun prosesə cəlb olunmasını və xarici investisiyalar üçün əlverişli mühitin yaradılmasını hədəfləyir.**

BMT-nin Azərbaycandakı rezident əlaqələndiricisi vəzifəsini müvəqqəti icra edən İqor Qarafuliç Beynəlxalq Təmiz Enerji Günü münasibətilə təşkil olunan dəyirmi masada çıxışında bildirib ki, Azərbaycan 2035-ci ilə qədər emissiyaların 40 faiz azaldılmasına sadiqdir. Bu, iqlim tədbirlərini sürətləndirmək üçün milli qətiyyətin güclü bir siqnalıdır.

Azərbaycan, həmçinin “SDG7: Əlverişli və Təmiz Enerji” istiqamətində nəzərəçarpacaq irəliləyişlər əldə edir: “BMT-nin Asiya və Sakit okean üçün İqtisadi və Sosial Komissiyasının (UNESCAP) dəstəyilə hökumət bərpaolunan enerjinin genişləndirilməsinə, enerji səmərəliliyinin artırılmasına və Qarabağ və Şərqi Zəngəzur İqtisadi Bölgələrində və Naxçıvanda “yaşıl enerji” zonalarının yaradılmasına yönəlmiş milli SDG7 Yol Xəritəsi hazırlayır. Həmçinin hökumətin bərpaolunan enerjiyə özəl investisiyaların cəlb edilməsinə xüsusi diqqət yetirdiyini görürük. Cənubi Qafqazda ən böyük külək elektrik stansiyası olan “ACWA Power” və “Power China” ilə əməkdaşlıq çərçivəsində hazırlanmış 240 meqavat gücündə külək elektrik stansiyasının bu yaxınlarda açılışı bu öhdəliyin nümunəsidir”.

BMT rəsmisi onu da vurğulayıb ki, 2026-2030-cu illər üçün Davamlı İnkişaf Əməkdaşlıq Çərçivəsi üzrə Birləşmiş Millətlər Təşkilatının Azərbaycandakı nümayəndəliyi hökumətə iddialı “NDC3.0” hədəflərinin həyata keçirilməsində və “SDG7”yə doğru irəliləyişdə CECECO ilə əməkdaşlıq vasitəsilə dəstək verməyə hazırdır.

Qeyd edək ki, bu günlərdə Prezident İlham Əliyev Davosda “Azərbaycan rəhbərliyi ilə səhər yeməyi” adlı tədbirdə ölkənin “yaşıl enerji” strategiyası ilə bağlı fikirlərini bölüşmüşdü. Dövlət başçısı bildirib ki, artıq iki iri bərpaolunan enerji elektrik stansiyasını istismara verilib və növbəti 6 il ərzində günəş və külək enerjisi üzrə istehsal gücü əhəmiyyətli dərəcədə artırılacaq: “Başqa sözlə, 2032-ci ilə qədər Günəş və külək enerjisi üzrə 8 giqavat güc əldə etməyi gözləyirik. Günəş və külək potensialımız çoxdur və biz böyük imkanlar görürük. Biz artıq bir neçə layihə üzrə müqavilələr bağlamışıq və hazırda enerji toplanması qurğuları barədə düşünürük. İlk yer artıq müəyyən edilib”.

Yeri gəlmişkən, bərpaolunan enerjiyə artan maraq fonunda ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində bu sahəyə məqsədyönlü investisiyalar yönəldilir. Azərbaycan təkcə “yaşıl enerji”nin istehsalı ilə kifayətlənmir, eyni zamanda onun beynəlxalq bazarlara ixracını da strateji hədəf kimi müəyyənləşdirir. Bu konteksdə Xəzər-Qara dəniz-Avropa yaşıl dəhlizi xüsusi diqqət çəkir.

Bir məsələnidə vurğulayaq ki, Azərbaycan bərpaolunan enerji sahəsində beynəlxalq əməkdaşlığı genişləndirərək aparıcı xarici şirkətləri ölkəyə cəlb edir. Bu əməkdaşlıqlar həm istehsal güclərinin yaradılmasını, həm də texnologiya, maliyyə və idarəetmə təcrübəsinin transferini əhatə edir. Hazırda əsas tərəfdaşlar BƏƏ-nin “Masdar”, Səudiyyə Ərəbistanının “ACWA Power”, Böyük Britaniyanın BP və Çinin “Power China” şirkətləridir. “Masdar” ölkəmizdə 262 milyon ABŞ dolları dəyərində 230 MVt gücündə Qaradağ Günəş Elektrik Stansiyası inşa edib. Günəş Elektrik Stansiyası Xəzər regionunda və MDB məkanında ən böyük günəş elektrik stansiyasıdır.

Bundan başqa, yaxın günlərdə Səudiyyə Ərəbistanının “ACWA Power” şirkəti tərəfindən inşa edilən 240 MVt gücündə “Xızı-Abşeron” Külək Elektrik Stansiyasının açılışı olub. Şirkətin Azərbaycandakı fəaliyyəti bununla bitmir. Xəzər-Qara dəniz-Avropa marşrutu boyunca "yaşıl enerji"nin ixracı layihəsi çərçivəsində yaradılan Yaşıl Enerji Dəhlizi (GECO, Black Sea Energy) birgə müəssisəsi və "ACWA Power" yaxın aylarda birgə əməkdaşlıq planı hazırlayacaqlar. Sözügedən razılaşma şirkətlərin onlayn görüşü zamanı qəbul edilib. Həmçinin görüş çərçivəsində əməkdaşlığın mümkün perspektiv istiqamətləri müzakirə olunub. Analoji danışıqlar Mərkəzi Asiya-Azərbaycan Transxəzər "yaşıl enerji" kabeli layihəsi çərçivəsində də aparılıb.

Xatırladaq ki, Xəzər–Qara dəniz–Avropa yaşıl dəhlizi layihəsi üzrə birgə müəssisənin yaradılması haqqında Anlaşma Memorandumu 25 iyul 2023-cü il tarixində Gürcüstan, Macarıstan, Rumıniya və Azərbaycan arasında imzalanıb. Layihənin əsas mahiyyəti Azərbaycanın bərpa olunan enerji potensialının – xüsusilə külək və günəş enerjisinin – elektrik enerjisinə çevrilərək Gürcüstan üzərindən Qara dənizin dibi ilə Rumıniyaya çatdırılacaq. Sualtı kabelin uzunluğu 1155 km-dən çox olacaq (1115 km suyun altında və 40 km quruda), gərginliyi 525 kV, gücü isə 1 300 MVt olacaq. Qara dəniz vasitəsilə sualtı elektrik kabelinin tikintisinin 2032-ci ildə başa çatması planlaşdırılır.

Günəş enerjisi sahəsində böyük potensiala malik olan Qazaxıstan və Özbəkistanla əməkdaşlıq çərçivəsində Azərbaycanın təşəbbüsü ilə formalaşan Mərkəzi Asiya–Azərbaycan enerji dəhlizi gələcək perspektivdə Xəzər–Qara dəniz marşrutu ilə əlaqələndirilə bilər. Bu yanaşma Mərkəzi Asiyanın geniş ərazilərinin iki dəniz üzərindən Avropa enerji bazarları ilə birləşdirilməsinə imkan yaradacaq.

Bu kontekstdə, 2025-ci il aprelin 4-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Asiya İnkişaf Bankı (ADB) və Asiya İnfrastruktur İnvestisiya Bankının (AIIB) dəstəyi ilə “Xəzər yaşıl enerji dəhlizi” təşəbbüsünün birinci mərhələsinin icrasına start verilməsi barədə razılıq əldə ediblər.

***Musa BAĞIRLI***
***XQ***

# Şaxtavurmaya sığorta ödənişi

**Son günlər ölkəmizin müxtəlif ərazilərində müşahidə edilən qeyri-sabit, yağıntılı və şaxtalı hava şəraiti digər sahələrlə yanaşı, kənd təsərrüfatına da təsir edir. Bu səbəbdən də Aqrar Sığorta Fondu qeyri-sabit hava şəraitində fermerləri öz əkin sahələrini, xüsusilə də meyvə bağlarını şaxtadan və qar yağmasından sığortalamağa çağırır. Bununla yanaşı, əkinlərini sığortalamış fermerlər öz bağlarındakı vəziyyəti izləməyə və hadisə baş verdikdə bu barədə quruma vaxtında müraciət etməyə dəvət olunur.**

Azərbaycanda dövlət dəstəyi ilə təqdim olunan sərfəli aqrar sığorta mexanizmi əkin sahələrini çoxsaylı risklərdən,



o cümlədən şaxtavurma (donvurma) və normadan artıq qar yağması riskindən də sığortalayır. Bu hadisələr nəticəsində əkin sahəsinə dəymiş zərər Aqrar Sığorta Fondu tərəfindən qarşılanır.

Artıq şaxtavurma riski üzrə fermerlərə ödənişlər də başlayıb və proses sürətlə artmaqdadır. İndiyədək Aqrar Sığorta Fondu tərəfindən şaxtavurma (donvurma) hadisələri üzrə 915 min manat sığorta ödənişi həyata keçirilib. Aqrar sığorta ödənişləri badam, şaftalı, nektarin, limon, naringi, portağal, ərik, gavalı, gilas meyvələri üzrə həyata keçirilib.

Şaxtavurma riskindən sığortaya böyük maraq səbəbindən sığorta ödənişləri də hər il sürətlə artmaqdadır. Belə ki, 2023-cü ildə şaxtavurma (donvurma) riski üzrə cəmi 5 min manat sığorta ödənişi edildiyi halda, 2024-cü ildə Aqrar Sığorta Fondu tərəfindən sığorta ödənişləri 130 min manata, 2025-ci ildə isə 780 min manata yüksəlib.

Xatırladaq ki, hazırda Aqrar Sığorta Fondu 41 bitki növü və bitkiçilik məhsullarını, eləcə də heyvandarlıq və akvakultura (balıqçılıq) təsərrüfatlarını sığorta edir. Fond meyvə bağlarını və məhsulu dolu, fırtına-qasırğa, sel və subasma, normadan artıq qar yağıntaları, doludan keyfiyyət itkisi, şaxtavurma, vəhşi heyvanların hücumu, 3-cü şəxslərin hərəkətləri və sair risklərdən sığorta edir. Sığorta haqqının 50 faizini isə fermerin yerinə dövlət ödəyir.

***XQ***

# Aqrar sahənin xarici əlaqələri: uğurlar, perspektivlər



**Köçəri İMANOV,**
**texniki elmlər üzrə fəlsəfə doktoru**

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev cari ilin yanvar ayının 5-də yerli televiziya kanallarına müsahibəsində ölkə həyatının müxtəlif aspektlərini və perspektiv inkişaf trendlərini dəyərləndirməklə yanaşı, qeyri-neft-qaz sektorunun ümumi daxili məhsulda xüsusi çəkisinin yüksəldiyi də qeyd etmiş və bu artımın daha yüksək olması üçün potensial imkanların mövcudluğunu vurğulamışdır.**

Dünya tarixindən də məlumdur ki, məhz hərtərəfli iqtisadi artım, yəni təbii sərvətlərdən balanslı istifadə yeraltı ehtiyatlarla zəngin olan ölkələrdə böyük rifaha səbəb olmuşdur. Azərbaycanda qeyri-neft-qaz sektoru deyiləndə ilk öncə kənd təsərrüfatı göz önünə gəlir ki, bu da təbiidir. Respublika əhalisinin 45,6 faizi kənd əhalisi, ümumi ərazinin 55 faizi kənd təsərrüfatına yararlı torpaqlar, kənd təsərrüfatı istehsalı üçün yararlı torpaqların isə 43 faizi əkin yerləridir. Bununla yanaşı, aqrar islahatlar başlanan dövrdən, əsasən 2000-ci ildən etibarən dövlət tərəfindən aqrar sektora, xüsusən də kənd təsərrüfatı istehsalına irihəcmli dəstək tədbirləri həyata keçirilmişdir.

Dəstək paketinə aqrar islahatlar aparılmış təsərrüfat subyektlərində qalan borcların silinməsi, vergi güzəştləri, birbaşa subsidiyalar, güzəştli kreditlər, texnika alışında güzəştlər, suvarma infrastrukturunun inkişafı, toxum və gübrə alışında güzəştlər və s. daxildir. Bir sıra ölkələrlə müqayisədə Azərbaycanda dövlət dəstəyi paketinin dəyər ifadəsində hektara nisbəti ən yüksək yerdədir. Bu isə onu göstərir ki, kənd təsərrüfatı sektoru dövlət başçısının iqtisadi siyasətində xüsusi yer tutur və ölkənin gələcək inkişafı üçün sahəyə mühüm önəm verilərək genişmiqyaslı dövlət tədbirləri həyata keçirilir.

Kənd təsərrüfatının inkişafı ilə bağlı dövlət tərəfindən görülən işlər barədə danışılarkən aqrobiznes subyektləri tərəfindən də bu yöndə həyata keçirilməli fəaliyyətlər qeyd edilməlidir. Çünki dövlət tərəfindən göstərilən bütün dəstək tədbirlərinin və həyata keçirilən fəaliyyətlərin səmərəliliyi biznes və təsərrüfat subyektləri tərəfindən nə dərəcədə məqsədyönlü və bazar konyunkturasının tələblərinə adekvat faydalanmasından asılıdır.

Məlum olduğu kimi hər hansı bir sahə üzrə inkişaf dinamaikasını səciyyələndirən əsas amillər arasında ticarət əlaqələri mühüm önəm daşıyır. Ticarət əlaqələri biznesin inkişafının hərəkətverici qüvvəsidir. Beynəlxalq bazarlara çıxış, satış və gəlirlərin artırılması, innovasiyaların stimullaşdırılması, rəqabətlilik və ixtisaslaşma üsulları ilə məhsuldarlığın artırılması və s. bazarlar şəbəkəsindən, ticarət balansından və saldonun dinamikasından asılıdır. Bu baxımdan, əsas kənd təsərrüfatı məhsullarının 2014-2024-cü illər üzrə xarici ticarət dövriyyəsinin dinamikasına nəzər salsaq görərik ki, bu sahədə vəziyyət ölkəmiz üçün məqbul deyildir.

2024-cü ilin yekununa görə, əsas kənd təsərrüfatı məhsulları üzrə ticarət balansı əhəmiyyətli məbləğdə mənfi saldo ilə Azərbaycanın zərərinə olmuşdur. Bu məhsullarının idxal coğrafiyası hər iki yarımkürəni əhatə etməklə geniş və şaxələnmiş bazarlar şəbəkəsindən ibarət olsa da, ixrac coğrafiyası əsasən Rusiya və Türkiyə bazarları ilə məhdudlaşır. Bununla belə, bəzi Avropa, Yaxın Şərq və MDB ölkələrinə də kiçik həcmli çıxış mövcuddur.

Beləliklə, sadə bir sual yaranır – kənd təsərrüfatına göstərilən güclü dövlət dəstəyinə rəğmən, kənd təsərrüfatı məhsulları ilə özünütəminetmə səviyyəsi (xüsusən heyvandarlıq məhsulları və ərzaqlıq buğda) və ticarəti sahəsində hələ də qalan çatışmazlıqların səbəbini nə ilə izah etmək olar? Bu sualın cavabı təsərrüfatların təşkilatı-hüquqi forması, mini təsərrüfatçılığın və pərakəndəliyin geniş yer alması, bazar konyunkturasının yetərincə inkişaf etməməsi, nəhayət əkin sahəsinə nəzərən subsidiyalaşdırma mexanizmi ilə bağlıdır. Odur ki, dövlət dəstəyi paketindən istifadənin səmərəliliyini artırmaq üçün yeni subsidiyalaşdırma mexanizminə keçidə ehtiyac vardır.

Beynəlxalq təcrübə göstərir ki, bazar iqtisadiyyatı şəraitində dövlət dəstəyinin fermerlər üçün daha səmərəli olması üçün subsidiya aşağıdakı fundamental fermer problemlərin həllinə yönəlməlidir: uzunmüddətli problemlər – tələbatın qeyri-elastikliyi; təklif artımına nisbətən tələbat artımının zəifliyi; disparitetlik; resursların əvəzolunmazlığı; qısamüddətli problemlər – qiymətlərin dəyişkənliyi; gəlirlərin qeyri-sabitliyi.

Bu baxımdan dəstək alətləri bazar konyunkturasının inkişafına, fermerlərin rəqabətliyinə və bazar aktivliyinin stimullaşdırılmasına yönəldilməlidir. Buna görə də kənd təsərrüfatında yeni subsidiyalaşdırma mexanizminin tətbiq olunması və bu barədə əhalinin ətraflı məlumatlandırılması üçün təbliğat-təşviqat tədbirlərinə başlanılması təklif olunur.

Yeni subsidiyalaşdırma mexanizmində differensial və məqsədli subsidiya alətləri əsas götürülməlidir. Subsidiyalaşdırma strateji əhəmiyyətli məhsullara (məsələn, buğda, kartof, tərəvəz, yem bitkiləri və s.); bank kreditləri üzrə faiz dərəcələrinə; sığorta ödənişlərinə; innovativ texnologiyalara; aqroservis və mütəxəssis xidmətlərinə; logistika və bazara çıxışa və s. tətbiq olunmalıdır ki, aqrobiznes subyektlərinin bazar aktivliyi stimullaşdırılsın və bazar konyunkturasının inkişafına müsbət təsiri olsun.

Qeyd olunduğu kimi, kənd təsərrüfatı istehsalı və ticarəti sahəsində əsas problemlərdən biri mini təsərrüfatçılığın və pərakəndəliyin geniş yer almasıdır. Bu problemin həll edilməsi üçün subsidiyalaşdırma mexanizmindən istifadə edilməklə resursların konsolidasiyasına nail olmaq mümkündür. Bunun üçün təklif olunan subsidiyalaşdırma qaydalarında təsərrüfat subyektinin hüquqi statusuna və torpaq sahəsinin ölçülərinə xüsusi önəm verilməsi mühüm əhəmiyyət kəsb edir. Odur ki, yeni qaydalarda fermerlərin subsidiya alması üçün mərhələli şəkildə hüquqi şəxs statusu şərti və hektara nəzərən prioritetləşdirmənin tətbiqi vacibdir. Bununla da kənd təsərrüfatında torpaq resurslarının təmərküzləşməsinə və kooperasiyasının genişlənməsinə töhfələr vermək olar.

Müsbət saldolu xarici ticarət münasibətləri milli istehsalı stimullaşdıran əsas amillərdən biridir. Kənd təsərrüfatı məhsullarının ticarəti sahəsində mövcud vəziyyətin Azərbaycanın xeyrinə dəyişdirilməsi üçün Qlobal Ərzaq Təhlükəsizliyi İndeksi nəzərə alınmaqla yeni ixrac konsepsiyası üzərində düşünülməsi, fikrimizcə, yerinə düşərdi və bu məsələnin gündəmə çıxarılmasının artıq vaxtı çatmışdır. Bu konsepsiyaya əsasən GFSI üzrə alıcılıq qabiliyyəti 80 bal üzərində və ərzağın mövcudluğu 70 bal altında olan ölkələrin bazarlarının potensial ixrac bazarları kimi nəzərdən keçirilməsinə üstünlük verilir. İndiki mərhələdə Avropada – Yunanıstan, Rumıniya, İspaniya, Serbiya, Belçika, Danimarka; Yaxın Şərqdə- İordaniya, Küveyt; Asiyada- Malaziya, İndoneziya, Tailand kimi ölkələrin bazarları potensial ixrac bazarları kimi nəzərdən keçirilə bilər.

İxrac bazarlarının demoqrafik göstəricilərə, coğrafi yerləşməyə və adət-ənənəyə (psixoqrafik) əsasən, diversifikasiyası və seqmentləşdirilməsi bir və ya iki bazardan asılılıqdan qurtulmağın ən optimal yoludur. Bununla yanaşı, vacib bir məqama da xüsusi diqqət yetirilməlidir ki, ticarət zəncirinin tamlığının təmin edilməsi üçün bazarın tələbləri əsasında istehsal da mütləq uyğun olaraq seqmentləşməlidir. Yəni “Məhsul üçün bazar deyil, bazar üçün məhsul” prinsipinə söykənən istehsal münasibətlərinin qurulması önəmlidir.

Digər vacib bir məqam bazar iştirakçıları, biznez tərəfdaşları və ticarət münasibətlərinin yaradılması ilə bağlıdır. Hazırda kənd təsərrüfatında mövcud olan pərakəndəlik və mini təsərrüfatçılığın geniş yer aldığı bir dönəmdə bu məsələ aktuallığı ilə daha da qabarıq formada öz təsirini göstərməkdədir. Yəni çoxsaylı xırda istehsalçıların bazara çıxış sahəsində imkanlarının məhdudluğu onların gəlirlilik səviyyəsinin yüksəldilməsinə və rentabelli biznes qurmalarına heç də əlverişli şərait yaratmır. Buna görə də xarici ticarət zənciri üzrə “birləşdirici halqa” rolunu oynaya biləcək Regional Tədarük və Satış Bazalarının yaradılması məsələsinə baxılması məqsədəuyğun olardı.

Quba-Xaçmaz İqtisadi Rayonu üzrə meyvəçilik, Şəki-Zaqatala İqtisadi Rayonu üzrə qərzəkli meyvələr, Lənkəran-Astara İqtisadi Rayonu üzrə tərəvəzçilik sahəsində ixtisaslaşan tədarük-satış bazaları yaradıla bilər. Təbii ki, belə bazar subyektləri özəl əsaslarla “Dövlət–özəl tərəfdaşlığı” investisiya layihələri çərçivəsində ərsəyə gətirilə bilər.

# Sualtı “yaşıl dəhliz” tezliklə gerçəkləşəcək

## *Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizi üzrə nazirlər görüşünün prioritetləri müəyyən edilib*

**Xəzər–Qara dəniz–Avropa Yaşıl Enerji Dəhlizinin iştirakçı ölkələri Bakıda mart ayının əvvəlində keçirilməsi planlaşdırılan nazirlər görüşündən əvvəl həll edilməli olan əsas prioritetləri müəyyənləşdirib. Bununla bağlı müvafiq qərar “Yaşıl Enerji Dəhlizi” birgə müəssisəsinin işçi qrupunun iclasında energetika nazirlərinin müavinləri tərəfindən qəbul ediliblər.**

Toplantıda Qara dəniz kabeli və Mərkəzi Asiya–Azərbaycan Trans-Xəzər yaşıl enerji kabeli layihələri arasında potensial sinerji məsələləri müzakirə edilib.



Görüşün sonunda gələcək fəaliyyətin əsas istiqamətləri və prioritet vəzifələr müəyyən edilib. Qara dəniz enerji dəhlizi üzrə nazirlər görüşü Bakıda Cənub Qaz Dəhlizi Məşvərət Şurası çərçivəsində nazirlərin 12-ci və Yaşıl Enerji Məşvərət Şurası çərçivəsində nazirlərin 4-cü görüşü zamanı keçiriləcək.

2022-ci ildə Buxarestdə Azərbaycan, Gürcüstan, Rumıniya və Macarıstan arasında “yaşıl enerji”nin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında saziş imzalanıb. Bu sənəd Avropaya “yaşıl enerji” dəhlizinin yaradılması yolunda mühüm addım olub. Xəzər–Qara dəniz–Avropa “yaşıl” dəhlizi layihəsi üzrə birgə müəssisənin yaradılması haqqında Anlaşma Memorandumu isə 2023-cü il iyulun 25-də Gürcüstan, Macarıstan, Rumıniya və Azərbaycan arasında imzalanıb.

Xatırladaq ki, Qara dəniz sualtı kabel layihəsi Gürcüstan və Rumıniyanı birbaşa birləşdirəcək və Cənubi Qafqaz və Cənub-Şərqi Avropanın enerji sistemlərini bir-birinə bağlayacaq ən böyük infrastruktur layihəsidir. Sualtı kabelin uzunluğu 1155 kilometrdən çox olacaq (1115 kilometr suyun altında və 40 kilometr quruda), gərginliyi 525 kilovolt, gücü isə 1300 meqavat olacaq. Qara dəniz vasitəsilə sualtı elektrik kabelinin tikintisinin 2032-ci ildə başa çatması planlaşdırılır.

2025-ci il aprelin 4-də Azərbaycan, Qazaxıstan və Özbəkistan Asiya İnkişaf Bankı və Asiya İnfrastruktur İnvestisiya Bankının dəstəyi ilə “Xəzər yaşıl enerji dəhlizi” təşəbbüsünün birinci mərhələsinin başlanması barədə razılığa gəlinib. Tərəflər 3 ölkənin enerji sistemlərinin inteqrasiyasını və Avropaya bərpaolunan enerji tədarükü marşrutunun yaradılmasını nəzərdə tutan layihənin texniki-iqtisadi əsaslandırmasının hazırlanmasına dair əməkdaşlıq sazişi imzalayıblar. Bu təşəbbüs üç ölkənin liderlərinin 2024-cü ilin noyabrında COP29 çərçivəsində imzaladıqları “yaşıl enerji” sahəsində strateji tərəfdaşlıq haqqında sazişin davamı olub.

Bir məqamı da qeyd edək ki, ölkəmizin günəş enerjisi sahəsində böyük potensiala malik olan Qazaxıstan və Özbəkistanla əməkdaşlıq çərçivəsində yaratdığı Mərkəzi Asiya–Azərbaycan enerji dəhlizi gələcəkdə Xəzər–Qara dəniz dəhlizi ilə əlaqələndirilə bilər. Bu isə Mərkəzi Asiyanın böyük regionlarının iki dəniz vasitəsilə Avropa ilə birləşdirilməsini təmin edəcək.

***XQ***

# Azərbaycan Davosda yeni sənaye təşəbbüsünə qoşulub



**Azərbaycan Dünya İqtisadi Forumunun “Sənaye Klasterlərinə Keçid” təşəbbüsünə qoşulub.**

İqtisadiyyat nazirliyindən bildirilib ki, iqtisadiyyatın rəqabətqabiliyyətliliyinin artırılması, sahibkarlıq sahəsində rəqəmsal infrastrukturun genişləndirilməsi və innovasiya əsaslı inkişafın təşviqi məqsədilə qəbul edilən "Azərbaycan Respublikasında rəqəmsal iqtisadiyyatın inkişafına dair 2026–2029-cu illər üçün Strategiya" çərçivəsində işlər davam etdirilir.

Strategiyanın əsas prioritetlərinə uyğun olaraq sənaye klasterlərinin formalaşdırılması, beynəlxalq təşəbbüslərə inteqrasiya və "yaşıl" iqtisadiyyatın inkişafı istiqamətlərinə uyğun olaraq, Azərbaycanın DİF-in "Sənaye Klasterlərinə Keçid" qlobal təşəbbüsünə qoşulmasına dair Niyyət Məktubu imzalanıb.

Sənəd Prezident İlham Əliyevin DİF-in illik toplantısında iştirakı çərçivəsində Azərbaycan iqtisadiyyat nazirinin müavini Anar Axundov və SOCAR-ın prezidenti Rövşən Nəcəf tərəfindən imzalanıb.

Bu çərçivədə İqtisadiyyat Nazirliyinin tabeliyində İqtisadi Zonaların İnkişafı Agentliyi ilə "SOCAR Polymer" və "SOCAR Karbamid" müəssisələri arasında əməkdaşlıq çərçivəsində Sumqayıt Sənaye Parkında formalaşdırılan "NextGen" sənaye klasteri istehsal xərclərinin optimallaşdırılması, rəqabətqabiliyyətli məhsul istehsalı və ixrac potensialının yüksəldilməsini hədəfləyir.

Dünya İqtisadi Forumu tərəfindən 2021-ci ildən həyata keçirilən bu təşəbbüsə indiyədək 19 ölkədən 39 sənaye klasteri qoşulub. Azərbaycan bu təşəbbüsə qoşulan 20-ci ölkədir. Təşəbbüsə qoşulmuş klasterlər 877 milyon ton karbon dioksid ekvivalentinin azaldılmasına imkan yaradır, 508 milyard ABŞ dolları həcmində qlobal ÜDM-ə töhfə verir və 4,6 milyon iş yerini dəstəkləyir. Bu göstəricilər təşəbbüsün qlobal enerji keçidi və sənaye transformasiyasında strateji rolunu nümayiş etdirir.

Qeyd edək ki, Azərbaycanın DİF-in "Sənaye Klasterlərinə Keçid" təşəbbüsünə qoşulması İqtisadiyyat Nazirliyinin tabeliyində Dördüncü Sənaye İnqilabının Təhlili və Koordinasiya Mərkəzinin (4SİM) koordinasiyası ilə həyata keçirilir.

***XQ***

# Bank sektoru sağlamlaşdırılacaq

## *Azərbaycan qlobal reytinq agentliklərinin diqqət mərkəzində*

**"S&P Global Ratings" beynəlxalq reytinq agentliyi Azərbaycan, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan və Özbəkistan banklarının 2026-cı ildə əvvəlki 2 ilin səviyyəsində dayanıqlılıqlarını qoruyacaqlarını gözləyir.**




"S&P Global Ratings"in hesabatında bildirilir ki, bankların gəlirlilik və kapital göstəriciləri mülayim olacaq, lakin yenə də regionda kreditlərin verilməsi yüksək orta artım templəri - 15-20 faiz səviyyəsində, həmçinin aktivlərin dayanıqlılıq keyfiyyəti ilə dəstəklənəcək.

Ümumiyyətlə, son bir neçə ildə Qazaxıstan və Azərbaycanda bank sektorunun tənzimləyiciləri tərəfindən nəzarət tədbirləri əhəmiyyətli dərəcədə güclənib. Qazaxıstan artıq Bazel III standartlarını və risk-əsaslı nəzarəti tətbiq edib, Azərbaycan isə onların tətbiqetmə prosesindədir. Bununla yanaşı, analitiklərin fikrincə, Azərbaycanda iqtisadi artım templəri əsasən karbohidrogen gəlirlərinin azalmasını əks etdirir. Neft hasilatının azalması və qaz hasilatının həcmlərində staqnasiya qeyri-neft sektorundakı mülayim artımı üstələyir.

Hesabatda qeyd olunur ki, bank sektorunun tənzimləyicisi kimi Azərbaycan Mərkəzi Bankı 2024-2026-cı illər üçün Maliyyə Sektorunun İnkişafı Strategiyasını hazırlayıb. Strategiyaya əsasən tənzimləyici risk-əsaslı nəzarətə və MHBS9 (IFRS) standartlarına keçir. Eyni zamanda, 2026-cı ildə Bazel III tələblərinə uyğunlaşdırılması üçün kapital adekvatlığı sisteminin yenidən nəzərdən keçirilməsi, bankların stres testləşməsinin keçirilməsi üçün tələblərin sərtləşdirilməsi, bazar riskləri üzrə yeni tənzimləyici bazanın tətbiqi planlaşdırılır. Bu il, həmçinin bank sektorunun sağlamlaşdırılması mexanizminin inkişafı davam etdiriləcək.

"S&P" qeyd edib ki, 2025-ci ildə agentlik Azərbaycanın BICRA qiymətləndirmələrində sahəvi risk proqnozunu "sabit"dən "müsbət"ə yenidən nəzərdən keçirib. Bu, analitiklərin fikrincə, ölkədə bank tənzimlənməsinin və nəzarətinin güclənməsini əks etdirir.

Agentlik, həmçinin vurğulayıb ki, tarixən Azərbaycanda kreditləşmə dinamikası neft qiymətləri ilə sıx korrelyasiya olub.

"S&P"nin proqnozuna görə, 2026-cı ildə kreditləşmə üzrə artım tempinin 2025-ci ilin səviyyəsinə uyğun olaraq 12 faiz həddində olacaq. Bu, regiondakı (müqayisə edilə bilən ölkələrə nisbətən) ən aşağı iqtisadi artım templəri və neft qiymətlərinin azalması gözləntiləri ilə əlaqədardır. Eyni zamanda, Azərbaycanda özəl sektorun borc səviyyəsi müqayisə edilə bilən ölkələr arasında ən aşağı olaraq qalır. "S&P"nin qiymətləndirməsinə görə, ev təsərrüfatlarının borcunun ÜDM-ə nisbəti 15 faiz, korporativ sektorun borclarının nisbəti isə 11 faiz təşkil edir.

***XQ***

*Sabaha baxış*

# “53 dollarlıq” qlobal enerji ssenarisi

## *Neftin bazar qiymətinin bu səviyyədə idarə edilməsinin Azərbaycan üçün gözləntiləri*

**Son aylarda qlobal enerji bazarlarında müşahidə olunan dalğalanmalar, daha çox geosiyasi münaqişələr, məsələn, Rusiya-Ukrayna müharibəsi, hasilat məhdudiyyətləri, tələb-təklif balansının pozulması, eləcə də keçid dövrü ilə bağlı siyasətin yürüdülməsi səbəbindən neft, qaz və elektrik enerjisi qiymətlərində baş verən kəskin, qeyri-sabit dəyişikliklər daha çox diqqət çəkir. Bu isə neftin iqtisadi ehtiyat olmaqla yanaşı, həm də geosiyasi vasitə kimi mühüm önəmini göstərir.**



ABŞ-dan gələn açıqlamalar fonunda neftin bir barelinin qiymətinin 53 dollara qədər enə biləcəyi ehtimalının bazar iştirakçıları və enerji ixracatçısı olan ölkələr üçün ciddi müzakirə mövzusuna çevrilməsi də bunun bariz ifadəsidir. Ekspertlər tərəfindən hazırda qiymətlərin 58 dollar ətrafında dəyişdiyi bir dövrdə belə bir eniş ehtimalının həm qlobal iqtisadi proseslərə, həm də neftdən yüksək dərəcədə asılı ölkələrin makroiqtisadi planlaşdırmasına birbaşa təsir edə biləcəyi bildirilir.

Azərbaycan üçün neft qiymətləri ixrac gəlirləri olmaqla bərabər, həm də dövlət büdcəsinin icrası, strateji ehtiyatların idarə olunması və uzunmüddətli iqtisadi sabitlik baxımından əsas amillərdən biridir. Buna görə də “53 dollarlıq neft” ssenarisinin hansı riskləri və imkanları yaratdığına daha dərindən diqqət yetirmək zəruridir. İqtisadçı Arif Hüseynovun da vurğuladığı kimi, ABŞ-ın neftin ucuzlaşmasında açıq iqtisadi maraqları var. Çünki enerji daşıyıcılarının qiyməti ABŞ iqtisadiyyatında inflyasiyanın formalaşmasına birbaşa təsir edən əsas məsələlərdən biridir. Belə ki, benzin və enerji xərclərinin ucuzlaşması istehlak qiymətlərinin artım tempini zəiflədir, bu isə ABŞ-ın Federal Ehtiyat Sisteminin monetar siyasəti üçün daha rahat manevr imkanları yaradır.

Digər tərəfdən, ABŞ üçün ucuz neft qlobal miqyasda siyasi və iqtisadi təsir vasitələrindən biridir. Başqa sözlə, neft qiymətlərinin aşağı düşməsi enerji ixracatçısı olan bir sıra ölkələrin, xüsusilə də geosiyasi baxımdan Vaşinqtonla münasibətləri mürəkkəb olan dövlətlərin gəlirlərini azaldır. Bu baxımdan, Yaxın Şərqdə, o cümlədən İran ətrafında davam edən gərginlik, eləcə də qlobal risklər neft bazarında qeyri-müəyyənliyi daha da gücləndirir.

### Qlobal mexanizmlər və Azərbaycan nefti

Respublikamızda istehsal edilən neft keyfiyyət göstəricilərinə görə, beynəlxalq bazarlarda üstün mövqeyə malikdir və adətən, Brent markasına nisbətən 1-2 dollar daha baha satılır. Lakin bu üstünlük ölkəni qlobal qiymət dalğalanmalarından sığortalamır. Dünya bazarında qiymətlər aşağı düşdükdə, Azərbaycan nefti də həmin tendensiyanı izləyir. Çünki qiymətlərin formalaşması müəyyən bir ərazi ilə məhdudlaşmır, bu, qlobal mexanizmlər əsasında baş verir.

Hazırda 2026-cı il üçün neftin qiymətinin 55–65 dollar aralığında olacağı ilə bağlı proqnozlar üstünlük təşkil edir. ABŞ-ın isə bu göstəricini daha aşağı – 53 dollar səviyyəsində görmək istəyi bazarda əlavə psixoloji təzyiq yaradır. Bu, real təklif-tələb balansından daha çox, bazar proqnozlarına təsir etməklə qiymətlərin enişinə zəmin yarada bilər.

Azərbaycanın dövlət büdcəsində neftin baza qiymətinin 65 dollar nəzərdə tutulması hökumətin nisbətən ehtiyatlı dövlət gəlirlərinin və xərclərinin köməyi ilə iqtisadiyyata təsir etmək yanaşmasını göstərir. Qiymətlərin 55-65 dollar aralığında qalması isə rəsmi Bakı üçün riskli ssenari hesab edilmir. Bu aralıqda qiymət dəyişməsi hökumətin həm cari xərcləri qarşılamaq, həm də strateji layihələri maliyyələşdirmək imkanlarını qoruyur. Belə ki, əgər qiymətlər 53 dollar səviyyəsinə qədər enərsə, bu, büdcə gəlirlərində müəyyən azalmaya gətirib çıxarar. Lakin digər mexanizmlər, məsələn, dövlət gəlirlərinin və xərclərinin köməyi ilə iqtisadiyyata təsir edilməsi, eləcə də Neft Fondundan transfertlər qiymət enişlərinin təsirini yumşaltmağa imkan verir. Ekspertlərin fikrincə, məhz bu səbəbə görə, belə bir ssenari böhran şərait yaratmır.

### Manatın məzənnəsi və makroiqtisadi sabitlik

Neft qiymətləri ilə bağlı ən çox müzakirə olunan məsələlərdən biri də milli valyutanın taleyidir. Keçmiş təcrübə göstərir ki, kəskin və uzunmüddətli neft ucuzlaşmaları manat üzərində təzyiq yarada bilər. Lakin hazırkı şərait fərqlidir. Azərbaycanın valyuta ehtiyatları kifayət qədər yüksəkdir və Mərkəzi Bankla hökumətin uzlaşdırılma siyasəti mövcuddur. Ekspertlər də bildirirlər ki, neft qiymətlərində mümkün eniş manatın məzənnəsi üçün real təhlükə yaratmır. Cari ehtiyatlar və sabitləşdirmə mexanizmləri qısamüddətli dalğalanmaları kompensasiya etmək gücündədir. Bu isə bazarlara və əhaliyə mühüm sabitliyin qorunacağı kimi psixoloji mesaj verir.

Bununla belə, 53 dollarlıq neft ssenarisi bir daha xatırladır ki, Azərbaycan iqtisadiyyatı üçün əsas çağırış neftdənkənar sektorun gücləndirilməsidir. Neft qiymətlərinin hər enişi ölkədə investisiyanın müxtəlif qurumlar arasında paylanılması, yeni istehsal sahələrinin yaradılması və ya məhsul çeşidinin genişləndirilməsi prinsipinin nə qədər önəmli olduğunu ortaya qoyur. Başqa sözlə, qeyri-neft ixracının artırılması, sənaye və aqrar sektorun inkişafı, eləcə də rəqəmsal iqtisadiyyatın genişlənməsi uzunmüddətli perspektivdə bu cür riskləri minimuma endirir.

Beləliklə, ABŞ-ın neftin ucuzlaşması ilə bağlı mövqeyi qlobal enerji bazarlarında yeni balans axtarışlarını sürətləndirir. Neftin bir barelinin 53 dollara enməsi Azərbaycan üçün müəyyən psixoloji narahatlıq yaratsa da, mövcud iqtisadi mexanizmlər bu ssenarini idarəolunan edir. Əsas məsələ diqqəti qısamüddətli dalğalanmalardan çox, uzunmüddətli strateji hədəflərə yönəltməkdir. Azərbaycanın qarşısında duran əsas vəzifə isə dəyişkən neft bazarlarından asılılığı tədricən azaltmaq və dayanıqlı iqtisadi model formalaşdırmaqdır.

Ekspertlərin fikrincə, ABŞ üçün ucuz neft, ilk növbədə, daxili iqtisadi sabitlik üçün önəm daşıyır. Çünki enerji daşıyıcılarının ucuzlaşması bu ölkədə istehlak xərclərini azaldır, inflyasiya təzyiqlərini zəiflədir və pul-kredit siyasətində manevr imkanlarını genişləndirir. Bu baxımdan neftin ucuzlaşması Vaşinqton üçün bazar məsələsi olmaqla yanaşı, həm də iqtisadi idarəetmə mexanizmidir.

Yuxarıda vurğulandığı kimi, neft qiymətləri üzərində psixoloji təsir də az rol oynamır. Belə ki, bəzən bazarlar real təklif-tələb balansından daha çox, siyasi mesajlara reaksiya verir. ABŞ-dan gələn açıqlamalar da qiymətlərin enişinə dair gözləntiləri gücləndirir. Bu baxımdan maliyyə eksperti Əkrəm Həsənovun manatın məzənnəsi ətrafında yaranan narahatlıqların daha çox psixoloji xarakter daşıması fikri xüsusilə diqqət çəkir. Onun sözlərinə görə, neft qiyməti, hətta 50 dollar üzərində qərarlaşsa da bu, avtomatik devalvasiya anlamına gəlmir. Çünki hazırda Azərbaycanın valyuta ehtiyatları kifayət qədər yüksəkdir və Mərkəzi Bankın müdaxilə imkanları genişdir. Burada əsas məsələ riskin qısamüddətli deyil, uzunmüddətli enişlərlə bağlı olmasıdır. Belə ki, əgər neft qiymətləri illərlə aşağı səviyyədə qalsa, o zaman struktur problemlər ön plana çıxa bilər. Amma mövcud ssenari belə bir təhlükə yaratmır.

İqtisadçı Vüqar Bayramov hesab edir ki, neftin 53 dollara enməsi Azərbaycan üçün ciddi təhlükə sayılmır, lakin diqqətlə izlənilməsinə zərurət var. Ona görə ki, dövlət büdcəsində neftin baza qiymətinin 65 dollar götürülməsi ehtiyatlı yanaşmanın göstəricisidir. Qiymətlərin müəyyən müddət bu həddən aşağı düşməsi isə büdcə gəlirlərinə təsir göstərə bilər, amma bu, ölkələr arasında iqtisadi sabitlik yaratmaq, maliyyə axınlarını tənzimləmək və ümumi büdcə balansını qorumaq istiqamətində heç bir təhlükə doğurmur. Eyni zamanda, Neft Fondu, büdcə qaydası və ehtiyat mexanizmlər qiymət dalğalanmalarının təsirini yumşaldır. Bu, Azərbaycanın əvvəlki dövrlərlə müqayisədə daha dayanıqlı mövqedə olduğundan xəbər verir.

### Beynəlxalq maliyyə qurumlarının proqnozları

Beynəlxalq Valyuta Fondu (IMF) hesabatlarında qlobal neft bazarında qiymətlərin orta müddətli perspektivdə nisbətən dəyişkən qalacağını proqnozlaşdırır. Fondun qiymətləndirmələrinə görə, enerji bazarlarında geosiyasi risklər, “yaşıl keçid” və tələb-təklifdə qeyri-müəyyənlik qiymətlərin yüksəlişini məhdudlaşdırır.

IMF Azərbaycanın bu şərtlər əsasında önəmli üstünlüyünü güclü fiskal buferlərdə (dövlətlərin iqtisadi böhranlar, neft qiymətlərinin düşməsi və ya gözlənilməz xərclər zamanı maliyyə sabitliyini qorumaq üçün topladığı ehtiyat vəsaitlərin mövcudluğunda), eləcə də aşağı borc səviyyəsində görür. Hesabatlarda qeyd olunur ki, respublikamızın valyuta ehtiyatları və Dövlət Neft Fondu vəsaitləri qısa və orta müddətdə mümkün şokları kompensasiya etmək gücündədir.

Dünya Bankı (DB) isə daha çox struktur məsələlərinə diqqət çəkir. Bankın region üzrə hesabatlarında vurğulanır ki, neft qiymətlərindəki dalğalanmalar Azərbaycan üçün təhlükəli deyil, lakin uzunmüddətli perspektivdə iqtisadi şaxələndirmənin sürətləndirilməsi vacibdir. DB-nin proqnozunda, eyni zamanda, iqtisadiyyatın qeyri-neft sektorunda payının getdikcə artması isə neftin ucuzlaşacağı təqdirdə, respublikamızın mövqeyinə təsir etməyəcəyini bildirilir.

Beləliklə, ABŞ-nin neftin ucuzlaşmasına yönəlik mövqeyi qlobal enerji bazarlarında yeni balans axtarışlarını gücləndirir. Neftin bir barelinin 53 dollara enməsi Azərbaycan üçün müəyyən fiskal və psixoloji risklər yaratsa da, aparıcı iqtisadçıların fikrincə, mövcud iqtisadi və maliyyə mexanizmləri bu ssenarini idarəolunan edir. Əsas çağırış isə qısamüddətli qiymət dalğalanmalarından deyil, uzunmüddətli struktur asılılıqlardan qaynaqlanır. Bu baxımdan neftdənkənar sektorun inkişafı və iqtisadi diversifikasiya strateji prioritet olaraq qalır.

***Vaqif BAYRAMOV***
***XQ***

### *Ekspert rəyi*



**Xalid KƏRİMLİ,**
**iqtisadçı-ekspert**

ABŞ-ın dünya bazarlarında neft qiymətlərinin daha da ucuzlaşması istəyini bəyan etməsi bu gün dünya mediasında geniş müzakirəyə səbəb olub. Vaşinqtondan gələn açıqlamalar fonunda neftin bir barelinin qiymətinin 53 dollara qədər enə biləcəyi ehtimalı gündəmə gəlib. Beynəlxalq maliyyə institutlarının məlumatlarında qiymətlərin 58 dollar səviyyəsində olduğu bir vaxtda belə bir enişin baş verməsi qlobal iqtisadi proseslərə, xüsusilə də enerji ixracatçısı olan ölkələrə birbaşa təsir göstərəcəyi bildirilib. Eyni zamanda, neft gəlirləri Azərbaycan üçün həm büdcə gəlirləri, həm də iqtisadi planlaşdırma baxımından diqqətlə izlənilən məsələ kimi qiymətləndirilib.

Bəs neftin bir barelinin qiymətinin 53 dollara enməsi Azərbaycan iqtisadiyyatı üçün hansı risklər yarada bilər? Bu suala cavab olaraq deyə bilərəm ki, dünya bazarlarında neftin qiymətində baş verən dəyişikliklər birbaşa Azərbaycanın ixrac neftinin dəyərinə də təsir göstərir. Azərbaycan nefti keyfiyyət göstəricilərinə görə bir çox digər neft markalarından üstündür və bu səbəbdən bazarda brend neftdən 1 dollar, bəzən isə 2 dollar baha satılır.

Qlobal bazarlarda neftin qiyməti aşağı düşərsə, bu proses ölkə neftinin qiymətində də öz əksini tapacaq. Dünya bazarında neft ucuzlaşarsa, bizim neft də həmin tendensiya ilə üzləşəcək. Çünki qiymətlər qlobal mexanizmlərlə formalaşır. Hazırda 2026-cı il üçün neftin qiymətinin 55-65 dollar aralığında olacağı ilə bağlı proqnozlar var. ABŞ isə qiymətlərin daha da enərək 53 dollar səviyyəsində olmasını istəyir.

ABŞ-nin neftin ucuzlaşmasında iqtisadi maraqları var. Çünki enerji daşıyıcılarının qiyməti aşağı düşdükdə inflyasiya zəifləyir və bu da ABŞ iqtisadiyyatı üçün müsbət amil hesab olunur. ABŞ da məhz buna nail olmağa çalışır. Eyni zamanda, Yaxın Şərqdə, xüsusilə də İranda mövcud olan gərginlik, geosiyasi risklər və digər qlobal amillər neft bazarına təsir göstərməkdə davam edir.

Neftin qiymətinin 55-65 dollar səviyyəsində qalması Azərbaycan üçün riskli ssenari hesab edilmir. Hökumət bu qiymət aralığına hazırdır. Düzdür, dövlət büdcəsində neftin baza qiyməti 65 dollar olaraq nəzərdə tutulur. Qiymətlərin ciddi şəkildə bundan aşağı düşməsi isə büdcə gəlirlərinə müəyyən təsir göstərə bilər, lakin bu, kritik və ya idarəolunmaz risk sayılmır. Neft qiymətlərində mümkün eniş manatın məzənnəsi üçün də təhlükə yaratmır. Hazırkı şəraitdə manatın məzənnəsi ilə bağlı hər hansı problem gözlənilmir. Valyuta ehtiyatları və fiskal mexanizmlər bu cür dalğalanmaları kompensasiya etməyə imkan verir.

*Qırmızı işıq!*

# Sükan arxasında “TikTok” və həyatla oyun...

## *Yol qəzalarında ölüm hallarının səbəbləri*

**Son illər yol hərəkəti təhlükəsizliyi sahəsində görülən tədbirlər müəyyən müsbət nəticələr versə də, qəza hadisələri hələ də cəmiyyət üçün ciddi təhlükə olaraq qalır. Baş Dövlət Yol Polisi İdarəsinin Hərəkətin təhlükəsizliyinin təbliği şöbəsinin rəisi, polis polkovnik-leytenantı Rövşən Tağıyevin açıqlaması vəziyyətin hələ də ağrılı olduğunu göstərir.**





2025-ci ildə Azərbaycanda 1 252 nəqliyyat hadisəsi qeydə alınıb. Bu qəzalarda 689 nəfər həyatını itirib. Müqayisə üçün qeyd edək ki, 2024-cü ildə 1427 qəza baş vermiş, 764 nəfər dünyasını dəyişmişdi.

Rəqəmlər hadisələrin sayında 12 faiz, insan təlefatında isə 10 faiz azalma olduğunu göstərir. Bu göstəricilər aparılan nəzarət və maarifləndirmə tədbirlərinin müəyyən səmərə verdiyini göstərsə də, problemin tam həll edildiyini deməyə əsas vermir. Yol-nəqliyyat qəzaları niyə azalmır?

Şöbə rəisinin açıqlamasına görə, yol-nəqliyyat hadisələrinin başvermə səbəblərinin böyük əksəriyyəti insan amili ilə bağlıdır. Sürücülərin və piyadaların yol hərəkəti qaydalarına əməl etməməsi, məsuliyyətsiz davranış, özünə həddindən artıq güvən və diqqətsizlik qəzaların əsas səbəbləri sırasında qalır. Xüsusilə sürət həddinin aşılması, təhlükəli ötmə halları və diqqətin yayındırılması ən təhlükəli amillər kimi ön plana çıxır. Məhz bu diqqətsizliyin müasir dövrdə yeni və daha təhlükəli forması sosial şəbəkə asılılığıdır. Daha dəqiq desək, “TikTok” aludəçiliyidir. Bu gün yol qəzalarının bir hissəsi məhz rəqəmsal asılılıq və sükan arxasında diqqətin yayındırılması fonunda baş verir.

Psixoloq Vüsalə Əmiraslanova XQ-yə bildirdi ki, “TikTok” platforması qısa, dinamik və emosional videolar vasitəsilə insan beynində ani həzz mexanizmini işə salır. Onun sözlərinə görə, dopamin ifrazının artması istifadəçidə davamlı olaraq yeni videolar izləmək ehtiyacı yaradır və bu proses tədricən psixoloji asılılığa çevrilir:

– İnsan bir neçə dəqiqəlik fasilədə belə telefonu əlindən qoymaqda çətinlik çəkir. Təəssüf ki, bu vərdiş yüksək diqqət və məsuliyyət tələb edən sürücülük zamanı da davam edir. Bir çox sürücü sükan arxasında olarkən bildiriş səsi eşidən kimi, “bir anlıq baxım”, “iki saniyəlikdir” kimi düşüncələrlə yaranacaq təhlükəyə məhəl qoymur.

Halbuki elmi və praktiki müşahidələr göstərir ki, sürücünün yoldan gözünü cəmi 2–3 saniyə çəkməsi belə ağır nəticələrə səbəb olur. Saatda 60 kilometr sürətlə hərəkət edən avtomobil bu müddətdə 33.3–50 metrdən artıq məsafə qət edir. Bu, sürücünün qarşıdakı təhlükəni görməsi, vəziyyəti dəyərləndirməsi və vaxtında manevr etməsi üçün həyati əhəmiyyət daşıyan vaxtın itirilməsi deməkdir. Yol şəraiti isə daim dəyişkəndir. Qəfil yola çıxan piyada, anidən əyləc edən avtomobil, gözlənilməz maneə və ya hava şəraitinin dəyişməsi sürücüdən saniyələr içində düzgün qərar verməyi tələb edir. Məhz bu anlarda diqqətin telefona yönəlməsi avtomobilin faktiki olaraq nəzarətsiz hərəkət etməsi ilə nəticələnir.

Əslində, saatda 60 kilometr sürət əksər sürücülər üçün aşağı sürət hesab olunsa da, bu zaman avtomobil piyadanı vurduqda, onun ölüm ehtimalı 80 faiz artır. Sürət saatda 50 kilometr olarsa, tələfat riski 60, 40 kilometr olduqda isə 25 faizə düşür.

Məhz bu səbəbdən əksər inkişaf etmiş və yol hərəkətinin təhlükəsizliyi ilə fərqlənən dövlətlərin şəhərlərində əsas küçələrdə sürət məhdudiyyəti saatda 50 kilometr təşkil edir. Təəssüf ki, şəhərimizdə əsas küçələrdə sürət həddi saatda 60, hətta bəzi hissələrdə 80 kilometrdir.

**Nəqliyyat eksperti Ərşad Hüseynov bildirdi ki, sürücünün təhlükəni görməsi ilə reaksiya verməsi arasında keçən vaxt reaksiya müddəti adlanır və bu müddət saniyələrlə ölçülür:**

– Sürücü avtomobil idarə edərkən hər hansı təhlükə ilə qarşılaşdıqda əvvəlcə onu görür, dərk edir, daha sonra isə qərar qəbul edir. Reaksiya müddəti, adətən, 0,75–1,5 saniyə arasında dəyişir. İlk baxışdan bu zaman intervalı çox qısa görünsə də, yüksək sürətlə hərəkət edən avtomobil üçün bu saniyələr həlledicidir. Xüsusilə təhlükəli vəziyyətlərdə həmin müddət ərzində qət edilən məsafə qəza ehtimalını xeyli artırır.

Anlama müddətinin uzunluğu isə sürücünün diqqət səviyyəsindən, yorğunluğundan, stres vəziyyətindən, yol və hava şəraitindən, eləcə də sürücülük təcrübəsindən asılıdır. Yəni yorğun və diqqətsiz sürücülərdə bu müddət daha uzun olur ki, bu da yol-nəqliyyat hadisələrinin baş vermə riskini yüksəldir.

Əminliklə deyə bilərik ki, telefonla mesaj yazmaq, video izləmək və ya “TikTok”-da canlı yayım açmaq reaksiya müddətini 2 dəfəyədək qədər uzadır. Bu zaman sürücünün həm görmə, həm düşünmə, həm də reaksiya bacarıqları zəifləyir. Nəticədə əyləc gec tətbiq olunur, manevr düzgün hesablanmır və qəza riski kəskin şəkildə artır. Araşdırmalar sübut edir ki, sükan arxasında telefonla məşğul olan sürücülərin yol-nəqliyyat hadisəsinə düşmə ehtimalı dəfələrlə çoxdur və bu qəzalar əksər hallarda ağır xəsarətlər və insan tələfatı ilə nəticələnir.

Artıq bu məsuliyyətsizliyin nəticələri real nümunələrlə də təsdiqlənir. Məsələn, sosial şəbəkələrdə yayılan bir motosiklet videosu geniş müzakirələrə səbəb olub. Videoda paytaxt yollarında hərəkət edən motosikletçinin kəsişmədə “Mercedes” markalı avtomobillə toqquşması əks olunub. Kadrları diqqətlə izlədikdə aydın olur ki, sürücü sükan arxasında sosial medianı izləyirmiş. Kaskına taxılmış kameranın səsi, mesaj gələn zaman səsin kəsilməsi və toqquşma anında səslərin üst-üstə düşməsi göstərir ki, sürücünün diqqəti yola deyil, telefona yönəlib. Yolayrıcında sağdan gələn nəqliyyat vasitələrinə yol verməməsi isə ikinci ciddi qayda pozuntusu kimi diqqət çəkir. Buna baxmayaraq, sürücünün özünü haqlı çıxarmağa çalışması məsuliyyətsizliyin nə qədər dərin olduğunu açıq şəkildə göstərir.

Digər bir nümunədə, paytaxtın Nizami rayonu ərazisində sürücülük hüququ olmadan avtoxuliqanlıq edərək bu hərəkətləri “TikTok”da paylaşan Tural İbrahimov diqqət çəkir. Sürücülük hüququ olmayan bu şəxs təkcə yol hərəkəti qaydalarını kobud şəkildə pozmayıb, həm də ictimai asayişi nümayişkaranə şəkildə pozaraq digər insanların həyatını təhlükəyə atıb. Sürücü barəsində inzibati qaydada protokol tərtib olunaraq baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə göndərilib. Məhkəmənin qərarı ilə T.İbrahimovun sürücülük hüququ 1 il müddətində məhdudlaşdırılmaqla o, 20 sutka inzibati qaydada həbs edilib.

Bütün bu faktlar göstərir ki, sükan arxasında “TikTok” istifadə etmək artıq tək-tək hallardan çıxaraq təhlükəli tendensiyaya çevrilib. Yol qəzalarının böyük hissəsi məhz bu cür məsuliyyətsiz davranışların nəticəsində baş verir. Sürücülər anlamalıdır ki, sosial şəbəkədə bir neçə “layk”, bir video və ya izləyici heç vaxt insan həyatından üstün ola bilməz. Sükan arxasında telefon, xüsusilə də “TikTok”, sadəcə diqqəti yayındıran vasitə deyil, potensial faciə mənbəyidir.

Bu təhlükəli davranışın arxasında bir sıra sosial və psixoloji amillər dayanır: – Ani populyarlıq və diqqət çəkmək istəyi, “trendə düşmək” arzusu, adrenalin və risk hissi xüsusilə gənc sürücüləri təhlükəli hərəkətlərə sövq edir. Həm də insanların bəziləri “TikTok”u qlobal səviyyədə qazanc mənbəyi görür. Bu səbəblərdən də bəzi sürücülər üçün real təhlükə arxa plana keçir, virtual aləmdə görünmək isə əsas məqsədə çevrilir. Halbuki bu görüntülərin arxasında dağılan ailələr, yarımçıq qalan talelər və geri dönməyən insan həyatları dayanır. Qaydaların nəticəsini yüngül qiymətləndirmək, “bir şey olmaz” düşüncəsi ilə məsuliyyəti üzərindən atmaq cəhdi isə bu faciələrin əsas səbəblərindən biridir.

Hər bir sürücü anlamalıdır ki, avtomobili idarə edərkən yolun hər metri, hər nişanı və hər manevri insan həyatını qorumağa xidmət edir. Diqqət həyat qurtarır, məsuliyyət isə yalnız şəxsi seçim deyil, ictimai dəyərdir. Bu dəyəri qorumaq isə hər birimizin borcudur.

Onu da qeyd edək ki, sürücülərin sükan arxasında telefondan istifadə etməsi qanunvericiliyə əsasən qadağandır və aidiyyəti dövlət qurumu tərəfindən bu kimi hallarla bağlı inzibati tədbirlər görülür. Sözügedən hal üçün Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsi ilə cərimə müəyyən olunub. Məcəllənin 342.6-cı maddəsinə əsasən nəqliyyat vasitəsinin hərəkəti zamanı telefonu əldə saxlamaqla ondan istifadə etməsinə görə sürücü 50 manat məbləğində cərimə edilir.

***P.ƏFƏNDİ***
***XQ***

# Vicdanlı əmək layiqli qiymətini alır

## *Əmək Məcəlləsinə edilmiş dəyişikliklər dövlətin humanist siyasətini əks etdirir*

**“Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin həyata keçirdiyi genişmiqyaslı sosial islahatların mərkəzində layiqli əməyin təmin edilməsi, əmək hüquqlarının etibarlı qorunması və əmək münasibətlərində şəffaflığın artırılması dayanır”. Bu fikirləri Dövlət Əmək Müfəttişliyi Xidmətinin keçirdiyi mətbuat konfransında qurumun rəisi Vəli Quliyev “Dövlət Əmək Müfəttişliyi Xidmətinin 2025-ci il üzrə gördüyü işlər və 2026-cı il üçün hədəfləri” mövzusuna həsr olunmuş mətbuat konfransında deyib.**




Qeyd edilib ki, 16 yanvar 2026-cı ildə dövlət başçısı tərəfindən əmək münasibətləri ilə bağlı qanunvericilikdə dəyişikliklər təsdiqlənib. Qəbul edilən dəyişikliklər əmək qanunvericiliyinin təkmilləşdirilməsinə, daha çevik və sosialyönlü tənzimləmə mexanizmlərinin tətbiqinə, eləcə də işçi hüquqlarının qorunmasının gücləndirilməsinə xidmət edir.

Bildirilib ki, 2025-ci il Dövlət Əmək Müfəttişliyi Xidməti üçün institusional inkişaf və əmək münasibətlərinin rəqəmsallaşdırılması baxımından mühüm mərhələ olub. İl ərzində vətəndaşlardan daxil olmuş 21 min 897 müraciət araşdırılıb, dövlət və özəl sektordan daxil olan 21 min 675 sorğu cavablandırılıb. Aparılan araşdırmalar nəticəsində 6 min 897 halda əmək qanunvericiliyinin pozulması aşkar edilib. Görülmüş tədbirlər nəticəsində vətəndaşlara 842 min manatdan çox gecikdirilmiş əməkhaqqı və digər ödənişlərin verilməsi təmin olunub, 89 işçi əvvəlki iş yerlərinə bərpa edilib.

Əmək münasibətlərinin elektronlaşdırılması istiqamətində mühüm irəliləyişlərin əldə edildiyi vurğulanaraq bildirilib ki, elektron əmək müqavilələrinin payı 96,23 faizə çatıb və 2025-ci ilin sonuna onların sayı 1,8 milyonu ötüb. Əmək və Məşğulluq Alt Sistemi platformasında tətbiq edilən yeni funksionallıqlar, eləcə də 2025-ci ilin may ayından elektron audit mexanizminin istifadəyə verilməsi nəzarətin və şəffaflığın daha da gücləndirilməsinə imkan yaradıb.

2025-ci ilin may ayından elektron auditin tətbiqinə başlanılıb. Bu, bizə imkan yaradır ki, işçilərini istehsalatda bədbəxt hadisələrdən və peşə xəstəliklərindən icbari sığorta etdirməyən, minimum əməkhaqqı məbləğindən aşağı məbləğdə əməkhaqqı ödəyən işəgötürənləri sistem üzərindən müəyyən edək, onlar barəsində inzibati məsuliyyət tədbirləri görək.

Xidmət rəisi vurğulayıb ki, Azərbaycan Respublikasının Əmək Məcəlləsinə 16 yanvar 2026-cı il tarixindən etibarən bir sıra mühüm dəyişikliklər edilmişdir. Bu dəyişikliklər əmək münasibətlərinin tənzimlənməsində anlayışların dəqiqləşdirilməsini, müasir iş formalarının hüquqi əsaslarının yaradılmasını və işçilərin sosial müdafiəsinin gücləndirilməsini hədəfləyir.

Bəzi dəyişiklikləri diqqətə çatdıran V.Quliyev bildirdi ki, Əmək Məcəlləsinə edilmiş dəyişikliklərdən biri uşağın doğulması ilə əlaqədar atalara ödənişli atalıq məzuniyyəti hüququnun təsbit edilməsidir. Bildiyiniz kimi, bu anlayış Əmək Məcəlləsində mövcud idi, sadəcə, ödənişli deyildi. Yeni tənzimləməyə əsasən, uşağın doğulması ilə bağlı tibb müəssisəsinin arayışı təqdim edildiyi halda, atalara doğuşdan əvvəl və doğuşdan sonrakı dövrü əhatə etməklə cəmi 14 təqvim günü müddətində ödənişli məzuniyyət verilir.

Əmək Məcəlləsində edilən dəyişikliklərin ən vaciblərindən biri isə saatlıq əməkhaqqı anlayışının tətbiqidir. Xüsusilə qeyri-iş günlərində və əlavə saatlarda çalışan işçilər üçün yeni qaydalar nəzərdə tutulub. Artıq bayram və qeyri-iş günlərində çalışan vətəndaşlara, ən azı, ikiqat əməkhaqqı ödəniləcək. Əgər işçi həmin gün bütün günü deyil, yalnız bir neçə saat işləyibsə, ödəniş məhz həmin saatlara uyğun hesablanacaq.

Əmək Məcəlləsinə edilən yeniliklərdən biri də 46 günlük əmək məzuniyyətidir. 46 günlük əmək məzuniyyəti anlayışı tamamilə yeni deyil və Əmək Məcəlləsinin 120-ci maddəsində bu barədə maddə nəzərdə tutulub. Lakin Əmək Məcəlləsinə edilmiş son dəyişikliklərə əsasən, azı 46 təqvim günü əmək məzuniyyəti hüququ olan işçilərin dairəsi genişləndirilib. Yeni tənzimləməyə əsasən, bu məzuniyyətdən istifadə hüququ olan şəxslərin siyahısına əlavə kateqoriyalar daxil edilib:

– Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi zamanı, habelə 20 Yanvar hadisələri, hərbi xidmət vəzifələrinin icrası və ya Çernobıl AES-də xidmətlə bağlı səbəblər nəticəsində əlilliyi müəyyən edilmiş işçilər; Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan döyüş əməliyyatlarında iştirak etdiyinə görə “Müharibə veteranı” adı almış işçilər; Döyüş əməliyyatları aparılan ölkələrdə hərbi xidmət borcunu yerinə yetirmiş və sonradan əmək fəaliyyətinə cəlb olunmuş şəxslər; Azərbaycan Respublikasının ən yüksək dövlət təltiflərinə layiq görülmüş işçilər. Dəyişikliklərdən biri də hərbi xidmətə çağırılana ödəniləcək müavinətlə bağlıdır.

Əmək Məcəlləsinə edilən bu dəyişiklik sosial baxımdan müsbət qiymətləndirilə bilər. Hərbi və ya alternativ xidmətə çağırılan işçi faktiki olaraq əmək bazarından müvəqqəti kənarlaşır və bu müddətdə onun gəlir imkanları ciddi şəkildə məhdudlaşırdı. Orta aylıq əməkhaqqının azı 3 misli miqdarında müavinətin müəyyən edilməsi həmin dövr üçün işçinin və ailəsinin maliyyə yükünü qismən də olsa yüngülləşdirir. Bu dəyişiklik dövlətin hərbi xidmətə gedən vətəndaşın sosial təminatına daha məsuliyyətli yanaşmasının göstəricisi kimi qəbul edilməlidi.

Qeyd olunan dəyişikliklər sosial ədalətin təmin edilməsinə, xüsusilə dövlət və xalq qarşısında xüsusi xidmətləri olan şəxslərin əmək hüquqlarının daha güclü şəkildə qorunmasına xidmət edir.

Yeni dəyişikliklərdən biri işçilər tərəfindən əmək funksiyasının elektron, proqram-texniki və s. vasitələrlə distant iş formasında yerinə yetirilməsinin hüquqi əsasının yaradılmasına xidmət edir. Bu məqsədlə Məcəlləyə "Məsafədən (distant) iş" anlayışı da daxil edilib. Distant işlə bağlı əmək şəraitinin əlavə şərtləri tərəflərin qarşılıqlı razılığı əsasında əmək müqaviləsi ilə müəyyən olunacaq. Bu çərçivədə distant işin hüquqi əsasları müəyyən edilib, ailə vəzifələri olan, hamilə və valideyn işçilər üçün əlavə təminat və məzuniyyətlər genişləndirilib, əmək müqaviləsinə xitam və ödəniş mexanizmləri daha ədalətli şəkildə tənzimlənib, əməyin mühafizəsi və təhlükəsizliyi üzrə tələblər gücləndirilib, eləcə də beynəlxalq standartlara uyğun yeni anlayış və yanaşmalar qanunvericiliyə daxil edilib.

Xidmət rəisi sonda bildirib ki, 2026-cı il üçün əsas hədəfimiz fəaliyyətimizi daha çox preventiv nəzarət və proaktiv yanaşma üzərində qurmaqdır. Bu baxımdan, əmək hüquqlarının pozulmasının qarşısının alınması, şikayətlərin sayının azalması, məsələlərin mümkün qədər səmərəli həlli diqqət mərkəzində olacaq.

Digər mühüm hədəf əmək münasibətlərinin tənzimlənməsi və bu sahəyə nəzarətin mərhələli şəkildə rəqəmsallaşdırılmasıdır. Bu çərçivədə kadr kargüzarlığının tam elektronlaşdırılması, risk əsaslı və preventiv nəzarət modellərinin tətbiqi, qeyri-formal məşğulluğa nəzarət üzrə vahid elektron mexanizmlərin formalaşdırılması nəzərdə tutulur.

***Mustafa KAMAL***
***XQ***

**Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin beynəlxalq əlaqələr sistemində inamlı addımlar atılır, dövlət müstəqilliyinin davamlılığı gerçəkləşdirilir, sosial-iqtisadi məsələlərin həlli uğurla davam etdirilir, genişmiqyaslı iqtisadi islahatlar həyata keçirilir. Ümummilli lider Heydər Əliyevin uzaqgörən, səmərəli və məqsədyönlü siyasəti daha da genişləndirilərək diqqət mərkəzində saxlanılır və respublikamızın geoiqtisadi və geosiyasi uğurlarını şərtləndirən iqtisadi siyasət yürüdülür.**

# Ölkəmiz su qıtlığı yaşamayacaq

## *Yeni Dövlət Proqramı, ilk növbədə, Bakı və Abşeronun su problemini aradan qaldıracaq*

Azərbaycan liderinin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi əsas inkişaf istiqamətləri sülh, sosial rifah və strateji hədəflər ölkənin 2026-2035-ci illəri əhatə edən yeni inkişaf mərhələsinin ideoloji və praktiki çərçivəsini formalaşdırır. Bu çərçivə təkcə siyasi və iqtisadi prioritetləri deyil, eyni zamanda, həyat keyfiyyətinin əsas göstəricilərindən biri olan su təhlükəsizliyini dövlət siyasətinin mərkəzinə gətirir.

Məhz bu baxımdan, Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramı da yeni dövrün strateji məntiqini aydın şəkildə ortaya qoyur. Bu proqram yalnız mühəndis-texniki layihə deyil, eyni zamanda, milli təhlükəsizlik, sosial rifah və uzunmüddətli dayanıqlılıq baxımından kompleks dövlət baxışının tərkib hissəsidir.

Azərbaycanın son 20 ildə həyata keçirdiyi ardıcıl və sistemli su layihələri göstərir ki, vaxtında atılan addımlar gələcək böhranların qarşısını ala bilər. Əgər bu infrastruktur qurulmasaydı, bu gün su təhlükəsizliyi ölkə üçün ciddi problemlər yarada bilərdi.

Azərbaycanda əhali, sənaye və kənd təsərrüfatının dayanıqlı su ilə təmin olunması, su mənbələrinin qorunması, su anbarlarının potensialının artırılması, bu sahədə dəqiq uçotun hazırlanması və mövsümi suların toplanaraq ilboyu səmərəli istifadəsinə prioritet istiqamətlər kimi yanaşılır. Bu yanaşma suya təkcə resurs kimi deyil, həm də strateji sərvət kimi baxıldığını göstərir.

Azad edilmiş ərazilərdə su layihələri respublikamızın gələcək inkişaf modelinin mühüm dayağıdır. Bu layihələr sübut edir ki, su təhlükəsizliyi olmadan nə sosial rifahdan, nə iqtisadi dayanıqlılıqdan, nə də milli təhlükəsizlikdən danışmaq mümkündür. Azərbaycan dövləti bu həqiqəti yüksək dəyərləndirərək ona prioritet istiqamət kimi diqqət yetirir.



Sülh və su təhlükəsizliyi strateji sabitliyin əsas dayağıdır. Sülh anlayışı ənənəvi olaraq hərbi-siyasi müstəvidə dəyərləndirilsə də, müasir dövrdə onun sosial və ekoloji ölçüləri xüsusi önəm daşıyır. Regionda sülh transsərhəd su ehtiyatlarının təhlükəsizliyinin gerçəkləşdirilməsi, əhalinin ədalətli, fasiləsiz və təhlükəsiz su ilə təminatı deməkdir. Bu, eyni zamanda, beynəlxalq təhlükəsizliyin və daxili sosial sabitliyin əsas şərtlərindən biridir. Qlobal təcrübə də urbanizasiya, iqlim dəyişmələri və resurs çatışmazlığı fonunda su problemlərinin sosial narazılıqlar və risklər yarada biləcəyini göstərir.

Azərbaycanın son illərdə həyata keçirdiyi su siyasəti təkcə infrastrukturun bərpasını deyil, həm də milli təhlükəsizliyin, sosial rifahın və strateji müstəqilliyin möhkəmləndirilməsini şərtləndirib. Son 5 ildə işğaldan azad edilmiş ərazilərdə icra olunan içməli su və suvarma layihələri bu baxımdan yeni dövlət yanaşmasının ən parlaq nümunələrindən biri kimi diqqət çəkib. Qəsbkarlıq dövründə Ermənistan tərəfindən məqsədli şəkildə dağıdılmış, yararsız hala salınmış su təsərrüfatı obyektləri genişmiqyaslı ekoloji problemlər yaratmaqla yanaşı, həm də humanitar fəlakətə gətirib çıxarıb.

Düşmən uzun illər ərzində su anbarlarını siyasi və hərbi vasitəyə çevirib, sudan təzyiq vasitəsi kimi istifadə edib. “Sərsəng” və “Suqovuşan” su anbarlarının fəaliyyəti üzərində nəzarətin itirilməsi Azərbaycan üçün real təhlükələr yaradıb, suyun vaxtlı-vaxtsız kəsilməsi və ya nizamsız buraxılması nəticəsində kənd təsərrüfatı ciddi zərər görüb, daşqınlar baş verib.

Bu gün isə mənzərə tamamilə fərqlidir. Azad edilmiş ərazilərdə su təsərrüfatı sıfırdan qurulur, dağıdılmış sistemlər bərpa edilərək müasir standartlara uyğunlaşdırılır. Sərsəng və Suqovuşan su anbarlarının tam yenidən qurulması yalnız texniki nailiyyət deyil, həm də su üzərində suverenliyin bərpasının rəmzidir. Füzulidə Kondələnçay üzərində 3 su anbarının, Ağdamda Xaçınçay, Laçın rayonunda isə artıq istismara verilmiş Zabuxçay su anbarının yenidən qurulması regionun iqtisadi və sosial dirçəlişinin əsas sütunlarını təşkil edir. Həkəriçay və Bərgüşadçay su anbarlarının tikintisi üzrə hazırlıq işlərinin aparılması gələcəyə hesablanmış strateji baxışın göstəricisidir.

Su mənbələri hər bir dövlət üçün həyati əhəmiyyət daşıyır. Azərbaycanın su ehtiyatlarının, təqribən, dörddəbirinin məhz vaxtilə işğal altında olmuş ərazilərdə formalaşması bu bölgələrin azad edilməsinin strateji əhəmiyyətini bir daha təsdiqləyir. Üstəlik, bu mənbələrin əsas üstünlüyü ondan ibarətdir ki, onlar birbaşa Azərbaycan ərazisində formalaşır və ölkənin xarici su asılılığını əhəmiyyətli dərəcədə azaldır. Halbuki Kür, Araz və Samur kimi əsas su arteriyalarının mənbələri xarici ölkələrdə yerləşir və bu amil su təhlükəsizliyini daha həssas edir.

Qlobal iqlim dəyişmələri fonunda su resursları artıq strateji risk kateqoriyasına daxil olur. Bir çox ölkələr bu gün su qıtlığının, quraqlığın və ekoloji balansın pozulmasının real fəsadları ilə üz-üzədir.

Qeyd edək ki, su resursları ilə çox az təmin olunan Bakı və Abşeron yarımadası respublikanın ən sıx məskunlaşan və iqtisadi cəhətdən ən fəal regionudur. Burada su təchizatının dayanıqlılığı yalnız kommunal məsələ deyil, eyni zamanda, ictimai təhlükəsizlik və sülhün qorunması baxımından strateji istiqamətdir. Yeni Dövlət Proqramı bu reallığı nəzərə alaraq su sistemlərinin modernləşdirilməsini önləyici təhlükəsizlik mexanizmi kimi təqdim edir.

Bakı şəhəri və Abşeron yarımadasının içməli su təchizatı uzun illərdir ki, ölkənin ən həssas infrastruktur problemlərindən biridir. Sözügedən istiqamətdə müəyyən tədbirlər görülsə də, mövcud çağırışların miqyası hazırda bu sahədə uzunmüddətli dövlət həllini zəruri edir. Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair Dövlət Proqramının həyata vəsiqə alması da məhz bunun bariz ifadəsidir.

Hazırlanan proqramın əsas strateji məqsədi Bakı və Abşeron yarımadasının dayanıqlı və fasiləsiz içməli su ilə təmin olunmasıdır. Sənədin icra müddətinin 2035-ci ilə qədər müəyyənləşdirilməsi onun miqyasını, mərhələli xarakterini və uzunmüddətli planlaşdırma məntiqini aydın şəkildə nümayiş etdirir. Bu yanaşma su təhlükəsizliyinin qısamüddətli deyil, gələcək onillikləri əhatə edən strateji məsələ kimi qiymətləndirildiyini göstərir.

Prezident İlham Əliyev Bakı şəhəri və Abşeron yarımadasında su təchizatı, tullantı və yağış suları sistemlərinin təkmilləşdirilməsinə dair 2026-2035-ci illər üzrə Dövlət Proqramına həsr olunan müşavirədəki çıxışında bildirdiyi kimi, su layihələrinin maliyyələşdirilməsi üçün zəruri resurslar əvvəlcədən müəyyən edilib. Layihələrin icrasının həm dövlət büdcəsi, həm də xarici kreditlər hesabına gerçəkləşdiriləcəyi nəzərdə tutulub. Son illərdə həyata keçirilmiş fiskal və institusional islahatlar nəticəsində Azərbaycanın xarici borc yükü əhəmiyyətli dərəcədə azalıb, xarici borcun Ümumi Daxili Məhsula nisbəti 6 faizdən bir qədər çox səviyyəyə yüksəlib. Bu göstərici ilə ölkənin maliyyə dayanıqlılığı və etibarlığı beynəlxalq müqayisədə təsdiqlənib.

Beləliklə, ölkə rəhbərinin vurğuladığı kimi, Dövlət proqramlarının mərkəzində insan amili dayanır. Bakı və Abşeronda su və kanalizasiya sistemlərinin təkmilləşdirilməsi, ilk növbədə, əhalinin sağlamlığının qorunmasına, ekoloji mühitin yaxşılaşdırılmasına xidmət edir. Xüsusilə yağış suları sistemlərinin yenidən qurulması şəhərsalma və sosial rifah arasında birbaşa əlaqəni gücləndirir. Bu, təkcə infrastruktur layihəsi deyil, şəhər sakinlərinin gündəlik təhlükəsizliyinə və rahatlığına yönəlmiş sosial investisiyadır.

***Elşan ƏHMƏDOV,***
***Dövlət İdarəçilik Akademiyasının dosenti***

*Redaksiyaya məktub*

# Gəncə daha abad, gözəl olmalıdır

**Bu günlərdə “Xalq qəzeti”nin ünvanına bir qrup Gəncə sakini tərəfindən məktub daxil olub. Məktubu şəhərin mərkəzində yerləşən Heydər Əliyev prospekti, 149 saylı binanın 30-dan artıq sakini imzalayıb.**



Müraciətdə deyilir: “Sizi Azərbaycanın ikinci böyük və tarixi şəhəri, dahi Nizaminin yurdu Gəncədən narahat edirik. Fərəhlə qeyd edirik ki, bu gün Qarabağın fatehi, Müzəffər Ali Baş Komandan, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident xanım Mehriban Əliyevanın diqqət və qayğısı sayəsində şəhərimizin siması tamamilə dəyişib. Şəhər müasirliklə qədimliyin vəhdətində daha mükəmməl təsir bağışlayır. MDB Oyunları ərəfəsində aparılan genişmiqyaslı tikinti-quruculuq işləri isə şəhərimizə yeni nəfəs gətirib. Qədirbilən gəncəlilər adından şəhərimizə göstərilən diqqət və qayğıya görə ölkə başçısına dərin təşəkkürümüzü bildiririk. Bununla belə, Gəncədə hələ görüləcək işlər də az deyil”.

Qeyd edək ki, redaksiyaya daxil olmuş məktubu imzalayan 30-dan artıq sakini narahat edən əsas məsələ yaşadıqları Heydər Əliyev prospekti 149 saylı binanın həyətində hökm sürən baxımsızlıq, kortəbii küçə alveri, şəhərsalma və memarlıq qaydalarına zidd şəkildə tikilmiş qeyri-yaşayış obyektləridir.

**Məktubda daha sonra bildirilir:**

“2007–2008-ci illərdə Heydər Əliyev prospekti 149 saylı binanın həyətində mövcud olan irili-xırdalı 80-dən artıq çinar ağacının kəsilməsi və ərazinin “Gülüstan MTK” şirkətinə verilməsi o dövrün Gəncə rəhbərliyi tərəfindən şəhərsalma və memarlıq qaydalarını kobud şəkildə pozan, tamamilə yanlış qərar idi. Bu qərarın qəbulu yüzlərlə ailəni onlara məxsus yaşıllıq sahəsindən, istirahət zonasından və uşaqlar üçün yaradılmış idman meydançasından məhrum etdi.

Bu gün də şəhərin tam mərkəzində yerləşən binanın daxili fasadı, blokları və həyət hissəsi eybəcər, baxımsız vəziyyətdədir. Həyət ərazisi ətrafda fəaliyyət göstərən obyekt sahiblərinin kortəbii dayanacaq yerinə çevrilib, küçə ticarəti baş alıb gedir. Kiçikyaşlı sakinlər üçün əyləncə, ağsaqqallar və təqaüdçülər üçün isə istirahət imkanları yaradılmayıb.

Üstəlik, fövqəladə hallarda yanğınsöndürənlərin və təcili tibbi yardım maşınlarının binanın həyətinə girişi xeyli çətinləşib. Ərazi həddindən artıq yüklənib. “Gülüstan MTK” şirkətinə məxsus ticarət obyektlərinə mal daşıyan yük avtomobillərinin fasiləsiz gediş-gəlişi isə sakinlərin gündəlik həyatını dözülməz hala salıb”.

Müraciətdən göründüyü kimi, Gəncənin tam mərkəzində yerləşən bu binaya sahib çıxan, insanların yaşayış şəraitinin yaxşılaşdırılması istiqamətində tədbirlər görən və müvafiq addımlar atan yerli qurumlardan hələlik səs çıxmır.

30 imza – 30 ailənin harayı deməkdir. Bu harayı diqqətsiz qoymaq, insan taleyinə laqeyd münasibət göstərmək yolverilməzdir. Gəncə Azərbaycan Xalq Cümhuriyyətinin ilk paytaxtı, dahi Nizaminin yurdu, zamanın yaddaşında yaşayan, minilliklərin sınağından çıxmış qədim şəhərdir. Eyni zamanda, mədəniyyətin, dövlətçiliyin və mənəviyyatın mühüm mərkəzidir. Müasir Gəncə bu tarixi irsi qorumaqla yanaşı, sürətlə inkişaf edən, abadlaşan, elmə və mədəniyyətə açıq bir şəhər olmalıdır.

***XQ***

# Ağbaba elinin Təpəköy ağsaqqalı Usub Hacıbalaoğlu

## *Zəmanənin topa tutduğu başıbəlalı bir nəslin həyat hekayəti*

**Bu qeydlər Qərbi Azərbaycanın Amasiya rayonunundakı Təpəköy kəndində dünyaya gəlmiş filologiya elmlər doktoru, Sumqayıt Dövlət Universitetinin professoru Aslan Bayramovun təşəbbüsündən sonra qələmə alındı. Alim zəng vurub bildirdi ki, doğma yurda həsr olunmuş tarixi-xatirə toplusunu yekunlaşdırır. Bura yaxın keçmişdə kənd ağsaqqalı olmuş Usub baba haqqında yazı da daxil etmək istəyir. Aslan müəllim həmin yazını mənim hazırlamağımı xahiş edirdi.**

Elm adamının bu xoş məramı məni qəlbən sevindirdi. Təklif etdim ki, Usub baba haqqında yığcam məlumat onun haqqında dolğun təsəvvür yaratmaz. Yaxşı olar ki, Ağbabanın bu ulu şəxsiyyəti barəsində əhatəli bir yazı hazırlayım. Razılaşdıq. Yazdıqlarım 80–90 il əvvəlin hadisələridir. Əlavə edim ki, əsl adı Yusif olan Usub baba zəmanəmizin çox tanınmış və dəyərli şəxsiyyətlərindən idi. Təkcə Təpəköydə deyil, bütün Ağbabada onun adı-sanı geniş yayılmışdı. Gördüyü işlər, tutduğu xeyirxah əməllər barədə xoş təəssürat yaranmışdı. Belə kişidən söhbət açanda düzlük, dəqiqlik hallarına zərgər dəqiqliyi ilə əməl etməyi özümüzə borc bilməliyik.

Etiraf edirəm ki, Usub baba özgəsi deyildi, mənim dost-doğma ana babam idi. Kişi 6 oğul, 1 qız atası idi. Keçmişdə adamlar biri-birinə xeyir-dua verəndə, adətən, belə deyərdilər: “Səni görüm 7 oğulla bir süfrəyə əl uzadanlardan olasan”. Əvvəlcə övladlarını təqdim edirəm: Rəcəb, Rüstəm, İsgəndər, Oruc, Nəsib, Alışan, bir də qızı Maya. Babanın 1 oğul “kəsiri” ailədə elə bir rol da oynamırdı. Evin ilk oğlu boy-buxunlu, yaraşıqlı Rəcəb, gələcək dayım atası ilə yan-yana duranda zahirən aralarında elə bir fərq də görünməzdi. Belə halda, ata da “7 oğullular” cərgəsində yer ala bilərdi...

Qardaşlar son dərəcə yaraşıqlı, boy-buxunlu, işlək, üzüyola, üzağardan idilər. Onların hamısını atanın “sağ əli” hesab etmək olardı. Mənə onlardan bir neçəsi ilə görüşmək, söhbət etmək nəsib olub. Bəzilərinin üzünü də görməmişəm, tale belə gətirib.

Ailənin, dediyim kimi, bir qızı da olub, Maya. Babam onu çox əzizləyərmiş. Adına da “Anaqız” deyərmiş. O, mənim gələcək anam – Maya Yusif qızı idi.

Oğulların, bir də sonralar anamın dilindən “aqa” sözünü götürmüşdüm. Usub babaya mən də “aqa” deyərdim. Bu bizim şivədə indi çox işlənən ata sözünün əvəzidir. Nənəyə də (Tükəzban) ana deyərdik. Bu müraciətdən hər iki tərəf çox məmnun qalardı. Təəssüf ki, onlarla görüşlərim, söhbətlərim çox az olub, çünki həm iş belə gətirib, həm də aramızda olan məsafə az deyildi.

Ana babama “aqa” deməkdən çox xoşhal olardım, lakin kiçik olduğumdan o vaxt bu sözün mənasını dərk etməzdim. Təkrar edirəm, bu söz bütün Ağbabada “ata” sözünün ən yaxşı, dolğun əvəzləyicisi idi.

Deyildiyi kimi, aqam Təpəköyün ən varlı-hallı sakini imiş. Bütün Ağbaba elində hamı onu halal çörək sahibi, xeyirxah adam kimi tanıyırmış. Var-dövləti, necə deyərlər, “başdan aşıb-daşarmış”. 25-30 sağmal inəyi, neçə qoyun sürüsü varmış. Minik atları ayrı, qoşqu atları özgə imiş. Evləri rayon mərkəzindən gələndə kəndin girəcəyində salınmışdı, “Şurabada (Sultanabada) aparan yola paralel mərkəzi magistraldan 50-60 metr aralıda yerləşirdi.

O başda ot tayaları cərgələnərmiş, sonra mal tövlələri, aşxana, oturacaq və yemək damı gəlirmiş, “sonda qonaq otağı” tikilibmiş. Bunları da 1940-cı illərdə görmüşdüm. Evlərin cərgəsinə yaxın, həyətin mərkəzində aqam su quyusu vurdurmuşdu, yayın bürküsündə yoldan keçənlər də daxil olmaqla güzarı buradan düşənlər quyuya yan alar, zəncirə bağlanmış vedrəni aşağı sallayıb su çıxarar, bir parç sərin su içib yanğısını söndürər, ev sahibinə minnətdarlıq bildirib dünyadan köçənlərinə rəhmət diləyərlərmişlər.

Qış aylarında həyətdə xüsusi hazırlanmış at xizəyi “müntəzir imiş”. Bu, “xüsusi təyinatlılar” dəstəsinin minik vasitəsini tamamlayan vacib nəqliyyat növü hesab olunarmış. Mərkəzi yolun Çaldaş–Təpəköy hissəsində heç bir yaşayış məntəqəsi, daldalanaq olmadığından qarlı-boranlı havada Orucun at xizəyi mənzil başına çata bilməyənlərin hayına yetərmiş. Təkcə bir xəbər verən, məlumat bildirən olsa, heç bir qorxudan çəkinməyə ehtiyac olmazmış. Oruc, ya evdəkilərdən biri atları qoşub, xizəyi işə salar və darda qalanın dadına yetişərmişlər.

Ailədə ciddi qayda-qanun, möhkəm intizam olub. Oruc və İsgəndər dayılarım sübh tezdən, hamıdan əvvəl yataqdan durub əldə



“qoşa süpürgə” həyət-bacanı toz-torpaqdan, yersiz tullantılardan təmizləyər, səliqə-sahman yaradar, zarafata salıb aqaya da deyərlərmişlər: Təmizlik həyət-bacadan başlayar, səliqə-sahman evə daxil olanların könlünü oxşamalıdır.

Aqamın var-dövlətinin durmadan artması, imkanlarının ili-ildən genişlənməsi ailədəki işgüzar mühitin, həmrəyliyin nəticəsində mümkün olmuşdur. Tükəzban nənənin, ona da “ana deyərdik”, ilk qoşa gəlinləri – Səlbinaz və Mayasa təsərrüfat işlərində qaynananın ən yaxın köməkçiləri idilər.

Böyük qardaşlar Rəcəb və Rüstəm cütlüyü ailənin bütün “xarici tapşırıqlarını” qüsursuz yerinə yetirərdilər. İsgəndər tələbə idi, müəllimlik həvəsinə düşmüşdü. İrəvanda Pedaqoji Texnikumda oxuyurdu. Kəndin say-seçmə cavanı Oruc öz yorulmaz “Şalon” atı ilə bütün vaxtlarda cıdır yarışlarını qalib tərk edərdi. Onun vaxtsız vəfatı ata-ananın “belini sındırdı”, bütünlükdə, Təpəköyü qəm dəryasına batırdı. Kənd qadınları bu faciəni belə şərh edərdilər: “Usubun oğlunu “vurğun vurdu”.

Kəndin adındakı “təpə” və “köy” sözləri bu yerin qədim türk yaşayış məntəqəsi olduğundan xəbər verirdi. Bəzi mənbələrdə, xüsusilə danışıqda, bir də yerli mətbuatda bəzən Təpəkənd formasında işlənsə də, Təpəköy sözü həmişə aparıcı olub və bu, kəndin adı dövlət orqanlarında belə qeydə alınmışdı. Bunu da nəzərə almaq lazımdır ki, bu ad göydəndüşmə deyildi.

Minilliklər ərzində Ağbabaya yaraşıq olan, Arpa gölündən mənbəyini götürüb eyniadlı çayın sağ sahilində qərar tutmuş möhtəşəm təpə-kurqanının adından yaranmışdır. Yerin səthindən 50-60 metr hündürlükdə qərar tutmuş təpə, elə bil “qurşayan” şəklində evlərin bir hissəsini öz ağuşuna alıb bizim dövrümüzədək onların keşiyini çəkməkdən “usanmamışdır”.

Təpə – kurqan kəndin yaraşığı, onun ayrılmaz tərkib hissəsi idi. Yazda, payızda, bir də ilin xoş günlərində bu hündürlük çoxadamlı olardı. Camaat burada toplaşıb ətrafda görünən Göllü, Yeniyol, Düzkənd, Balıqlı, Güllücə... kəndlərini uzaqda seyr edər, söhbətləşərdilər. Bu yerə ayrıca ad da verilmişdi: “Təpəbaşı”. Elə bil, Təpəbaşı sovet dövrü kənd klublarını əvəz edirmiş. Ən maraqlı, el-oba üçün mühüm mövzular burada söhbət mövzusu imiş.

1931-ci il, payızın ilk günləridir. “Təpəbaşı”nda yenə tünlükdür. Neçə gündür ki, burada vacib bir müzakirə camaatın söz-söhbətinin mərkəzində yer alıb. Nədənsə, məsələ də öz müsbət həllini tapa bilmir. İş burasındadır ki, kənddə təzə məktəb açılması barədə hökumətin qərarı var, ancaq lazımi bina yoxdur.

Təpəköyün ağsaqqalı Usub baba səhər naharından sonra bəzi təxirəsalınmaz işləri yekunlaşıb, Təpəbaşına qalxır. O, vaxt itirmədən adamları bir yerə yığır və deyir:

– Ay camaat, neçə gündür ki, burada biz vacib bir məsələni götür-qoy edirik. Ancaq meydanda heç nə yoxdur. Bura gələndə qız-gəlinə dedim ki, qonaq otağını boşaltsınlar, hər şeyi yığışdırsınlar. Mən o yeri məktəbə verirəm. Sabahdan mənim qonaq otağım məktəb olur, balaların ixtiyarına verilir.

Kəndin ilk müəllimi İrəvan Türk Pedaqoji Texnikumunun 1930-1931-ci dərs ili məzunu, Qaraçanta kənd sakini olan atam Fərhad Əsgərov olmuşdur. 2 sonra o, Usub Hacıbalaoğlunun yeganə qızı, yəni 6 qardaşın 1 bacısı Maya ilə evlənir, ailə qurur. Ata babam Rəcəb Əşrəfoğlu milləti toplayıb ilk övladına təmtəraqlı toy edir. Fərhad müəllimin toy məclisi, ailə qurması əmioğlum Baxşəli Əsgərovun “Ağbabada qalan izlər” kitabında dolğun təsvir edilmişdir.

Yeni qurulan bu ailədə 2 oğlan, 1 qız dünyaya gəlib: bacım Tamaşa (1934-2018), mən (1936) və qardaşım – kəndin ilk alimi kimyaçı Hamlet (1940-2016). Yeri gəlmişkən, atam 1939-cu ilədək Güllübulaqda, Dərələydə (Əzizbəyov rayonu), Her-her kəndində, Güllücədə, Amasiya orta məktəbində müəllim işləmiş, orduya çağırılmış və II Dünya savaşında həlak olmuşdur.

Böyük sevinc və iftixar hissi ilə “aqa” deyə müraciət etdiyimiz ana babam Usub Hacıbalaoğlunun başdan aşan var-dövləti, cah-cəlalı sonradan ona yağı kəsildi: hər şeyinin əlindən çıxmasına, yurdunun viran qalmasına, böyük oğlu Rəcəbin həbs edilməsinə, özünün də qolçomaq sayılıb tutulmasına səbəb oldu. Bu az imiş kimi, ailə nəsillikcə Təpəköydən uzaq düşdü. Balalar Sovetlər İttifaqının hər tərəfinə dağıldı, yad qəbiristanlıqlarda torpağa tapşırıldılar.

Ailəyə Təpəköydə edilən qaçaq-quldur hücumu da baba evini xarabalığa çevirir. Bir axşam əlisilahlı 6-7 nəfər evə daxil olub, oğlanların əl-qolunu bağlayır, tövləyə doldururlar. Dərhal da dəstəbaşı Tükəzban nənəyə qışqırır ki, arvad, evdə nə varsa çıxar, qoy ortaya, aparmağa gəlmişik.

Cəsarətli ana quldurbaşına cavab verir:

– Boy, ay Qənbər, utanmırsan, bu nə oyundur başımıza açırsan?

Qənbər qışqırır:

– Yersiz danışma qarı, mən Qənbər deyiləm, sakit ol, biz işimizi görək.

Dar macalda ana gəlinlərinin gümüş kəmərlərini alıb itlərin yal qazanına atır...

Bu arada igid Rəcəb dayım tövlədə qolunu açıb öküzün belinə qalxır və bacadan çölə çıxır, dərhal da özünü çatdırır yaxınlıqdakı Şurabada (Sultanabada), vəziyyəti sərhədçilərin komandirinə danışır. Sərhədçilər atlanıb hadisə yerinə yola düşürlər. Ancaq çata bilmirlər, qaçaq-quldur dəstəsi evi qarət edib Türkiyəyə keçmək istəyirlər. Burada onlar sərhədçilərlə qarşılaşır, ələ keçirdiklərini də töküb qaçırlar.

Səhəri dayımın da iştirakı ilə quldurlardan saldırılmış əmlakın siyahısı yazılır. Bu əmlak baba evinin daha varlı və zəngin olduğunun sübutu kimi və ailənin başına gətirilən ədalətsizlikdə fakt kimi ortaya qoyulur.

Yadımdadır, 4–5 yaşım olardı. Aqam həbsdən qayıtmışdı. Bir neçə gün Qaraçantada bizdə qaldı, “yoldaşlıq etdik”. Hiss etdim ki, aqa çox tədbirli, alicənab kişidir. Əlinə bir butulka keçdi. İçərisində mantar var idi. Bir qədər sağına-soluna baxıb, nazik və möhkəm kəndir tapdı. Onu qoşalayıb butulkanın içinə saldı. Mantarı kəndirin ortasına aldıqdan sonra dartıb onu çıxartdı, elə bil o, bu fantaziyası ilə mənim gözlərimdə birə-beş qat böyüdü, ucaldı.

1943-cü ilin sentyabrında anam bizi – 2 qardaş, 1 bacını qardaşlarına yaxın olub birtəhər yaşamaq ümidilə Təpəköyə – ata yurduna apardı. Ancaq bu ümid özünü doğrultmadı. Kiçik dayılarım Gürcüstanın Boqdanovka rayonundakı Sağamoy türk kəndinə köçmüşdülər, kolzoxda işləyirdilər.

Payızı, qışı, yayın bir hissəsini biz Təpəköydə qaldıq, heç bir dayı görmədik. İkinci dayım Rüstəm də əsgəri xidmətdə idi, ailəsi, 3 uşaqla kənddə yaşayırdı. Bu günləri xəyalıma gətirəndə, düzü, özümü ələ ala bilmirəm. Mən, 7 yaşlı uşaq vaxt tapdıqca Arpaçayını o tərəf-bu tərəfə keçirdim, üzmək də bilmirdim, əgər təsadüfən yıxılsaydım, yəqin ki, harayıma çatan olmazdı.

3 yaşlı qardaşım Hamletlə birlikdə “aqa yurdu”nun həndəvərində qalın otluqda gəzişir, ilan, kərtənkələ, kirpi axtarışına başlayırdıq. Gündəlik məşğuliyyətimizin belə bir qızmar vaxtında anam bizi evə səslədi. Məlum oldu ki, həmkəndlimiz mərhum Seyid Həsən baba qızı Xanıma baş çəkməyə gəlib. Baba geri qayıdanda mən də ona qoşuldum və kəndə gəldim, 1 ay sonra məktəbə gedib təhsil almağa başladım.

Sərin bir sentyabr gecəsində kəndimizin cənubundan keçən mərkəzi magistralla deyil, bir qədər də cənubda Cələb kəndindən keçən torpaq yolla səhərədək maşın karvanı ara vermədən keçdi. Yaşlılar dedilər ki, yəqin, əsgərlərdir, yenə manevr edəcəklər. Ancaq səhər duranda eşitdik ki, həmin gecə Gürcüstandan mesxeti türklərini Leninakana gətirib, oradan da Orta Asiyaya sürgün ediblər.

Axıska türklərinin içərisində Orta Asiyaya sürgünə gedənlərin arasında bizim iki dayımız da olub: Nəsib və Alşan. Onlar vaxtilə Sağamoya köçüb gedənlər idi. İndi də məcbur qalıb mesxeti türkü adı ilə doğma yurddan, el-obadan “gedər-gəlməzə” deportasiya olundular.



Aqa nəslinin digər nümayəndələri də, o cümlədən ikinci dayım Rüstəm də əsgərlikdən qayıtdıqdan sonra Orta Asiyada binə qurdular. Yeni doğulanlar, vaxtı çatanlar, kim haranı xoşladı, orada yaşayıb, məskən saldı. Beləliklə, Usub Hacıbalaoğlu nəslinin yetirmələri Orta Asiyanın hər yerinə səpələndilər.

Rüstəm dayı Qazaxıstanda, Çimkənddə yaşayırdı. Bir aralıq nəsillərin axtarışı, tapılması “hərəkatına” qoşulmuşdu. Ankarada, Qarsda, İğdırda və digər bir sıra ünvanlarda nəslin nümayəndələrindən tapıb, əlaqə yaratmışdı. 2013-cü ilin qışında mən, Milli Məclisin deputatı Aydın Mirzəzadə ilə birlikdə Qarsa, İğdıra yola düşdük, Xocalı şəhidlərinin anım mərasimində iştirak etdik. Dayının verdiyi ünvanla aqanın yaxın qohumlarından Alşan Qoçaqla görüşdük. Bizi evə dəvət etdi.

Vaxtımız dar idi. Kişi bərk təlaş keçirirdi. Deyirdi ki, sizə heyvan kəsim, ağıllı-başlı “qonaqlıq yapım”. Razılaşmadıq, lakin onun Gorxana kəndindəki pendir zavodunun məhsullarından holland, çeçil, motal pendirləri, qaymaq və qatıqdan daddıq. Bir daha əmin oldum ki, aqamın qəbri uzaqlarda olsa da, ideyası və əməlləri yaşayır.

1962-ci ildə Rüstəm dayım Vətən həsrəti iə köçüb Daşkəsənə gəlir. Onu müharibə iştirakçısı kimi şəhərdə yaxşı qarşılayır, 3 otaqlı mənzil verirlər. Bakıya gəlmişdim, geri qayıdanbaşı dayım ilə görüşməyi qərara aldım. Uzun illərin ayrılığndan sonra bu görüş çox sevindirici və həyəcanlı oldu. Dayının uşaqlarına da Daşkəsəndə filiz kombinatında iş vermişdilər, şofer işləyirdilər. Bir sözlə, vəziyyətləri yaxşı idi.

Dayı, uşaqları, ailəsi ilə işgüzar söhbət apardım. Dedim ki, təzə gəlibsiniz, bir qədər çətinliklər olacaq, ancaq bu müvəqqəti haldır, iki il işləyin. Sonra Azərbaycanın harasına istəsəniz köçərsiniz. Dayı razılaşdı. Aradan 5-6 ay keçmişdi. Daşkəsəndən bir tanış gəlmişdi, dayımı soruşdum. Dedi ki, dayın yenidən Qazaxıstana köçdü. Beləliklə, Usub babanın nəslindən yaşayanlar harada gəldi yaşadı, ölənlər də qürbətdə qara torpağa tapşırıldılar. Onlar Təpəköydən, Azərbaycandan, Bakıdan, çox-çox uzaqlarda “qəbir evində” əbədi qalası oldular.

Çox təəssüf edirəm ki, nənə-babamın aqamın, anamın qəbirləri indi Oş torpaqlarındadır, Aravan rayonundadır, onlar hansısa qərib qəbiristanlığın bir küncündə atılıb qalmışlar. Nə qəbri ziyarət edən var, nə də bir kəlmə dua oxuyub fatihə verənlər. Əvvəli əziz, sonu ucuz olan doğmaların ruhları indi, görəsən, hansı əzab-əziyyət içərisin də dolaşır? Bu, onların nə işinin, nə xidmətinin, nə də insanlığının müqabilində olanların bir faizi də deyil. Bir təsəlli var ki, Usub babanın nəslindən sağ qalanlar indi Orta Asiyada və dünyanın bir sıra yerlərində yaşayırlar.

Axıska türkləri ilə eyni tale yaşayan və Orta Asiyaya sürgün edilən yaşca kiçik dayılar, pəhləvan görkəmli dayılar haqqında da qeyd edim. Onlar məhsuldar Oş torpağının Aravan rayonuna düşmüşdülər. Nəsib dayım ticarətlə məşğul idi. Həyat yoldaşı Bədriyyə xanımla 11 uşaqdan ibarət böyük ailənin sahibi oldular. Dayı bu barədə “qafiyəli” bir məktub göndərmişdi mənə, uşaqları barədə məlumat verirdi: “Bir oğlum Cəmşid, bir oğlum Şəmşid (Bülbül), bir oğlum Rəmşid (Tillə)... bir qızım Məleykə, bir qızım Leyla...”. Cəmi 11 ad yazmışdı dayı.

Oş hadisələri ilə əlaqədar özbəklərlə qırğızlar arasında əlaqə gərginləşdikdə (1988) dayım uşaqlarından üçü Şəmşid, Leyla, Aytba Bakıya köçdülər, Xızı rayonunun Fındığan kəndində köçkünlər üçün yeni tikilmiş binalarda yerləşdilər. Aytba çox keçmədən Aravana qayıtdı. Leyla və Şəmşid kənddə yaşayası oldular.

Alşan dayı da Oşda məskunlaşmışdı. Yaxşı mexanik, energetik idi. Çox güclü və cəsarətli ziyalı idi dayı. Yüz kiloqramlıq transformatoru qucağına alıb quraşdırma yerinə qoyurdu. Onun uşağı var idi: Kamilə və Ənvər. Düzü, indi onlar haqqında məndə elə bir məlumat yoxdur. Üzü qara olsun qəribliyin, ayrılığın!

Bu yaxınlarda bibimin nəvəsi, mərhum həkim Natiq Məmmədovun qızı Aliyə Nuriyeva Kanadadan gəlmişdi. O, ailəsi ilə birlikdə orada yaşayır. O dedi ki, bir qədər əvvəl təsadüfən bir ailə ilə tanış olduq. Adı Usub idi. Söhbət əsnasında məlum oldu ki, o, Usub Hacıbalaoğluna simsar adamlardandır. Sizi, Hamlet müəllimi, onun həkim oğlu Arzunu yaxşı tanıyır, Bakıya gəlibmiş, burada Hamlet müəllimin evində olub. Xoş təəssüratlarla qayıtmışdı. Cibindən şəkil çıxartdı, Hamlet müəllimin və qızı Akifənin şəkli idi. Bir sözlə, Usub baba nəslinin çox yaxın qohumlarından idi.

Yenə qəlbimdən aqaya rəhmət diləmək, onun ruhunun şad olmasına dua etmək fikri keçdi. Belə bir şöhrətli adamın törəmələri gör nələr yaşamalı oldular.

Təpəköyün mərd, igid, cavan yetirməsi Oruc dayımın vaxtsız və müəmmalı ölümü də qəlbimi ağrıdıb. Aqamın var-dövləti müsadirə edildikdən sonra dayımın qəlbən bağlandığı “Şalon” atını milisə veriblərmiş. Hər şeyi əldən çıxmış ailənin gənc oğlu həyatdə nə ilə isə məşğul imiş. Qəfildən at kişnəməsi onu fikrindən ayırır. Sərt dönüş edib arxaya baxanda “Şalon”un üstündə yekəpər erməni milisini görür və müvazinətini saxlaya bilməyib yerə yıxılır.

Kənddə “cıdır yürüşlərinin” daimi qalibi, Təpəköyün mərd və say-seçmə oğlu Oruc dayım 21 yaşında bir daha özünə gələ bilmir və haqqın dərgahına qovuşur... Millət bu vaxtsız ölümü el kədəri kimi qəbul edib cavanın yasını tutur. Kənd qarıları isə heç nə anlamadıqlarından deyərmişlər: Usubun gənc balasını “vurğun vurdu”.

Professor Aslan müəlim Usub Hacıbalaoğlu haqqında bəzi məlumatlar verməyimi xahiş etmişdi. O kişi sıradan bir adam deyildi. Özü, işi şəxsiyyəti kitablara yetərli olub. Haqqında nəvəsinin – mənim görüb bildiklərim bunlardan ibarət olub və onları da yığcam şəkildə yuxarıdakı kimi qələmə aldım.

***Əsgər ƏSGƏROV,***
***Azərbaycan Jurnalistlər Birliyinin üzvü***

# Qədim yurd yerlərimiz bizi gözləyir

**Qərbi Azərbaycandan Bərdə rayonuna deportasiya olunmuş soydaşlarımız söhbət zamanı bildirdilər ki, onlar Qarabağ zəfərindən sonra başlanan sülh prosesinin yekununda öz əzəli yurdlarına qayıdacaqlarını səbirsizliklə gözləyirlər. Rayon ziyalısı Samir Nəcəfov XQ-yə aşağıdakıları söylədi:**

– Mənim valideynlərim 1948–1953-cü illərdə Qərbi Azərbaycanın Vedi rayonunun Şüqaib kəndindən Azərbaycanın Salyan rayonuna deportasiya olunmuş, sonralar Bərdə rayonuna köçmüşlər. Onlar Qərbi Azərbaycanın Dəvəli dəmiryolu stansiyasından yük vaqonları ilə, çox çətin şəraitdə köçürülmüşlər. Vaqonun bir tərəfində mal-qara, digər tərəfində insanlar bir neçə gün yol gəlmişlər. Bəzi insanlar yolda dünyasını dəyişmişdir.

Şüqaib adı türk dillərindəki konusvari zirvə mənasında işlənən “şoku” sözündən formalaşmışdır. Şüqaib keçmiş İrəvan quberniyasının İrəvan qəzasında Vedi (sonralar ermənilər Ararat adlandırıblar) rayonunun ərazisində səfalı bir məkan olmuşdur. Qafqazın 5 verstlik xəritəsində kənd göstərilmişdir. Şüqaibdə 1886-cı ildə 109 nəfər, 1897-ci ildə 163 nəfər, 1914-cü ildə 200 nəfər Azərbaycan türkü yaşamışdır.

1918-ci ildə kənd əhalisi erməni-rus birləşmələrinin hücumuna məruz qalmışdır. Həmin vaxt insanlar kütləvi qətlə yetirilmiş, sağ qalanlar isə kəndi tərk etmişlər. Sonralar didərgin düşən sakinlər yenidən kəndə qayıtmışlar.



1922-ci ildə kənddə 44 nəfər, 1926-da 35 nəfər, 1931-ci ildə 47 nəfər azərbaycanlı yaşamışdır.

SSRİ Nazirlər Sovetinin 23 dekabr 1947-ci il tarixli qərarına əsasən kənd sakinləri tamamilə deportasiya olunmuşdur. Köçürmədən qısa müddət sonra atamın əmisi Qurban və nənəsi Tərlan istiyə dözməyərək vəfat etmişlər. Qeyd etmək lazımdır ki, ata nənəm və babam Göyçə mahalının Mədinə kəndində yaşamışlar. Daşnaklar hücum edərək insanlara divan tutmuş, kəndi tamamilə darmadağın etmişlər. Bundan sonra onlar Vedi rayonunun Zimmi kəndinə, oradan isə Yelicə kəndinə köçmüşlər.

1986-cı ildə 6 yaşım olarkən atamla Göyçə mahalına getmişəm. Hələ də füsunkar gözəlliyə malik olan, nəğməli Göyçə gölü, meşələr, dağlar, buz bulaqlar xatirimdən silinmir. Valideynlərim və qohumlarım son nəfəsədək Vətən həsrətiylə yaşadılar. Əminəm ki, ata-baba yurdumuza – Qərbi Azərbaycana qayıdış o qədər də uzaqda deyil.

**Jurnalist Araz Hacıyev isə qeyd etdi ki, 1953-cü ilin may ayında 350 evlik Daşkənd kəndinin 130 ailəsini “köçmə bileti” ilə Bərdə rayonuna sürgün etmişlər:**

– Dəniz səviyyəsindən 2200 metr yüksəklikdə yerləşən dağ kəndindən insanları gətirib aranın istidən ilan mələyən düzündə – “Yeddi çinar” deyilən yerə yerləşdirməklə 600-dən çox insanın taleyinə laqeyd qalmış, onların xoşbəxt yaşamalarına xor baxmışlar. Bu insanların ən yaşlıları 125 və 123 yaşlı Kərbəlayi Əmrah və Paşa oğlu Abdulla, ən kiçiyi isə 1 aylıq Hamlet İsmayılov olub.

Bu dediklərimiz heç bir insani rəftara sığmır. Amma bunları bizə bir zaman vətəndaşı olduğumuz SSRİ hökuməti yaşatmışdır. Özü də bu deportasiyanı İ.Stalin, A. Mikoyan və başqa ermənipərəst qüvvələr “könüllü köçürülmə” adlandırmışlar. Guya ki, Azərbaycanda kolxoz və sovxozlarda işçi qüvvəsinə ehtiyac var. Əsas məqsəd isə hamımıza çox yaxşı məlumdur.

Aylarla bu ağacların altında yaşamağın nə qədər əzab-əziyyət olduğunu təsəvvür etmək heç də çətin deyil. Aradan çox illər keçməsinə baxmayaraq, atamın, anamın, ana tərəfdən olan babamla nənəmin dilindən hər zaman Göyçəylə, Daşkəndlə bağlı kövrək xatirələri, ana yurda olan sevgi ilə bərabər, acı həsrəti dinlədikcə mənim də oranı görmək, oraya getmək həvəsim artırdı. Və bir neçə il ard-arda, məktəb tətili vaxtı bu böyük arzuma çata bilmişəm. Atam məni və bacımı Daşkənddə yaşayan əmim Əmirxangilə aparar, bütün yayı orada qalardım.

Göyçə mahalının Daşkənd kəndində 2 alban kilsəsi var. Birincisi, 1181-ci ildə, ikincisi, təxminən, XIII əsrdə tikilmişdir. Hər iki kilsənin geniş məzarlığı və onlar arasında Dəmir dövrü istehkamının daş divar qalıqları, aşağı hissədə isə dayaz mağaralar var.

Müsahibim ürəkağrısı ilə bildirdi ki, 1919-cu ilin əvvəllərində erməni daşnakları Göyçənin nüfuzlu şəxslərini barışıq adı ilə aldadıb Basarkeçərə dəvət etmiş, Səməd ağanı qətlə yetirmiş, daşkəndli Aşıq Nəcəfi isə əsir götürmüşlər. Bir neçə gün sonra aşıq Küllü təpə deyilən yerdə belinə odlu samovar bağlanaraq öldürülmüşdür. Onun 5 oğlu da həmin hadisə zamanı aşığın gözləri qarşısında diri-diri basdırılmışdır.

Araz müəllim XQ-yə açıqlamasını Kəlbəcərdə Prezident İlham Əliyevin qədim yurda qayıdan ilk ailələrlə görüşü zamanı əlini Göyçəyə sarı uzadaraq dediyi ümidverici sözlərdən təsirlənən, doğma Göyçəmizə bütün varlığı ilə bağlı olan Yeni daşkəndli şair Aqşin Hacızadənin “Biz yenə də dönəcəyik Göyçəyə” adlı şeiri ilə tamamladı:

***Zülmət itir, yavaş-yavaş doğur dan,***
***Hazır olun, göyçəlilər, bu andan.***
***Kəlbəcərdən mesaj verdi komandan,***
***Olub bizim qədim məkan, yurd deyə,***
***Biz yenə də dönəcəyik Göyçəyə!***

***Vəli VƏLİYEV***
***XQ***

*Sabahımızı düşünərkən...*

# Ana südü ilahi nemət, əvəzedilməz uşaq qidasıdır

## *Bəs nədən körpələrin əksəriyyəti süni əvəzedicilərlə böyüdülür?*

**Dünyaya yenicə göz açan körpələr üçün ana südündən dəyərli qida yoxdur. Lakin təəssüf ki, bu gün ölkəmizdə doğulan uşaqların çoxu elə ilk gündən süni yeməklərlə qidalandırılır. Son dövrlər körpələrini öz südü ilə bəsləyən anaların sayının getdikcə azalması ciddi narahatlıq doğurur. Xarici görünüşlərini, bədən quruluşlarını qorumağı üstün tutan bəzi qadınlar "südüm yoxdur və ya çatmır", "sağlamlığım imkan vermir" kimi müxtəlif bəhanələrlə körpələrini ana südü kimi ilahi, əvəzedilməz nemətdən məhrum edirlər.**



Sözsüz ki, sağlamlıq vəziyyəti imkan verməyən və ya obyektiv səbəblərdən südü yetərli olmayan analar bu məsələdə istisna ola bilər. Bəzi analar isə ana südünün nə qədər dəyərli olduğunu dərk etmədiyindən, bu barədə kifayət qədər məlumatlı olmadığından körpələrinə süni qida əlavələri verirlər. Bu zərurət qeysəriyyə əməliyyatından sonra da yaranır. Belə ki, cərrahi müdaxilədən sonra bədəndə təbii laktaziya dövrü fizioloji olaraq bir neçə gün gecikir və ya ana ağrı səbəbindən körpəsini dərhal qucağına alıb bəsləyə bilmədiyindən uşağa ilk günlərdə xəstəxana işçiləri tərəfindən silikon əmziklərlə süni qida verilir. Nəticədə, süni yeməyə asanlıqla öyrəşən körpə anasına yaxın durmaq istəmir. Ana isə südünün olmadığını düşünərək psixoloji gərginlik yaşayır. Məsələnin digər psixoloji tərəfi isə ana ilə uşaq arasında qurulan ilk və ən vacib mənəvi bağın qurulmamasıdır.

Ananın körpəsini öz südü ilə qidalandırması təkcə övladının deyil, öz sağlamlığı üçün də vacibdir. Belə ki, bu proses onun müxtəlif onkoloji xəstəliklərdən qorunması üçün mühümdür. Hazırda dünyada hər 10 qadından biri süd vəzisinin və uşaqlıq boyunun xərçəngindən əziyyət çəkir. Təcrübələr göstərir ki, körpəsini ana südü ilə qidalandıran qadınlarda bu xəstəliyin yaranma təhlükəsi süd verməyənlərə nisbətən azlıq təşkil edir.

Dövlət Statistika Komitəsinin məlumatına əsasən 2023-cü ildə ilk 3 ayında ana südü ilə qidalanan 81,1 min körpədən yalnız 54,3 mini (təxminən 67%-i) heç bir əlavə qida qəbul etmədən sırf ana südü ilə böyüyüb. Yerdə qalan körpələrə isə ana südü ilə yanaşı, süni uşaq yeməkləri də verilib. Müqayisə üçün, 2022-ci ildə bu göstəricilər müvafiq olaraq 80,2 min və 52,2 min idi. Statistika göstərir ki, 10 il əvvəl ana südü ilə qidalanan uşaqların sayı 90 mindən çox olub.

Ən kəskin azalma 6 ayına qədər olan körpələr arasında müşahidə olunur. Belə ki, 2022-ci ildə bu yaşda olan 55,5 min uşaq ana südü ilə bəslənirdisə, 2023-cü ildə bu rəqəm 45,3 minə düşüb, 2024-cü ildə isə bir az daha artaraq 54,9 minə çatıb. 2023-cü ildə yalnız ana südü ilə qidalananların sayı 28 min idisə, 2024-cü ildə bu göstərici 24,8 minə enib.

Bu gün satışda müxtəlif növ və fərqli qiymətə uşaq qidaları mövcuddur. Onların təhlükəsizliyi və faydaları barədə fikirlər isə müxtəlifdir. Bu qidalar barədə zaman-zaman müxtəlif fikirlər səsləndirilir, onların uşaqlar üçün zərərli olduğu da deyilir. Hətta bir sıra uşaq qidalarının tərkibində GMO komponentin olması ehtimal edilir ki, bu da körpənin orqanizmi üçün təhlükəli hesab olunur. Məlum məsələdir ki, süni qarışıqlar nə qədər müasir texnologiyalarla hazırlansa da, ana südünün tərkibindəki təbii vitaminləri, fermentləri və uşağı yoluxucu xəstəliklərdən qoruyan maddələri tam əvəz edə bilmir. Əksinə, sənaye üsulu ilə hazırlanan bu qidalar bəzən gözlənilməz ziyan da gətirir.

Bu yaxınlarda dünyanın ən böyük uşaq qidası istehsal edən şirkətlərdən birinin üzləşdiyi problem bu təhlükənin bariz nümunəsidir. Belə ki, şirkət dünya üzrə 60-dan çox ölkədə satışa çıxardığı körpə və azyaşlılar üçün nəzərdə tutulmuş bəzi qida məhsullarını ehtiyat tədbiri kimi bazardan geri çağırmalı olub. Şirkət tarixində ən böyük məhsul geri çağırılması kimi qiymətləndirilən bu addıma səbəb istehsal prosesi zamanı məhsulların tərkibində "Bacillus cereus" bakteriyanın törətdiyi, qida zəhərlənməsinə yol açan "sereulid" toksini ilə çirklənmə ehtimalıdır. Bu hadisə bir daha sübut edir ki, ən nüfuzlu brendlər belə istehsal prosesində texniki xətalardan sığortalanmayıblar.

Bəs bu qidaları seçərkən körpələrimizin sağlamlığını riskə atmamaq üçün nələrə diqqət edək?

**Mövzu ilə bağlı Azad İstehlakçılar Birliyinin sədri Eyyub Hüseynovun fikirlərini öyrəndik. Mütəxəssis təəssüf hissi ilə bildirdi ki, ölkəmizdə ana südü ilə qidalanma göstəricisi get-gedə aşağı düşür:**



–Azad İstehlakçılar Birliyi 2000-ci ildən Beynəlxalq Ana südü ilə Əmizdirmə Təşkilatının üzvüdür. Biz dünyanın müxtəlif yerlərində çoxsaylı konfranslarda iştirak etmişik. Mövzu ilə bağlı olan yenilikləri dünyada və Azərbaycanda daim izləyirik. İllər boyu mən Azərbaycandakı ana südü ilə qidalanma göstəricisinin Avropa ölkələri ilə müqayisədə 40-45 faiz olduğunu düşünürdüm. Lakin ötən ilin mart ayında Azərbaycanda keçirilən beynəlxalq konfrans zamanı bu sahəyə nəzarət edən məsul şəxs bildirdi ki, ölkədə ana südü ilə qidalandırma göstəricisi 25 faizdən artıq deyil. Bu məlumat məni çox məyus etdi.

– Ölkəmizdə ana südü ilə qidalandırma göstəriciləri aşağı düşdükcə körpə qidalarına tələbat artır ki, bu da birbaşa qiymətlərin qalxmasına təsir edir. Azərbaycanda uşaq qidalarının həddindən artıq yüksək qiymətə satışı müşahidə olunur. Hətta vəziyyət o həddə çatıb ki, ölkədə eşşək ferması yaratmaq fikrinə də düşmüşdülər. Mediada eşşək südünün ana südünə alternativ olması, onu əvəz edə biləcəyi ilə bağlı əsassız, absurd fikirlər yayılmışdı. Azad İstehlakçılar Birliyi, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi ilə birgə çalışaraq bu fermanın açılmasına mane oldular. Bu, yolverilməz idi.

**Ekspert süni qida distribütorları ilə bir çox pediatrların əlaqəli olduğunu söylədi:**

– Doğum evlərinin çoxunda analara süni qidalar məsləhət görülür. Bu, çox ciddi problemdir. Baxmayaraq ki, ölkəmizdə uzun müddətdir yeni doğulmuş körpələrin qidalandırılmasına dair qanun mövcuddur. Qanuna əsasən, pediatrlarla körpə qidası distribütorları arasında hər hansı əlaqə qadağandır. Amma görürük ki, həmin distribütorlar doğum evlərinə qədər yol tapırlar.

Körpə dünyaya gələn kimi anadan ayrılır və ona ilk olaraq süni qida verilir. Düzdür, bu prosesdə qeysəriyyə əməliyyatlarının da rolu az deyil. Körpə dünyaya gədiyi ilk günlərdə süni qidaya öyrədildiyi üçün daha sonra ana südünü qəbul etmək istəmir. Beləliklə, valideynlər pediatrların təsiri altına düşürlər. Halbuki beynəlxalq tövsiyələrə görə, hətta ananın südü ilkin mərhələdə az olsa belə, körpə ilk üç gün ananın sinəsində qalarsa, südün gəlməsi təmin olunur.

Bundan başqa, doğumdan sonra gələn "molozivo" dediyimiz ilk süd körpə üçün çox önəmlidir. Həkimlər bu südü körpənin ilk peyvəndi adlandırır və hər uşağın mütləq "molozivo" ilə qidalanmasını vacib sayırlar. Xəstəxanalarda isə çox zaman körpəni bundan məhrum edərək anaya ilk südün formalaşmasının 1 həftə çəkəcəyini deyirlər. Təcrübəsiz ana da inanır və südü formalaşanadək körpəsinə süni uşaq qidası verir. Bir neçə gün bu qidanı yeyən körpə isə əmmə refleksini itirir, tənbəlləşir və anasının südünə yaxın durmur.

**Müsahibimiz ana olmağa hazırlaşan qadınları körpələrini təbii yolla qidalandırmağa çağırdı:**

– Körpə qidalarının tərkibində birbaşa təhlükəli maddələr olmasa da, onlar heç vaxt ana südünün yerini verə bilməz. Buna görə də tövsiyə edirik ki, körpələr mümkün olduğu qədər ana südü ilə qidalandırılsın. Ana südü əvəzolunmazdır, onun alternativi yoxdur.

**ATU-nun Tədris Terapevtik Klinikasının uşaq sağlamlığı və xəstəlikləri şöbəsinin rəhbəri, II uşaq xəstəlikləri kafedrasının assistenti, pediatr Qoşqar İsmayılov söylədi ki, süni uşaq qidalarının keyfiyyəti nə qədər yüksək olsa belə, ana südünü əvəz edə bilmir:**

– Ananın sağlamlığı imkan verdiyi halda, təbii qidanın süni qida ilə əvəz olunması düzgün deyil. Ana südü elə bir mükəmməl qidadır ki, onun tərkibində uşaqlar üçün lazım olan bütün inqrediyentlər hesablanmış



şəkildə var. Həm kalori, həm vitamin, həm də mineral cəhətdən çox zəngindir. Ona görə də mən valideynlərə tövsiyə edirəm ki, maksimum dərəcədə körpə doğulduğu andan əmizdirilsin. Yalnız məcbur qalanda, hansısa bir problem yarandıqda və ya süd olmayanda süni qidalara müraciət edilməlidir.

**Həkim süni qidalardan istifadə edən valideynlər üçün bəzi vacib məqamlara aydınlıq gətirərək, seçim zamanı nələrə diqqət yetirilməli olduğunu vurğuladı:**

– Süni qida seçərkən əsas meyar keyfiyyət olmalıdır. Bu qidalar əsasən iki cür olur: inək südü və keçi südü tərkibli. Hazırda satışda daha çox inək südü tərkibli uşaq qidaları üstünlük təşkil edir. Analara əsas tövsiyəm odur ki, ilk növbədə keyfiyyətə və məhsulun üzərindəki tarixə diqqət yetirsinlər. İstehsal tarixi ilə yanaşı, qidanın nə qədər müddət və hansı şəraitdə saxlanıla biləcəyi, xüsusən açıldıqdan sonra neçə gün istifadəyə yararlı olması çox vacibdir.

**Mütəxəssis qeyd etdi ki, körpə qidaları həm mağaza rəflərində, həm də ev mühitində yanlış saxlandıqda onların tərkibi dəyişərək ağır fəsadlara yol açır:**

– Bəzən apteklərdə və ya marketlərdə qidalar elə temperaturda saxlanılır ki, düzgün olmayan şərait bakteriyaların inkişafına gətirib çıxarır. Eyni problem ev şəraitində də yaşanır. Valideynlər qidanı açdıqdan sonra düzgün şəraitdə saxlamadıqda, 4-5 gün ərzində həm toz halında, həm də hazırlanmış halda olan qidanın tərkibində bakteriyalar arta bilər.

– Bu yaxınlarda məşhur süni qida şirkətlərindən birinin satışa çıxardığı bəzi məhsullarda "Bacillus cereus" adlı bakteriya aşkarlandı. Qeyd edim ki, həmin bakteriya təkcə uşaq qidalarında deyil, ümumiyyətlə uzun müddət otaq temperaturunda (xüsusən 6 saatdan artıq) qalan bişmiş yeməklərdə də sürətlə inkişaf edir. Bu cür qidalar həm uşaqlar, həm də böyüklərin zəhərlənmə riskini artırır.

**Müsahibimiz valideynləri daha diqqətli olmağa çağırdı:**

– Sağlam qidalanmaq üçün üç əsas amilə – tarixə, keyfiyyətə və texniki qaydalara ciddi nəzər yetirilməlidir. Bu qaydalara əməl olunarsa, riskləri minimuma endirmək mümkündür.

Elmi-tədqiqatlar da sübut edir ki, ana südü canlı hüceyrələrlə qarşılıqlı təsir göstərdiyindən güclü şəfa mənbəyidir. O, körpələrin orqanizmini zərərli mikrob və infeksiyalardan qoruyur, müxtəlif immun faktorlarla zəngin olduğuna görə, immun sisteminin inkişafına kömək edir və onu aktivləşdirir. Ana südü uşaqların zehni inkişafına da təsir edir. Araşdırmalar nəticəsində müəyyən olunub ki, təbii şəkildə qidalanma körpələrin uzunmüddətli beyin inkişafına əhəmiyyətli dərəcədə müsbət təsir göstərir. Bundan əlavə, ana südü ilə qidalanan körpələr daha yüksək intellektə malik olur, onlarda davranış problemlərinə az rast gəlinir. Eləcə də, allergik reaksiyaların, qəfil uşaq ölümü sindromunun, diabet, piylənmə və artıq çəkinin əmələ gəlmə riskini azaldır. Elmi təcrübələr göstərir ki, ana südü uşaqları qulaq, boğaz və sinus infeksiyalarından, soyuqdəymədən, çoxsaylı tənəffüs, xroniki, mədə-bağırsaq və digər xəstəliklərdən qoruyur. Tədqiqatçılar keyfiyyətsiz qidalanma və körpələrin qida rasionunda ana südünün olmamasını anemiyanın əsas səbəbi kimi görürlər.

**Göründüyü kimi, ana südü, sadəcə, qida deyil, təbiətin körpəyə bəxş etdiyi ən böyük möcüzə, həyat iksiridir. Ekspertlərin rəyləri və elmi faktlar da təsdiqləyir ki, heç bir süni qarışıq ana südünün tərkibindəki təbii komponentləri əvəz edə bilmir.**

**Redaksiyadan:**

**Əziz analar! Körpənizin sağlam gələcəyi, güclü immuniteti və sizinlə quracağı o ilk dərin bağ məhz bu addımdan başlayır. Bir körpəni ana südündən məhrum etmək, onu gələcəkdə üzləşə biləcəyi xəstəliklər qarşısında müdafiəsiz qoymaq deməkdir. Yeni nəslin sağlam təməli sizin əlinizdədir. Körpələrinizi bu təbii nemətdən, özünüzü isə bu mənəvi xoşbəxtlikdən məhrum etməyin!**

***Elenora HƏSƏNOVA***
***XQ***

*"Elm" nəşriyyatı–100*

# 1 əsr milli elmin xidmətində



**AMEA-nın "Elm" nəşriyyatının 100 illik yubileyinə həsr olunmuş mərasim keçirilib.**

AMEA-nın Mərkəzi Elmi Kitabxanasında təşkil olunan məclisi giriş sözü ilə açan AMEA-nın prezidenti akademik İsa Həbibbəyli "Elm" nəşriyyatının kollektivini yubiley münasibətilə təbrik edib. AMEA rəhbəri bir çox qurumların Azərbaycan Tədqiq və Tətəbbö Cəmiyyəti dövründə yarandığını, sonralar Azərbaycan Milli Elmlər Akademiyasında fəaliyyətini davam etdirdiyini söyləyib. Vurğulayıb ki, bir müddət əvvəl Mərkəzi Elmi Kitabxananın 100 illik yubileyi keçirilib, bu gün isə "Elm" nəşriyyatının 100 illik yubileyi qeyd olunur.

AMEA rəhbəri xatırladıb ki, nəşriyyat 1925–1932-ci illərdə Azərbaycanı Tədqiq və Tətəbbö Cəmiyyətinin, 1932–1935-ci illərdə SSRİ EA Zaqafqaziya filialının Azərbaycan şöbəsinin, 1935–1945-ci illərdə SSRİ EA Azərbaycan Filialının, 1945-ci ildən isə Elmlər Akademiyasının nəzdində fəaliyyət göstərib. Akademik İsa Həbibbəyli bu illərdə müəssisəyə Bəkir Çobanzadə, Abdulla Vəliyev, Ziya Bünyadov, Əjdər Xanbabayev kimi bir sıra görkəmli şəxsiyyətlərin rəhbərlik etdiyini deyib.

Akademik müstəqillik dövründə Akademiyada nəşriyyat sahəsinin yeni tipli– nəşriyyat-poliqrafiya sisteminin inkişaf etdiyini vurğulayıb: "Əvvəllər Akademiyada nəşriyyat və mətbəə ayrı-ayrı strukturlar kimi fəaliyyət göstərmiş, müstəqillik illərində isə bu iki sahə vahid ad altında birləşdirilmişdir. Həmçinin dövrün görkəmli alimlərindən ibarət Redaksiya-nəşriyyat şurası da formalaşdırılıb. Bu prosesdə nəşriyyatın mərhum direktorlarından filologiya elmləri doktoru, professor Şirindil Alışanovun əməyi yüksək olmuşdur".

İsa Həbibbəyli qeyd edib ki, nəşriyyat işinin daha da səmərəli olması üçün mühüm işlər görülüb, bu məqsədlə müəssisənin maddi texniki bazası gücləndirilib. O bildirib ki, nəşriyyatda hazırlanan "Azərbaycan elminin salnaməsi və bələdçisi", eləcə də tərtib etdiyi "Elm" nəşriyyatı: bir əsrlik irsin biblioqrafiyası: (1925–1990)" və "Elm" nəşriyyatı: bir əsrlik irsin biblioqrafiyası: (1991–2025)" adlı ikicildlik biblioqrafiya və "Azərbaycan Milli Elmlər Akademiyası: biblioqrafiyaların biblioqrafiyası" adlı nəşrlər müəssisənin 100 illik yubileyinə mühüm töhfədir.

AMEA-nın rəhbəri nəşriyyatın işini yüksək qiymətləndirib, əməkdaşları yubiley münasibətilə bir daha təbrik edib, onlara işlərində uğurlar arzulayıb.

Sonra nəşriyyatın direktoru, filologiya üzrə fəlsəfə doktoru Səbuhi Qəhrəmanov, "Azərbaycan Standartlaşdırma İnstitutu" PHŞ-nin baş direktorunun müavini, baş direktor vəzifəsini müvəqqəti icra edən, fizika-riyaziyyat üzrə fəlsəfə doktoru Kəmalə Məmmədzadə, AMEA Rəyasət Heyəti aparatının Elm və təhsil şöbəsinin müdiri filologiya elmləri doktoru Sərxan Xavəri, BDU-nun İnformasiya və sənəd menecmenti fakültəsinin dekanı, dosent Ələmdar Bayramov, BDU-nun Şərqşünaslıq fakültəsinin müəllimi, "Elm" nəşriyyatının sabiq direktorlarından Əjdər Xanbabayevin qızı və müəssisənin keçmiş əməkdaşı Afət Xanbabayeva çıxış edərk "Elm" nəşriyyatının fəaliyyəti, əldə etdiyi nailiyyətləri yüksək qiymətləndirib, kollektivi yubiley münasibətilə təbrik edib, fəaliyyətlərində uğurlar diləyiblər.

Tədbirdə akademik İsa Həbibbəyli "Elm" nəşriyyatının direktoru Səbuhi Qəhrəmanova Akademiyada uzunmüddətli və səmərəli fəaliyyətinə görə Azərbaycan Milli Elmlər Akademiyasının 80 illiyi (1945–2025)" döş nişanını təqdim edib.

Daha sonra "Elm" nəşriyyatının bir qrup əməkdaşı 100 illik yubileyi münasibətilə müəssisənin elmi və ictimai həyatında səmərəli fəaliyyətlərinə görə AMEA Rəyasət Heyətinin Təşəkkürnaməsi və AMEA Azad Həmkarlar İttifaqının Fəxri fərmanı ilə təltif ediliblər.

***Qabil ƏLİYEV***
***XQ***

# İsrailin Əmək Federasiyası təmsilçisi AHİK-də



**Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında İsrail Ümumi Əmək Federasiyasının nümayəndəsi Svetlana Alexandrova ilə görüş keçirilib.**

Söhbət zamanı Azərbaycan həmkarlar ittifaqının işçilərin əmək və sosial-iqtisadi hüquqlarının qorunması, layiqli iş şəraitinin yaradılması, sosial tərəfdaşlıq mexanizmlərinin təkmilləşdirilməsi istiqamətində gördüyü işlərdən danışılıb və həyata keçirilən sosial layihələr barədə məlumat verilib.

Svetlana Alexandrova ölkəsində əmək hüquqlarının müdafiəsi sahəsində atılan addımlar, ittifaq üzvlərinin müalicəsi və istirahəti üçün yaradılmış şərait, eləcə də işçi hüquqları ilə bağlı qanunvericilik aktları haqqında danışıb. Qonaq Azərbaycan həmkarlar ittifaqları sistemində son dövrlərdə həyata keçirilən islahatları və tətbiq olunan yenilikləri yüksək qiymətləndirib.

Görüşdə belə qarşılıqlı səfərlərin və təcrübə mübadiləsinin əhəmiyyəti vurğulanıb, AHİK ilə İsrail Ümumi Əmək Federasiyası arasında əlaqələrin inkişaf istiqamətləri barədə fikir mübadiləsi aparılıb.

***Q.YUSİFOĞLU***
***XQ***

*Təqvim yada salır*

# Görkəmli tibb alimi, tanınmış pedaqoq və ictimai xadim

**Azərbaycan tibb elminin və təhsilinin inkişafına layiqli töhfələr vermiş professor Vaqif Şadlinski görkəmli alim və təcrübəli pedaqoq olmaqla yanaşı, həm də təşəbbüskar və bacarıqlı təşkilatçı, fəal ictimai xadim kimi tanınır. Onun Azərbaycan tibb elminin və təhsilinin çağdaş dünya təbabətinin inkişaf səviyyəsinə yüksəlməsinə yönəlmiş fəaliyyəti ölkəmizdə və xaricdə qədirbilənliklə dəyərləndirilir.**



Vaqif Bilas oğlu Şadlinski 1940-cı il yanvarın 24-də Qərbi Azərbaycanın Vedi rayonunda ziyalı ailəsində anadan olmuşdur. Məşhur Şadlinskilər nəslinə mənsub bu ailədə elmə, təhsilə və milli dəyərlərə xüsusi önəm verilmişdir. Bu mühit onun dünyagörüşünün və şəxsiyyətinin formalaşmasında əsas rol oynamışdır.

1948–1950-ci illərdə azərbaycanlı əhaliyə qarşı həyata keçirilən deportasiya siyasəti nəticəsində Şadlinski ailəsi də dədə-baba yurdundan didərgin düşərək Azərbaycanın Şəmkir rayonunun Leninkənd qəsəbəsində məskunlaşmışdır. Bu faciəli hadisələr Vaqif Şadlinskinin həyatında dərin iz buraxmış, onda vətənpərvərlik, dözüm və əzm kimi keyfiyyətləri daha da möhkəmləndirmişdir.

Gələcəyin tibb alimi 1959-cu ildə Leninkənd orta məktəbini bitirdikdən sonra ordu sıralarında hərbi xidmət keçmiş, bölmə komandiri olmuşdur. Hərbi xidmət onun intizamlı, məsuliyyətli və liderlik keyfiyyətləri qazanan şəxsiyyət kimi formalaşmasına zəmin yaratmışdır. Ordudan tərxis olunduqdan sonra o, Şəmkir rayonunda Həzi Aslanov adına kolxozda çalışmışdır.

1963-cü ildə Vaqif Şadlinski Azərbaycan Dövlət Tibb İnstitutunun stomatologiya fakültəsinə daxil olmuşdur. Tələbəlik illərindən etibarən o, yalnız təhsildə deyil, həm də ictimai fəaliyyət sahəsində fəallığı ilə seçilmişdir. Müxtəlif illərdə tələbə şuralarının və həmkarlar ittifaqlarının sədri kimi çalışaraq təşkilatçılıq bacarığını nümayiş etdirmişdir. 1967-ci ildə institutun partiya komitəsi bürosunun üzvü seçilməsi və Ümumittifaq Həmkarlar İttifaqının qurultayında nümayəndə kimi iştirakı onun ictimai fəallığının göstəricisi idi.

Bu dövrdə Vaqif Şadlinski elmi axtarışlarını daha da dərinləşdirərək tibb elminin fundamental sahələrinə yönəlmişdir. 1970-ci Vaqif müəllim Azərbaycan Tibb Universitetinin insan anatomiyası kafedrasında elmi-pedaqoji fəaliyyətə başlamışdır. Uzun illər ərzində o, burada səmərəli elmi araşdırmalar aparmış, minlərlə tələbənin anatomiyaya dair dərin bilik qazanmasına töhfə vermişdir. Bütün bunlar onu kafedra müdiri vəzifəsinə yüksəlmişdir.

Professor Vaqif Şadlinski 1988–1991-ci illərdə ali məktəbin I müalicə-profilaktika fakültəsinin dekan müavini, 1992–1994-cü illərdə Həmkarlar İttifaqı Komitəsinin sədri, 1994–1995-ci illərdə ümumi işlər, 1996–2001-ci illərdə isə tədris işləri üzrə prorektor vəzifələrində çalışmış, ölkəmizdə tibb təhsilinin təkmilləşdirilməsi, elmi mühitin gücləndirilməsi və gənc kadrların hazırlanması istiqamətində bilik-bacarığını yüksək səviyyədə sərf etmişdir.

Müəllim kimi onun ən üstün cəhətlərindən biri də ədalətli və obyektiv qalması idi. O, tələbələri arasında heç vaxt fərq qoymaz, qiymətləndirmədə yalnız bilik və zəhməti əsas götürərdi. Bu xüsusiyyəti ona tələbələr arasında böyük hörmət və etimad qazandırmışdı. Vaqif müəllim üçün əsas məqsəd savadlı, vicdanlı və cəmiyyətə faydalı həkimlər yetişdirmək idi.

Vaqif Şadlinski məhsuldar elmi yaradıcılığı ilə seçilən alimlərdəndir. Onun 600-dən artıq elmi əsəri tibb elminin müxtəlif sahələrini əhatə edir. Bu əsərlər arasında 18 monoqrafiya, 46 dərslik, 23 tədris-metodik vəsait xüsusi yer tutur. Alimin müəllifi olduğu "İnsan anatomiyası üzrə atlas" tibb təhsili alan tələbələr üçün dəyərli mənbədir. alimin fundamental mövzulu əsərlərindən biri də Azərbaycan, rus, ingilis və latın dillərində nəşr olunmuş "Anatomik terminologiya" kitabıdır. Bu əsər tibb terminlərinin sistemləşdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması baxımından elmi nailiyyətdir.

Vaqif müəllimin elmi yaradıcılığı yalnız nəzəri biliklərlə məhdudlaşmamış, praktiki tibb və tədris prosesinin inkişafına da yönəlmişdir. Onun əsərləri bu gün də Azərbaycan tibb təhsilində əsas mənbələr sırasındadır.

Vaqif Şadlinski Azərbaycan Tibb Universitetinin Böyük Elmi Şurasının üzvü, eyni zamanda yaradıcısı olduğu Azərbaycan Anatom, Histoloq və Embrioloqlar Elmi Cəmiyyəti İctimai Birliyinin sədridir. Alim bir sıra nüfuzlu elmi jurnalların redaksiya şuralarının üzvü kimi də fəaliyyət göstərmişdir. Onun ictimai fəaliyyəti də elmə və təhsilə xidmət prinsipi üzərində qurulmuş, gənc tədqiqatçıların yetişdirilməsinə, elmi məktəblərin formalaşmasına xidmət etmişdir.

Professor Vaqif Şadlinski Azərbaycan tibb elminin inkişafında silinməz iz qoymuş böyük alim, pedaqoq və ictimai xadimdir. Onun həyat yolu zəhmətkeşliyin, elmə sədaqətin və Vətənə xidmətin seçilən nümunəsidir. Zəngin elmi irsi, çoxsaylı əsərləri və yetişdirdiyi kadrlar görkəmli alimin milli tibb elminin yüksəlişinə samballı töhfədir.

***Mirhaşim CALALOV,***
***Mərkəzi Neftçilər Xəstəxanasının hemodializ şöbəsinin müdiri, fəlsəfə doktoru***

# Rəssam soydaşımız ABŞ müsabiqəsinin qalibidir



**ABŞ-da yaşayan və fəaliyyət göstərən azərbaycanlı rəssam Vüqar Quliyevin əsəri Vaşinqtonda təşkil olunmuş rəsm müsabiqədə birinci yerə layiq görülüb.**

Hill Mərkəzi tərəfindən təşkil olunmuş nüfuzlu 2026 Regional Münsiflər Sərgisində Virciniya və Merilənd ştatlarından və paytaxt Vaşinqtondan 800 rəsm əsəri müsabiqəyə təqdim eddilib. 124 sənət əsəri seçilərək sərgiyə çıxarılıb və aralarından azərbaycanlı rəssamın yağlı boya ilə çəkdiyi "Astral sürüşmə" əsəri 1-ci yerə layiq görülüb. Rəssama xüsusi sertifikat və mükafat təqdim olunub.

Xatırladaq ki, Vüqar Quliyev bundan əvvəl də ABŞ-də keçirilən sərgilərdə fərqlənərək, ard-arda uğurlara imza atmışdı. Daha öncə soydaşımızın "Absurd gecə gəzintisi" əl işi "Arlington Rəssamlar Alyansı" qalereyasında keçirilmiş sərgidə fərqlənib. Ötən ilin aprel ayında onun "Pıçıldayan atəş" əsəri "İncəsənət Liqası" qalereyasındakı "MiniMax" adlı sərgidə baş mükafata layiq görülmüşdü. İyul ayında isə Vüqar Quliyevin digər bir rəsm əsəri – "Xəyal meşəsi: nömrə 2" həmin qalereyada təşkil olunmuş sərgidə baş mükafat alıb.

***Ə.DOSTƏLİ***
***XQ***

*Ana dilimiz – mənəvi Vətənimiz*

# Dövlət dilinə sayğı vətəndaşlıq borcudur

**Mən 60 ildir ki, kimya elmi sahəsində çalışıram. Amma mətbuata, ədəbiyyatımıza, folklorumuza bağlılığım güclüdür. Klassiklərimizdən, ustadlarımızdan yetərincə bəhrələnməyə çalışmışam.**

Dilçi olmasam da, Azərbaycan dilinin qayda-qanunlarına həmişə hörmətlə yanaşıram. Bunu həm də vətəndaşlıq borcu hesab edirəm. Çünki dilimiz minilliklərin yaddaşından süzülərək durulub, saflaşıb, paklaşıb, bu günümüzə qədər gələrək kamilləşib və müdrik bir dilə çevrilib.

Əlbəttə ki, dil hər bir millətin ən dəyərli milli sərvətidir və mənsub olduğu xalqın varolma düsturudur. Bu baxımdan, dilimizin saflığını, incəliyini, zərifliyini və müqəddəsliyini qorumaq hər bir ziyalının, hər bir vətəndaşın, hər bir qələm sahibinin – alimin, yazıçının, şairin, jurnalistin müqəddəs borcudur.

Dilimizin ahəngini və axıcılığını qoruyan bir sıra qaydalar mövcuddur. Bu qaydalar əsrlər boyunca, əsas etibarilə, bütün türk dillərində qorunub və zaman-zaman inkişaf etdirilib. Hətta "Orxon-Yenisey abidələri"ndə (VII–VIII əsrlər) və "Kitabi-Dədə Qorqud" dastanlarında (XI–XII əsrlər) bu qanunun izləri görünməkdədir.

Möhtəşəm ədəbi abidəmiz olan "Kitabi-Dədə Qorqud"un mükəmməl bir sənət nümunəsi olması, məna dolğunluğu, dilinin rəvanlığı, ifadə tərzi, söz zənginliyi onu deməyə əsas verir ki, bu eposa qədər xalqımızın şifahı dili ilə yanaşı, yazılı ədəbi dili də kifayət qədər inkişaf etmişdir. Çünki belə bir kamil, möhtəşəm sənət abidəsini yaratmaq üçün böyük təşəkkül mərhələsi keçmiş zəngin təcrübə və qüdrətli söz bazası olmalı idi.

Əsrlər boyu Azərbaycan dili, eyni zamanda, bütün Qafqazda yaşayan xalqlar arasında əsas ünsiyyət vasitəsi olub. Hələ XIX əsrdə tanınmış rus şairi M.Y.Lermontov Qafqazda olarkən dostu Svyatoslav Rayevskiyə yazırdı ki, Avropada fransız dilini bilmək nə qədər vacibdirsə, Qafqazda da Azərbaycan dilini bilmək bir o qədər əhəmiyyətlidir.

Rəsmi dövlət dilimiz olan Azərbaycan dili ölkəmizdə yaşayan 10 milyondan artıq vətəndaşın, müxtəlif xalqların və etnik qrupların əsas ünsiyyət vasitəsidir. Azərbaycan dili, eyni zamanda, İran İslam Respublikasında yaşayan 30 milyondan artıq soydaşımızın, dünyanın bir çox ölkəsinə səpələnmiş həmyerlilərimizin, İraq dövlətinin ərazilərində yaşayan 200 min Kərkük türkünün və türkmənlərin də ana dilidir. Bu isə o deməkdir ki, Azərbaycan dili dünya azərbaycanlılarının həmrəyliyinin, milli birliyinin təməlinə, rəmzinə çevrilib və qorunmalıdır.

Əlbəttə, ümummilli lider Heydər Əliyevin dilimizin qorunub saxlanmasında əvəzsiz xidmətləri olmuşdur. Unudulmaz dahi şəxsiyyətin bu fikirləri aforizm səviyyəsinə qalxıb: "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam". Yaxud: "Mən fəxr edirəm ki, türk dillərinə mənsub olan Azərbaycan dili bu qədər zəngindir, bu qədər bədii ifadələrlə doludur və biz həyatın bütün sahələrinə aid olan fikirlərimizi öz ana dilimizdə ifadə edə bilərik".

Prezident İlham Əliyev də çıxışlarında, insanlarla olan söhbətlərində, bölgələrdə keçirdiyi görüşlərdə dəfələrlə bu məsələyə toxunub. Hər zaman dövlət rəmzlərinə, o cümlədən Azərbaycan dilinə, əlifbasına, mədəniyyətinə, incəsənətinə, milli adət-ənənələrinə xüsusi ehtiramla yanaşaraq onun fəzilətlərindən söz açıb, qloballaşma prosesinin təsiri ilə mürəkkəb dövr yaşayan ana dilimizin bu gün qorunmağa və möhkəmlənməyə daha çox ehtiyacı olduğunu dilə gətirib.

Düşünürəm ki, möhtərəm Prezidentimizin ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyinə həsr olunmuş yığıncağında etdiyi çıxışın məqamlarına dönə-dönə diqqət yetirməkdə fayda var. Dövlət başçımız deyib: "Bizim zəngin dilimiz var və Azərbaycan ədəbiyyatı bunu təsdiqləyir. Ancaq indi dünyada gedən qloballaşma prosesləri, digər proseslər istər-istəməz dilimizə də təsir edir, biz dilimizi xarici təsirlərdən qorumalıyıq. Bizim dilimizə lüzumsuz xarici kəlmələr lazım deyil. Bizim dilimiz o qədər zəngindir ki, istənilən fikri, istənilən məsələni ifadə etmək mümkündür. Ancaq biz görürük ki, bəzi hallarda həm kütləvi informasiya vasitələrində, həm də digər sahələrdə dilimizə yad kəlmələr daxil olur. Bunlar dilimizi zənginləşdirmir, əksinə, bəzən mövcud sözlər yeni sözlərlə əvəzlənir və mən bunun qəti əleyhinəyəm. Bu gün fürsətdən istifadə edərək, bir daha bildirmək istəyirəm ki, hamımız öz dilimizi qorumalıyıq".

Elm məbədinin yubileyində dövlət başçısının dilimizə münasibətlə bağlı çıxışı, onun saflığının qorunması üçün digər sənət sahibləri ilə bərabər, alimlərə müraciəti məni də çox sevindirdi və bu yazı üzərində işləməyə sövq etdi. Təbii olaraq onun tərəfdarıyam ki, istənilən dil zaman-zaman texniki tərəqqinin, iqtisadiyyatın, texnologiyanın inkişafı ilə bağlı lüğət fonduna yeni sözlər daxil etmək məcburiyyətində qalır. Bu, təbii prosesdir, bütün zamanlarda özünü göstərib. Bununla belə, hər hansı bir sözü lüğət fonduna daxil etməzdən öncə araşdırmaq lazımdır ki, sözün qarşılığı öz dilimizdə var, yoxsa yox. Əlbəttə, ilk növbədə, dilin öz sözündən istifadə etmək lazımdır. Əgər yoxdursa, onda o söz götürülən dildən ya olduğu kimi saxlanılır, ya da dilin qaydalarına uyğunlaşdırılaraq işlədilir.

Tarixi təcrübə də göstərir ki, bu qəbildən olan sözlər zaman keçdikcə dilimizdə vətəndaşlıq hüququ qazanır. Amma yabançı ifadələr ehtiyac yaranmadığı halda bəzi jurnalist, şair, yazıçı, aparıcı və alimlər tərəfindən zorla dilimizə pərçim edilirsə, bu, dilimizi çirkləndirməkdən başqa heç bir işə yaramır. Bununla da dil öz gözəlliyini, incəliyini, zərifliyini itirir, lüğət fondu tikan basmış gülüstana bənzəyir.

Müşahidələr onu deməyə əsas verir ki, indiki dövrdə dilimizə ən böyük zərbəni bəzi özəl televiziya kanalları və reklam agentlikləri, eləcə də bu əsrdə meydana çıxan "internet-media"lar vurur. Bu sahədə fəaliyyət göstərənlər bilməlidirlər ki, 1992-ci ildə müstəqil Azərbaycan Respublikasında dövlət dili haqqında Qanun qəbul edilib. 1995-ci ilin referendumunda qəbul edilən yeni Konstitusiyanın 21-ci maddəsində Azərbaycan dilinin dövlət dili statusu təsbit olunub. Bu tarixlər Azərbaycan dilinin dövlət dili kimi hüquqi və siyasi mövqeyinin formalaşmasında mühüm mərhələləri göstərir.

Ulu öndər Heydər Əliyev Azərbaycan dilinin dövlət dili kimi tətbiqində mövcud olan çatışmazlıqların aradan qaldırılması məqsədilə 2001-ci il iyunun 18-də "Dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi haqqında" Fərman imzalamışdı. Bu sənəd milli dilin dövlət idarəçiliyində, təhsil sistemində və digər ictimai sahələrdə daha effektiv tətbiqini təmin etmək üçün hüquqi və təşkilati əsasların möhkəmləndirilməsinə yönəlmişdi.

Dövlət dili haqqında Qanunu vərəqləsək, görərik ki, "Dövlət dilinin televiziya və radio yayımlarında işlənməsi" adlı 6-cı maddəsində deyilir: "Mülkiyyət formasından asılı olmayaraq, Azərbaycan Respublikası ərazisində təsis edilən və fəaliyyət göstərən, dövlət dilində yayımlanan bütün televiziya və radio kanallarının aparıcıları bu dili mükəmməl bilməli və səlis danışıq qabiliyyətinə malik olmalıdırlar". Qanunun "Dövlət dilinin xidmət sahələrində, reklam və elanlarda işlənməsi" adlı 7-ci maddəsində isə deyilir: "Azərbaycan Respublikası ərazisində bütün xidmət sahələrində, reklam və elanlarda dövlət dili işlənilir. Əcnəbilərə xidmət göstərilməsi ilə bağlı müvafiq xidmət sahələrində dövlət dili ilə yanaşı, digər dillər də tətbiq oluna bilər. Zəruri hallarda elanlarda (lövhələrdə, tablolarda, plakatlarda və sair) dövlət dili ilə yanaşı, digər dillərdən də istifadə oluna bilər". Təəssüflər olsun ki, mühüm əhəmiyyət daşıyan bu maddələrin tələblərinə bəzi teleradio kanallarında və onların yayımladıqları müvafiq reklam çarxlarında əməl olunmur. Televiziya aparıcıları dilimizi bərbad hala salmaqda sanki bir-biri ilə yarışa giriblər.

Şadlıq sarayları, ticarət mərkəzləri və bu qəbildən olan digər məkanların adları da təəccüb doğurmaya bilməz. Bunlar sanki Avropa ölkələrini xatırladır. Zənnimcə, hər hansı obyektə ad seçilərkən dilçi alimlərlə, bu sahənin mütəxəssisləri ilə razılaşdırılmalı, eyni zamanda, qanunun tələblərinə əməl olunmalıdır. Digər tərəfdən, mətbuatda dilimizə uyuşmayan bəzi sözlərə daha çox yer ayrılır. Məsələn, "diskussiya", "arqument", "resurs", "kvota", "vakant", "mental", "kollokvium", "eksperiment" və bu qəbildən olan bir çox sözlərin dəb xatirinə işlədilməsinin mənfi təzahürlərini aydınca görməkdəyik.

Prezident qeyd etdi ki, təbii olaraq, biz digər dillərin öyrənilməsinin əleyninə deyilik, əksinə, tərəfdarıyıq. Çünki belə bir deyim var: 1 dil bilirsənsə, 1 adamsan, 5 dil bilirsənsə, 5 adam. Həmçinin getdiyin ölkələrdə yerli dildə danışmağın, yaxud dünyanın tanınmış yazıçı və şairlərinin əsərlərinin əslini oxumağın nəyi pisdir ki?!

Dilimizin saflığına yönəldilən mənfi ünsürlərlə bağlı daha bir məsələyə xüsusi toxunmaq istərdim. Futbol dünyada ən geniş yayılmış və ən çox izləyici kütləsi qazanmış idman növlərindən biridir. Bu baxımdan, futbol yarışlarını şərh edənlərin dilimizə münasibəti narahatedicidir. Baxın, onilliklər boyu işlədilən qapıçı sözünə "qolkiper", küncdən zərbəyə "korner", yandan atışlara "tac", 11 metrlik cərimə zərbəsinə "penalti", oyun, yarış əvəzinə "matç" deyirik. Halbuki, yuxarıda qeyd etdiyim kimi, bunların hər birinin dilimizdə çox gözəl qarşılığı var. Belə halda, digər sözlərin pərçim edilməsi yolverilməzdir.



**Valeh CƏFƏROV,**
**AMEA-nın müxbir üzvü**

Qeyd etdiyim kimi, uzun illərdir ki, kimya sahəsində elmi-tədqiqat işləri ilə məşğul oluram. Bu baxımdan deyə bilərəm ki, kimya sahəsinə aid bir çox sözlərin də dilimizdə dəqiq qarşılığı var, amma yenə də dilimizlə uzlaşmayan: aramatizasiya, utilizasiya, polimerizasiya, neytralizasiya, eterefikasiya, polikondensasiya, vulkanizasiya, adsorbsiya, denaturasiya və s. kimi sözlər işlədilir. Məncə, belə hallara çox həssaslıqla yanaşmaq lazımdır.

Yanvar ayının 5-də möhtərəm Prezidentimiz İlham Əliyevin yerli televiziya kanallarına verdiyi ənənəvi müsahibəsində bir daha dilimizlə bağlı məsələyə qayıtması, bu məsələni sadəcə dilçilik problemi kimi deyil, milli təhlükəsizlik və dövlətçilik məsələsi kimi qiymətləndirməsi bir daha sübut etdi ki, həqiqətən də "...dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. ...Dilimizi nə qədər çox qorusaq, nə qədər saf, təmiz saxlasaq, o qədər də millətimiz, necə deyərlər, saf olacaq və milli kimliyimiz həmişə bərqərar olacaq".

Dövlət başçısı Azərbaycan dilinin zənginliyini və axıcılığını, ahəngdarlığını vurğulayaraq bildirdi ki, bu dildə istənilən fikri ifadə etmək, istənilən şeiri yazmaq mümkündür. Ölkə rəhbəri bir çox xarici həmkarlarından da Azərbaycan dilinin gözəlliyi barədə müsbət rəylər eşitdiyini vurğulayıb.

Prezidentimiz Azərbaycan dilini qorumağı hər bir vətəndaşın vəzifəsi hesab edir və hamını bu mübarizəyə dəvət edib, dil məsələsinin dövlətçiliyin mövcudluğu ilə birbaşa əlaqələndirib: "Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər."

Ölkə başçısı xüsusilə jurnalistlərin məsuliyyətini vurğulayıb: "Efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər". Həmçinin şair, yazıçı və ziyalıları da bu məsələdə aparıcı mövqe tutmağa çağırıb və onların da bu prosesdə fəal rol oynamasının vacibliyini qeyd edib. Sözsüz ki, Prezidentin bu yanaşması Azərbaycan dilinin qorunması və inkişafı üçün kompleks yanaşmanın zəruriliyini göstərir. Axı xarici sözlərin düşünülməmiş şəkildə gündəlik danışıqda və mediada istifadəsi dilin zənginləşməsi deyil, əksinə, onun tədricən aşınması ilə nəticələnir. Xarici dilləri bilmək də müsbət haldır, lakin bu, ana dilinin hesabına olmamalıdır. Dövlət başçısının fikrincə, dilin qorunması təkcə qanunvericilik və inzibati tədbirlərlə deyil, ictimai məsuliyyət və milli şüur vasitəsilə mümkün ola bilər.

Dövlətimizin başçısı bu məsələni sadəcə dil problemi kimi deyil, milli təhlükəsizlik, dövlətçilik və gələcək nəsillərin milli kimliyi ilə bağlı strateji məsələ kimi qiymətləndirir, bayraq, gerb və himn kimi dövlət rəmzləri sırasında xüsusi yer tutduğunu bildirir. Azərbaycan əsrlər boyu müxtəlif imperiyaların tərkibində yaşamasına baxmayaraq, ana dilini qoruyub saxlaya bilmişdir. Bununla da ölkə rəhbəri sadalanan amilləri xalqın milli iradəsinin, mənəvi gücünün göstəricisi kimi qiymətləndirir və bütün cəmiyyəti bu istiqamətdə səfərbər olmağa səsləyir.

Sonda vurğulamaq istəyirəm ki, Azərbaycan dili çox gözəl dildir, görün, bu dildə kimlər danışıb, kimlər əvəzsiz bədii ədəbiyyat nümunələri yaradıblar! Dilimizi sevək, göz bəbəyi kimi qoruyaq, yad ünsürlərlə çirklənməsinə imkan verməyək, Qoy dilimiz dünya dillərinə meydan oxusun, mən də varam desin!

*Maraq dünyamız*

# Elm, fəlsəfə və ədəbiyyat

**(əvvəli qəzetin 27 iyul, 3, 24, 31 avqust və 15 noyabr tarixli saylarında)**

(əvvəli qəzetin 27 iyul, 3, 24, 31 avqust və 15 noyabr tarixli saylarında)



**Elə elmi kəşflər var ki, onlar nəinki elmin və onun tətbiq sahələrinin, həm də bədii-fəlsəfi təfəkkürün predmetinə çevrilir. Bu barədə əvvəlki mövzularda müfəssəl məlumat vermişdik. Elmi faktlar fəlsəfi düşüncəyə yol açmaqla ədəbiyyatdan, bədii mətnlərdən də yan keçmir. Yəni elm, fəlsəfə və ədəbiyyat birgəliyi intellektual bədii mətnlərin yaranması ilə nəticələnir ki, bu sahə ədəbiyyatın xüsusi qolunu təşkil edir.**

Hazırkı mövzu bəşəriyyət tarixində, elmi və praktik sahələrdə, ümumiyyətlə, bütün düşüncə müstəvisində xüsusi dönüş yaratmış bir nəzəriyyənin ədəbiyyatda rolundan bəhs edir: Qeyri-səlis məntiq nəzəriyyəsi.

Bu məqsədlə nəzəriyyənin elmi-kütləvi izahına və mahiyyətinə qısaca nəzər salıb, bu nəzəriyyənin intellektual bədii mətnlərlə əlaqəsindən və əhəmiyyətindən bəhs etməyə cəhd edəcəyik.

**Qeyri-səlis məntiq.** Bədii mətnlərlə əlaqəsindən əvvəl bu nəzəriyyənin, yuxarıda qeyd etdiyimiz kimi, qısa şərhini verək ki, ədəbi müstəvidə proyeksiyasına işıq sala bilək. Bu məntiq illərin sınağından çıxmış Binar məntiqə (Aristotel məntiqi də deyilir) alternativ yeni düşüncə şəbəkəsi formalaşdıraraq yaradıcı sahələrdə yeni intellektual təmayüllü əsərlərin meydana gəlməsinə zəmin yaradır. Həmçinin ədəbiyyatda. Nədir qeyri-səlis məntiq?




Binar və ya Aristotel məntiqinə görə, bir mülahizə ya doğrudur, ya da səhvdir. Göründüyü kimi, yalan və doğru arasında aralıq dərəcələr, aralıq vəziyyətlər nəzərə alınmır. Fikrimizi bir qədər genişləndirərək izah məqsədi ilə bu kimi mühakimələr irəli sürə bilərik; bu məntiqə görə, bir mülahizə doğru deyilsə, yalandır, bir şey ağ rəngdə deyilsə, qaradır, insan xoşbəxt deyilsə, bədbəxtdir, hər hansı şəxs dost deyilsə, düşməndir, adama olan hiss sevgi hissi deyilsə, nifrətdir və s. Məntiq anlaşılır, yəqin ki.

Lakin uzun müddət düşüncə adamlarını çoxölçülü məntiq düşündürmüş, Aristotel məntiqinin (ikili məntiqin) tarix boyu bir çox sahələrdə səmərə verməsinə baxmayaraq, çatışmazlıqlarını, qüsurlarını anlamışlar. Bu məntiqə görə, iki əks mülahizə arasında qalan nüanslar nəzərə alınmadığından, bu nüansların, belə demək mümkünsə, hüquqları tanınmamış olaraq qalırdı.

İlk dəfə Lütfi Zadə tərəfindən 1965-ci ildə irəli sürülən "Qeyri-səlis məntiq" nəzəriyyəsi elmi şəkildə çoxölçülü məntiq məsələsini ümumiləşdirmiş oldu. Bu məntiqə görə, qeyri-müəyyənlik şəraitində mütləq heç nə yoxdur və var olan hər şey dərəcəsi ilə mövcuddur. Ağ və qara rəng, yalan və doğru, sevgi və nifrət, xoşbəxtlik və bədbəxtlik və s. müxtəlif bir-birinə əks mülahizələr arasında sonsuz sayda aralıq kateqoriyalar, nüanslar mövcuddur; ağ rəng də dərəcəsi ilə mövcuddur, qara da. Xoşbəxtlik də, bədbəxtlik də, sevinc də, kədər də elə.

Anlaşılan dildə qısa elmi-kütləvi izahını da verməyə çalışaq. Binar məntiqə aid məsələlərdə iki qiymət mövcuddur: 0 və 1. Yəni hər bir mülahizənin doğruluq qiymətini iki məntiqi səviyyə müəyyən edir; doğru – 1 (vahid), yanlış – 0 (sıfır). Qeyri-səlis məntiqə aid məsələlərdə isə qiymət 0 və 1 arasında olan bütün ədədlər ola bilər. Yəni hər hansı bir mülahizənin doğruluq qiyməti bu iki səviyyə – 0 (yanlış) və 1 (doğru) – arasında sonsuz qiymətlər çoxluğu ilə müəyyən edilir. Bu qiymətlər çoxluğu isə, qeyd olunduğu kimi, varlığın mövcudluq dərəcəsini ifadə edir.

**Qeyri-səlis məntiq ədəbiyyatda.** Çoxölçülü məntiqin yaranması elmi və praktiki əhəmiyyəti ilə yanaşı, düşüncə sferasında da inqilab yaratdı. Bu inqilab isə digər elmi-fəlsəfi inqilablar kimi yaradıcı sahələr üçün yeni imkanlar açır. Bu imkanlar hadisələrə fərqli yanaşma tərzi aşılamaqla, istər-istəməz, fərqli bədii əsərlərin doğulması üçün bir baza, sanballı düşüncə şəbəkəsidir. Bu məntiqə bələd olan yaradıcı şəxs dost olmayanı həmişə düşmən hesab etmir. Anlayır ki, sevgi və nifrət arasında çoxlu aralıq mərhələlər, vəziyyətlər var. Bilir ki, ağ və qara rəng arasında sonsuz çalarlar mövcuddur. Dərk edir ki, xoşbəxt olmamaq hələ bədbəxt olmaq deyildir.

Yəni içində olduğu hadisələri fərqli idrakla qavrayır, hadisələrə fərqli fəlsəfi düşüncə ilə və eyni zamanda tolerant yanaşa bilir. Bu məntiqin formalaşdırdığı fəlsəfi düşüncə, həm də tolerant münasibət mövzunun bədii həlli zamanı informativliklə yanaşı, gözlənilməzlik də yarada bilir ki, bu da əsərin bədii dəyərini, fəlsəfi yükünü artırmaqla yeni ədəbi-bədii estetikanın da yaranmasına təkan verir.

Qeyri-səlis məntiq bizi öyrədir ki, mövcud olan nə varsa, dərəcəsi ilə mövcuddur. Dərəcəsi ilə mövcuddursa, demək, həm də özündə müəyyən qədər tərsini saxlayar. Tərsini saxlayarsa, demək, mövcud olan müəyyən həddən sonra öz tərsinə də çevrilə bilər: sevgi nifrətə, nifrət sevgiyə, bədbəxtlik xoşbəxtliyə, xoşbəxtlik bədbəxtliyə, sevinc kədərə, kədər sevincə...

Hesab edirik ki, bu məqamda mövzuya adekvat bədii mətn söylədiklərimizi qismən də olsa, tamamlaya bilər. Və bu nəzəriyyənin düşüncə sistemindəki rolunu və möhtəşəmliyini bədii mətndəki təsvir və ifadələrdə, az da olsa, hiss etmək mümkündür.

Hər hansı bir elmi nəzəriyyənin, elmi anlayışın mahiyyətini, fəlsəfəsini anladıqda, onun üzərində və ya ondan bədii model, bədii vasitə olaraq istifadə edilməklə qurulan bədii mətnin ötürdüyü informasiya anlaşıla bilər. Və yalnız bundan sonra bu mətnlərdən bədii həzz alınması mümkündür. Adətən, belə hallarda həzzi bədii mətnlər üzərində düşünməyi sevən, bədii mətnlərdə informativlik axtaran oxucular yaşaya bilirlər.

Çoxölçülü məntiq düşüncə sistemində əsaslı dəyişikliyə səbəb olan digər sanballı elmi nəzəriyyələr kimi, bədii-fəlsəfi düşüncə, ümumiyyətlə, yaradıcı təfəkkür üçün çoxölçülü imkanlar açır, hadisələrə, predmetlərə olan münasibət sferasını genişləndirməklə, həqiqətən, sərbəst düşüncə meydanını da genişləndirir.

**Şair-filosof**

Haydeger deyir: "Şair poetik düşünən filosofdu".

Mən də düşünürəm neçə illərdi:
yaranan nə varsa,
tələbdən doğar,
şəkli əks olunar düşüncədə,
sonra yavaş-yavaş istəyə dönər.
Həyat var a – asta-asta ölümdü elə düşünsən
dərindən,
düşünsən dərindən,
sevgi – bir az da nifrətdi, nifrət – bir az sevgi,
sevinc – bir az kədərdi, kədər – bir az sevinc,
xoşbəxtlik – bir az bədbəxtlikdi,
bədbəxtlik – bir az səadət.
qələbə - məğlubiyyətdi həm də,
məğlubiyyət – qələbə.
(Hər şey ifratda öz tərsinə çevrilər). Elə çevrilər,
bir də görərsən sevinc kədərə dönüb,
səadət acıya, qələbə məğlubiyyətə,
ya da tərsinə, odur ki, gəlin şükür edək tale verənə.

Var olan – yox olandı,
yox olan – var olan.
Ölüm – həyatın davamı; yoxolma deyil,
şüurun məhsulu – bu yerdə, deyəsən,
səhv edər şüur.

Şair – poetik düşünən filosofdu.
Mən də
düşündüm, düşündüm, düşündüm...
və şeir yazdım:

Payız gəldi. Saralan yarpaq
elə həmən yarpaqdı,
rəngini dəyişib sadəcə.

Payız gəldi yenə də,
saralan yarpaq
endiyi budaqdan uçmaz uzağa.

**8-ci mövzu. Kvant fizikasından ədəbiyyata**

Ədəbi Suprematizm nəzəriyyəsinin növbəti hədəfi Kvant fizikasının uzun bir dövr ərzində düşüncə adamlarını şübhədə saxlayan bəzi mülahizələri gerçəkliyə çevirən çox möhtəşəm nəticələridir. Elmi təsdiqini tapsa da, bu gün də öz sehri ilə heyrətə, şübhə dolu məqamlarıyla müəyyən tərəddüdlərə səbəb olur bu nəticələr. Elə bu səbəbdən həmin nəticələrin doğurduğu fəlsəfənin bədii mətnlərdə ifadə texnikasını konsepsiyamızın əsasını təşkil edən "elmi informasiya – fəlsəfi düşüncə - bədii təfəkkür" (Eİ – FD – BT) üçlüyünün komponentlər ardıcıllığının yaratdığı modelin sınağından keçirməyə qərar verdik.

Kvant fizikasının elmi baxımdan inkar edilməsə də, insan məfkurəsinin sərhədlərini aşan və daha çox metafizik məna daşıyan nəticələrinin fəlsəfəsini bədii mətnlərə gətirməyə nail olsaq, bunun nə böyük həzz aşıladığının şahidi olarıq. Əslində, bu elmi qənaətlərin özü yaradıcı təfəkkürü lərzəyə salan, bir çox hadisələrin həm də fəlsəfi təsvirini cızan fikir şəbəkəsi, fəlsəfi tezislər təşnəsidir.

**Kainat təkcə maddi deyil.** Klassik fizikaya görə işıq zərrəcik yığınıdır. Eynşteyn isə 1905-ci ildə işığın kvantlara – enerji porsiyalarına (bunlara foton deyilir) bölündüyü nəticəsinə gəlir. Baxın, Kvant fizikası nə deyir: İşıq təkcə zərrəcik deyil, o həm də dalğa halındadır. Bir sözlə, işıq maneəyə rast gələnə qədər dalğa (enerjiyə bürünür), maneəyə rast gəldiyi zaman isə zərrəcik (qum dənəcikləri şəklində maddə) kimi davranır. Bu hələ harasıdır. Gəlin davam edək. Növbəti araşdırmalar daha möhtəşəmdir: təkcə işıq deyil, atomu təşkil edən zərrələr (elektron, proton kimi zərrəciklər) də eynən işıq kimi, ya dalğa (enerji), ya da zərrəcik (maddə) olaraq davranırlar, yəni bəzən görünür, bəzən də yox olurlar – kvant davranış forması deyilir buna. Beləliklə, bütün kainat, maddi dünya nədirsə, təkcə maddi deyil, o həm də enerjidir. Çünki kainatda nə varsa, elementar zərrəciklərdən təşkil olunub – elementar zərrəciklər necə, onlardan ibarət dünya da o cür. Fizikadan metafizikaya keçid. Möhtəşəmdir, deyilmi? Uzun bir dövr müxtəlif aspektdən (həm dini, həm də fəlsəfi dünyagörüşü nəzərdə tuturam) söylənilib, isbatı üçün dəridən-qabıqdan çıxılan fikirlərin elmi təsdiqi; maddi dünyanın təməli enerjidir. Bunu fizika deyir a, təbiət qanunlarını öyrənən bir elm.

Atomun içindəki zərrəciklərin gah görünən, gah da görünməz olması ilə bağlı kəşf isə gerçək zənn etdiyimiz dünyadakı görüntülərin bir kölgə, bir illüziya olduğunu təsdiq edir. Niyə təsdiq edir? Platonun "İdeal dünya"sını xatırladınızmı? "Fiziki dünya aydın, həqiqi ideyalar aləminin bulanıq təsviridir (kölgəsidir)".

Deməli (doğurdanmı?!), biz mövcud olduğumuz dünyayla birgə həqiqi, gerçək dünyanın yalnız təsviri, özü də bulanıq təsviri, kölgəsiyik (?!).

**Əksim və mən**

Gedirəm,
kölgəm gah irəlidə,
gah də geridə.
Gah da çəkilir qeyri-müəyyənliyə.

Dayanmışam qarşısında:
güzgü - əksim hərəkətdə.
Çəkilirəm,
əksim gizlənir zülmətdə.

Oturmuşam.
Qarşımda fotolar – şəkillərdə
düzbucaqlı xatirələr.
Baxmıram,
yox olur hadisələr.

Kölgə (gedirəm),
güzgüdə əksim (dayanmışam),
fotolar (oturmuşam)
və
mən (gedirəm, dayanmışam,
oturmuşam).

Nə sirr var bunlarda,
yəni kölgədə, güzgüdə, fotolarda? –
həm mənəm,
həm də mən deyiləm.

Nə sirr var? –
birini deyim:
mən üçölçülü – fəzada hərəkətdə,
onlar müstəvidə - ikiölçülü təsvirim.

Nə sirr var məndə,
nə sirr var? –
birini deyim:
mən də təsvirəm,
üçölçülü güzgüyəm, şəkiləm, kölgəyəm.

**(ardı var)**

***Əli Şirin ŞÜKÜRLÜ,***
***riyaziyyat üzrə fəlsəfə doktoru, şair-esseist***

*I Türkoloji Qurultay – 100*

# Xakas türkoloqu Bakı toplantısında

**Türkologiyada adları tez-tez qarışdırılan 2 Nikolay Katanov var. Onlardan birincisi – Nikolay Fyodoroviç Katanov (1862–1922) – XIX əsrin sonlarında fəaliyyət göstərmiş görkəmli türkoloq, Sibir türklərinin dili, folkloru və etnoqrafiyası üzrə mütəxəssis idi. O, Sibir xalqlarından 1200-dən çox folklor mətnini toplamış, türk dillərinin müqayisəli tədqiqinə mühüm töhfə vermiş və Kazan Universitetində professor kimi çalışmışdır.**

Folklor tədqiqatçısı Əli Şamil qeyd edir ki, ikinci Katanov onun bacısı oğlu Nikolay Qavriloviç Katanovdur (1894–1938). Kiçik Nikolayın fəaliyyəti də elmi və ictimai-siyasi baxımdan diqqətəlayiqdir. Atası Qavril Leonteviç Tünitsev, anası isə professor Katanovun böyük bacısı Mariya idi. Dayısı – məşhur alim Nikolay Fyodoroviç Katanov bacısı oğlunu övladlığa götürərək ona öz adını və soyadını vermiş, təhsil və tərbiyəsini özü yönləndirmişdir. Beləcə hər iki Katanov türkoloji fikrin müxtəlif dövrlərində, lakin eyni ideya – Sibir türklərinin dil, mədəniyyət və kimlik mirasını qorumaq və tədqiq etmək uğrunda çalışmışlar.



**Nikolay Fyodoroviç Katanov**
*(1862–1922)*

Bakı Türkoloji Qurultayında iştirak edən şəxs Nikolay Fyodoroviç Katanovun bacısı oğlu – Nikolay Qavriloviç Katanov olmuşdur. O, 1926-cı ildə Bakıda keçirilən Qurultayda Xakas nümayəndə heyətinin üzvü kimi çıxış etmiş, türk xalqları arasında ortaq əlifba və mədəni yaxınlaşma ideyalarını müdafiə etmişdir. O, həmçinin Qərbi Sibir Türk Respublikası yaratmaq ideyası ilə çıxış etdiyi üçün sonradan Stalin repressiyalarının qurbanına çevrilmişdir.

1894-cü il dekabrın 5-də Sibiriyanın Askiz qəsəbəsi yaxınlığındakı Saraja kəndində dünyaya gəlmişdir. Onun həyatı elmi və milli ideallar uğrunda mübarizə nümunəsidir. Nikolay əvvəlcə Askizdəki ikisinifli kənd məktəbində, daha sonra isə Krasnoyarsk dini seminariyasında oxumuş, 1916-cı ildə Xarkovdakı Novo Aleksandrski Kənd Təsərrüfatı İnstitutuna daxil olmuşdur. Lakin Birinci Dünya müharibəsi və Rusiyada baş verən inqilabi hadisələr onun həyat yolunu dəyişmişdir. 1919-cu ildə Denikin ordusuna çağırılmış, daha sonra öz yazdığı kimi bolşeviklərin tərəfinə keçmiş və Qızıl Orduda xidmət etmişdir.



1921-ci ildə hərbi xidmətdən azad olub vətəninə qayıdan Katanov Millətlər Nazirliyinin Minisun qəzasındakı İcraiyyə Komitəsində, Askiz tərcümə komissiyasında, milli nəşriyyat və savadsızlığın ləğvi komissiyalarında çalışmışdır. O, 1927-ci ildən ana dilində nəşrə başlayan "Lenin yolu" qəzetində və sonralar "Xızıl aal" qəzetinin əməkdaşı kimi yazılar yazır, xalq maarifinin inkişafına çalışırdı. Katanovun ən mühüm elmi işi xakas dilinin ilk qrammatikası və 1928-ci ildə nəşr edilmiş "Xakasca–Rusca lüğəti" olmuşdur. Bu əsərlər Sibir türklərinin dilinin öyrənilməsi və kodlaşdırılması baxımından böyük əhəmiyyət daşıyır. 1928-ci ildə latın qrafikalı türk əlifbası komissiyasına üzv seçilmişdir.

N.Q.Katanov bütün üzləşdiyi ciddi nəqliyyat və yol çətinliklərinə baxmayaraq, Birinci Ümumittifaq Türkoloji Qurultayın sonuncu günü – 6 mart 1926-cı ildə Bakıya çatmağa müvəffəq olur. Uzaq Sibirdən, minlərlə kilometr məsafəni qət edərək Qurultayda iştirak etməsi onun bu mötəbər elmi toplantıya verdiyi böyük əhəmiyyətin və türk xalqlarının elmi-mədəni birliyi ideyasına sadiqliyinin bariz göstəricisi idi.

Katanov iclasda xakas dilində çıxış edərək həm öz xalqının dil və mədəniyyətinə olan bağlılığını, həm də Türkoloji Qurultayın çoxdilli və beynəlmiləl xarakterini nümayiş etdirir. O, nitqinə dərin məna daşıyan bu sözlərlə başlayırdı: "Yoldaşlar, mən Birinci Ümumittifaq Türkoloji Qurultayını uzaq Sibirdən, keçmiş Yenisey quberniyasının cənubunda yaşayan xakasların adından salamlayıram".

Bu sözlər zalda böyük təlatüm yaradır. Ardınca Katanov öz xalqının dil və mədəniyyət sahəsində üzləşdiyi çətinliklərdən danışır, Sibir türklərinin elmi-mədəni həyatla daha sıx əlaqə qurmasının vacibliyini vurğulayır.

Əslində, bu müraciət təkcə formal bir salamlaşma deyildi. Katanovun çıxışı, kiçik saylı və coğrafi baxımdan mərkəzdən uzaqda yaşayan türk xalqlarının da ümumtürk elmi prosesində yer aldığını, onların dil, folklor və etnoqrafiyasının öyrənilməsinin türkoloji tədqiqatlar üçün əvəzsiz əhəmiyyət daşıdığını vurğulayırdı. Onun Qurultaydakı iştirakı və çıxışı, türk xalqlarının elmi inteqrasiyası, qarşılıqlı tanınması və ortaq problemlərin müzakirəsi baxımından xüsusi simvolik məna kəsb edirdi.

Qurultay onun üçün həm də mənəvi oyanış mənbəyi olur. Xüsusilə Altay bölgəsindən gəlmiş Aleksey Sabaşkinin tribunada ucadan "Mən Türkəm!" sözlərini səsləndirməsi Katanovun qəlbində dərin iz buraxır. Bakıdan vətəninə döndükdən sonra N.Q.Katanov bu hadisədən aldığı ilhamla xakas dili və folkloru üzərində daha intensiv şəkildə işləməyə başlayır. O, türk xalqları arasında mədəni birliyin yalnız elmi müzakirələrdə deyil, həm də hər bir ziyalının əməli fəaliyyəti ilə mümkün olacağına inanırdı. Qurultay onun düşüncəsində türk kimliyinə bağlılıq və elmi məsuliyyət hissini daha da gücləndirmişdi. Amma...

Milli düşüncələr və "Sibir Türklərinin İttifaqı" adlı gizli təşkilatla əlaqədar şübhələr xüsusi xidmət orqanlarının diqqətini cəlb etmişdir. 1934-cü ildə ilk dəfə həbs olunaraq qısa müddət sonra bəraət almış, lakin 1937-ci ildə yenidən həbs edilmişdir. Onu Qərbi Sibir Türk Respublikasını yaratmaq cəhdində ittiham etmişlər.

1938-ci ilin 13 iyulunda SSRİ Ali Məhkəməsinin Hərbi Kollegiyası Nikolay Qavriloviç Katanovu "xalq düşməni" kimi ölümə məhkum etdi və hökm elə həmin gün yerinə yetirildi. 1959-cu ildə ona bəraət verilsə də, bu sadəcə formal bir qərar idi – əsərləri unuduldu, adı uzun illər susqunluğa məhkum edildi...

Xakas türkoloqunun həyat yolu Bakı Türkoloji Qurultayının əsas idealları ilə – türk xalqlarının dillərinin qorunması, elmi əsaslarla tədqiqi, qarşılıqlı anlaşma və ortaq gələcək naminə birgə fəaliyyət göstərilməsi düşüncəsi ilə sıx bağlı olmuşdur. Qurultayın son günündə, bütün çətinliklərə baxmayaraq, Bakıya çatması və iclasda ana dili olan xakas dilində çıxış etməsi, bu ideallara formal deyil, dərin və sarsılmaz sədaqətinin açıq ifadəsi idi. Bu davranış onu sıravi bir iştirakçıdan çox, Qurultayın ruhunu və məqsədini təcəssüm etdirən simalardan birinə çevirmişdir.

Eyni zamanda, Katanovun taleyi, XX əsrin ilk onilliklərində türk xalqlarının ziyalılarını müşayiət edən mürəkkəb və çox zaman faciəvi tarixi reallıqları da simvolizə edir. Onun elmi və ideya fəaliyyəti yetərincə qiymətləndirilməmiş, adı və irsi uzun müddət kölgədə qalmışdır. Bu gün belə, Katanov haqqında məlumatların son dərəcə məhdud olması, hətta onun bir fotoşəklinin belə tapılmaması, yalnız fərdi bir alimə deyil, bütövlükdə türkoloji elmin erkən dövr nümayəndələrinə qarşı laqeyd münasibətin göstəricisi kimi dəyərləndirilə bilər.

Bütün bunlara baxmayaraq, Katanovun fəaliyyəti və mövqeyi onu elmə və ideyaya sədaqətin simvolu, Bakı Türkoloji Qurultayının ideallarını həyat yolu ilə təsdiqləmiş bir alim və ideya qəhrəmanı kimi tarixdə saxlayır. Onun adının və irsinin yenidən araşdırılması, elmi dövriyyəyə qaytarılması həm türkoloji elmin inkişafı, həm də milli-mədəni yaddaşın bərpası baxımından mühüm vəzifə olaraq qalır.

***Namiq QƏDİMOĞLU***
***XQ***

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 14 (30983) 24 yanvar 2026-cı il, şənbə

## İDMAN

### Güləş Federasiyasının rəhbərliyi Qarabağda



**Azərbaycan Güləş Federasiyasının (AGF) rəhbərliyi Qarabağa səfər edib.**

AGF-nin vitse-prezidentləri Namiq Abdullayev, Fərid Mansurov, baş katib Pərvin Piriyev, yunan-Roma güləşi üzrə koordinator Rafiq Hüseynov Şuşa və Xankəndidə görüşlər keçiriblər.

Şuşa Şəhəri Dövlət Qoruğu İdarəsində, Şuşa şəhər məktəbində və Qarabağ Universitetində olan federasiyanın təmsilçiləri rəsmi şəxslərlə yanaşı, məktəblilər və tələbələrlə görüşüblər. Azərbaycan idmanında uğurlarıyla parlaq iz qoymuş Namiq Abdullayev, Fərid Mansurov və Rafiq Hüseynov öz karyeralarından danışıb, yeniyetmə və gənclərin suallarını cavablandırıb və onlara tövsiyələrini çatdırıblar.

Güləş Federasiyası belə görüşləri bundan sonra da sistemli şəkildə davam etdirəcək.

### Azərbaycan polo üzrə 41-ci Dünya kubokunda




**23-25 yanvar 2026-cı il tarixlərində İsveçrənin Sankt-Moritz şəhəri bir daha dünyanın polo mərkəzinə çevrilərək qarüstü polo üzrə 41-ci Dünya kuboku turnirinə ev sahibliyi edəcək.**

Sankt-Moritz gölünün donmuş buz qatı üzərində keçirilən turnirdə dünya miqyasında tanınmış və ən güclü idmançılar mübarizə aparacaqlar.

Heydər Əliyev Fondunun dəstəyi və Azərbaycan Respublikası Atçılıq Federasiyasının təşkilatçılığı ilə bu nüfuzlu yarışda ölkəmizi "Land of Fire" komandası təmsil edir.

Yarışlar çərçivəsində Heydər Əliyev Fondunun təşkilatçılığı ilə ölkəmizin tarixi, mədəniyyəti, zəngin turizm imkanlarını təbliğ edən Azərbaycan pavilyonu fəaliyyət göstərir. Povilyonda müxtəlif milli brendlər, sənətkarlıq nümunələri və eksponatlar nümayiş olunur.

Dünya kuboku uğrunda "Land of Fire", "Sankt Moritz", "Flexjet", "Standing Rock", "Investec" və "Mackage" komandaları mübarizə aparacaqlar.

Çempionatda komandamız ilk rəsmi görüşünü yanvarın 23-də Bakı vaxtı ilə saat 15:15-də "Sankt Moritz"ə qarşı keçirəcək. İlk yarış günündən sonra 4 komanda yarımfinal mərhələsinə vəsiqə qazanacaq. Turnirin sonuncu günü – yanvarın 25-də üçüncü yer uğrunda görüş və final oyunu keçiriləcək.

Final qarşılaşmasından sonra turnirin qalibi, ən yaxşı oyunçusu və ən yaxşı polo atı mükafatlandırılacaq.

### Misli Premyer Liqasında XVII tur



**Dünən Misli Premyer Liqasında keçirilən 2 oyun ilə XVII tura start verilib. Quba Olimpiya İdman Kompleksinin stadionunda "İmişli" – "Araz-Naxçıvan"ı qəbul edib.**

Görüşün 5-ci dəqiqəsində Juninyo meydan sahiblərini önə çıxarıb. 15-ci dəqiqədə Çarles Boli hesaba tarazlıq gətirib. Qarşılaşmanın 84-cü dəqiqəsində Dieqo Almeda "İmişli"ni önə çıxartsa da, qonaqlardan Ramon Maçado 90+2-ci dəqiqədə baxımlı qolla hesabı yenidən bərabərləşdirib –2:2.

"Palms Sports Arena"da isə 2 paytaxt təmsilçisi üz-üzə gəlib. "Neftçi" "Zirə" görüşü 0:0 hesabı ilə başa çatıb.

Qeyd edək ki, bu gün Şamaxı şəhər stadionunda "Şamaxı" – "Qəbələ", "Azərsun Arena"da isə "Qarabağ" – "Kəpəz" oyunu keçiriləcək. Bazar günü baş tutacaq turun son qarşılaşmalarında Tovuz şəhər stadionunda "Turan Tovuz" "Sumqayıt"ı, "Bank Respublika Arena"da isə "Sabah" – "Karvan-Yevlax"ı sınağa çəkəcək.

*Qabil YUSİFOĞLU*
*XQ*

*Elimizdən-obamızdan*

# Güllünün "sədr taxtı"

**O çağlarda kəndimizdə hər evdə bir "sədr taxtı" olardı. Bütün külfət o "sədr taxtı"nın üstündə yatardı. Öz ocağının tüstüsü də, istisi də, hətta "sədr taxtı" da ona şirin idi. O taxtın başına pərvanə kimi dolanırdı. Oğlunun körpələrinin–nəvələrinin mışıl–mışıl yatdığı taxtın üstündə yatmağı şahlıq taxtından üstün tuturdu Güllü nənə. Deyirdi həmişə yerimi "sədr taxtının ikinci mərtəbəsi"ndə salarsınız. İkinci mərtəbə dedikdə, o taxtın üstündə çarpayı qoyulmuşdu, Güllü nənə üçün ayrıca yer salınırdı. Özü belə istəyirdi. Deyirdi mən ağa qızıyam, yerim-yatağım hündür olmalıdır. Bir vaxtlar dağı arana, aranı dağa daşıyan qeytərli Güllü nənə gecələr öz güllü yorğanına bürünüb şirin yuxu yatırdı.**



**Bir zamanlar kənd evlərinin ürəyi sayılan "sədr taxtı". Güllü nənə üçün bu taxt təkcə yatacaq yox, nəsil yaddaşı, ocaq və həyatın özü idi.**

...Ömür Günəşi qüruba enəndə oğlu Ziyəddinə üz tutub dedi: - Bir gün ölsəm, elə bil ki, durnaların qatarına qoşulub getmişəm. Özünü mənsiz hiss eləmə. Bu işıqlı dünyada mən çox zülmlərə dözdüm, çox çətinliklərə sinə gərdim. Amma heç vaxt sınmadım, dost-düşmən qarşısında əyilmədim. Sən də heç zaman dərdin səsinə uyma. Mən səni və bacını ürəyimin qanı ilə böyütdüm, amma heç kimi könlümün şikayəti ilə incitmədim. Dünyanın ən böyük ayrılıq dərdi mənim ürəyimin başındadır. Qız vaxtımdan saçlarım dərddən boyanmış dağların qarı kimi ağappaq idi. Şükürlər olsun ki, Tanrım taleyimi çarəsiz yazmadı. Stalin öləndən sonra Borçalıya qayıtdıq, sonra da bəraət aldıq.

...Bolşevik hökuməti onun kəndxuda atası Təhməzqulunun və nəsil şəcərəsinin eldəki nüfuzundan qorxurdu. Güllünün uşaqlığının şüurlu hissəsi təqiblər, təhdidlər, faciələr içində keçmişdi. Evləri Faxralı kəndinin gözəl guşələrindən birində idi. Oradan hər şey güzgü kimi aydın görünürdü. Səksən yaşlı Təhməzqulu ağanı bolşevik hökuməti hündür bir təpənin üstündə kənd adamlarının gözü qarşısında güllələdi. Həmin o hündür təpə sanki edam meydanına çevrilmişdi. Anaların, bacıların ahı bulud-bulud göylərə ucalırdı. Uzun illər o faciənin təsiri insanları tərk etməmişdi. O ağrıları sözlə ifadə etmək çətindir, çox çətindir. Müdhiş mənzərənin miqyasının böyüyəcəyini düşünənlərin başının üstündən göy, ayağının altından yer qaçırdı. Bütün kənd yasa batmışdı. Analar ağlayırdı, mərdanə kişilər heykəl kimi cansız və dalğın görünürdü. Uşaqların üzündə sonsuz qorxu və dilsiz iztirab vardı.

Başına bağladığı güllü yaylığının ucu ilə göz yaşlarını silən Güllü də pəncərədən oğrun-oğrun zirvəli dağlara baxırdı. Gördükləri iti xəncər kimi ürəyinə sancılanda gündüzlər Günəşlə, gecələr Ayla həmdəm olurdu.

Tarixin acı dərsləri – qətllər, sürgünlər, işgəncələr onun nəsil şəcərəsinin qürurunu sındıra bilməmişdi. Güllü nənə özünü sındırıb ağayana dərdini hər adama söyləməzdi. Bilirdi ki, bu gün didərgin salınıb sürgün edilsələr də, sabah, biri gün öz isti yuvalarına dönəcəklər. İçindəki dərd və ümidlə yaşayırdı. Dünyaya göz açdığı, qucağında böyüdüyü eldən Orta Asiya çöllərinə sürgün edilməyin və üçillik məhbəs həyatının acısını dadsa da, öz yurd-yuvalarına həmişəlik qayıdacaqlarına inanırdı.

İman Türkiyəyə keçdikdən sonra arvadı Balaxanım bir gün körpə oğlu Teymuru Güllünün yanında qoyub, qayadan dirilik çiçəyi dərmək adı ilə evdən çıxdı. Və bolşevik hökumətinin əlinə keçməmək üçün torpağa, daşa, gülə-çiçəyə əlvida deyərək özünü qayadan atdı. Bu hadisədən sonra İmanın ən yaxın qan qohumlarını, o cümlədən bacısı Güllünü sürgün etdilər.

Ömrün-günün sərt çağında başının üstünü qar alanda da, o, dünyaya həyat eşqi ilə baxırdı. Bir zamanlar dağ boyda dərd daşıdığı çiynində sonra nəvələrinin sevincini daşıyırdı. Ömrünün-gününün əziz həmdəmi övladları və nəvələri idi. Bilirdi ki, həyatın barı, ömrün nübarı şirin-şəkər nəvələrdir. Beş nəvəsi başının üstə dayananda, ağsaçlı günləri nura boyananda özünü dünyanın bəxtəvəri sayırdı.

Ayaması "Çopur Güllü" olsa da, Güllü nənə elimizin yaraşığı idi. Üzündə, gözündə, söhbətində-sözündə ərənlik, ərdəmlik nişanəsi vardı.

Mən universiteti bitirib yayda kəndimizə gələndə Güllü nənəni həyətimizdəki tut ağacının altında oturub anamla söhbət edən gördüm. Boynumu qucaqlayıb üzümdən öpdü. Dodaqları titrəyə-titrəyə:

– Boyuna qurban olum, nə yaxşı gəldin, yaxşı ki, gəldin. Torpaq çəkir, qan çəkir, - dedi.

Tarixin dərin qatlarından bir vaxtlar qeyrət qalası kimi ucalan Güllü nənə ilə son görüşüm məni kövrəltdi. Boyu balacalaşmışdı, rəngi sozalmışdı.

...Güllü nənədən nə qədər yazsan, sözü-söhbəti bitməz. Bu, elə bir qeyrət simvoludur ki, gərək ondan bir roman yazasan. Daha ömrün sonuna da bir şey qalmayıb. Yaş ötür, ömür bitir. Yaş demişkən, Güllü nənə yüz yaşın kürəyini yerə vurduqdan sonra köçdü bu dünyadan.

*Həzi HƏSƏNLİ,*
*şair-jurnalist*

*Sənət təqdimatı*

# Qərbi Azərbaycan aşıqlarının çal-çağırı






**Yanvarın 22-də "Bizi Birləşdirən Mədəniyyət" İctimai Birliyinin təşkilatçılığı, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin və Azərbaycan Aşıqlar Birliyinin tərəfdaşlığı ilə Şəhriyar adına Mədəniyyət Mərkəzində "Qərbi Azərbaycan aşıqlığı bu gün" adlı konsert proqramı təşkil olunub.**

"Bizi Birləşdirən Mədəniyyət" İctimai Birliyinin sədri, Əməkdar artist Ramil Qasımov bildirib ki, bu konsert rəhbərlik etdiyi təşkilatın elan etdiyi "Musiqi Kimliyimiz" layihəsi çərçivəsində ilk tədbirdir. Layihə çərçivəsində silsilə tədbirlər nəzərdə tutulur. QHT-lərə Dövlət Dəstəyi Agentliyinin İdarə Heyətinin sədri Aygün Əliyeva Agentliyin təşkil etdiyi müsabiqələrdə Qərbi Azərbaycana qayıdış mövzusunun son illərdə prioritetə çevrildiyini bildirib. O, Agentliyin bu cür peşəkar, aktual layihələrə bundan sonra da dəstək olacağını vurğulayıb. Azərbaycan Aşıqlar Birliyinin sədri Məhərrəm Qasımlı Qərbi Azərbaycan aşıq mühitinin zəngin irsinin qorunması və gələcək nəsillərə ötürülməsinin vacibliyini diqqətə çatdırıb. O, QHT-lərə Dövlət Dəstəyi Agentliyinin donorluğu ilə 2025-ci ildə "Qərbi Azərbaycan aşıqlarının dastan repertuarı" adlı kitab nəşr etdiklərini bildirib.

Konsert proqramında Qərbi Azərbaycan aşıq mühitinə məxsus müxtəlif aşıq, el havaları və dastan nümunələri səsləndirilib. Sözləri Aşıq Alıya məxsus "İrəvan çuxuru"nu Nəbi Nağıyev, Nazim Quliyev, sözləri Aşıq Ələsgərə məxsus "Baş sarıtel"i Əli Pənahoğlu, "Baş müxəmməs"i Fətulla Göyçəli, Əladdin Göyçəli, İmran Xəlilov, "Hüseyni"ni Xanım Göyçəli və digərləri aşıq sənətinin incilərini təqdim ediblər.

*XQ*

## HAVA

# Yağmurlu şənbə...

**Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən verilən məlumata görə, bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Lakin 23-dən 24-nə keçən gecə bəzi yerlərdə çiskinli olacağı ehtimalı var. Şimal-qərb küləyi əsəcək.**

Havanın temperaturu gecə 1-3, gündüz 5-10 dərəcə isti olacaq. Atmosfer təzyiqi 759 millimetr civə sütunundan 764 millimetr civə sütununa yüksələcək. Nisbi rütubət gecə 80-85, gündüz 65-70 faiz təşkil edəcək.

Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək.

Havanın temperaturu gecə 0-5 dərəcə şaxta, gündüz 5-9 dərəcə isti, dağlarda gecə 5-10, gündüz 0-5 dərəcə şaxta olacaq.

Gecə və səhər bəzi yollar buz bağlayacaq.

*Q.ƏLİYEV*
*XQ*



DİREKTOR – BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
Email: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994 (51) 280-16-44

"Xalq" qəzeti redaksiyası" MMC-nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 2881
SİFARİŞ 138
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Nurlan ABDALOV
Çapa imzalanmışdır 00:00